www.musavat.com
# YENİ MÜSAVAT
Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 27 sentyabr 2016-cı il Çərşənbə axşamı № 212 (6533) Qiyməti 60 qəpik

**Xəbər**

## Maliyyə naziri maaş və pensiyaların artırılacağını vəd etdi

yazısı səh.7-də

**Gündəm**

### Ölkədə referendum baş tutdu



Beynəlxalq müşahidəçilərin rəyi müsbət oldu; müxalifət isə...

yazısı səh.3-də

### İqtidar deputatları niyə Rusiyanı yox, Qərbi vururlar?

yazısı səh.4-də

### Yeni yaradılan "ABAD" qeyr-neft sektorunu abad edəcəkmi?

yazısı səh.10-da

### Kremlin Azərbaycana təzyiqlərinin pərdəarxası

yazısı səh.9-da

### Rusiya Bakıya hərbi gəmi göndərir - güc nümayişi, yoxsa dəstək...

yazısı səh.13-də

### Rusiyadan Ermənistanı qıcıqlandıracaq qərar

yazısı səh.11-də

### Valyuta bazarındakı qeyri-müəyyənlik daşınmaz əmlak bazarını çökdürüb

yazısı səh.15-də

### Özbəkistanın yeni prezidenti kim olacaq?

yazısı səh.13-də

### Gözlənilən neft toplantısı - Rusiyanı narahat edən səbəblər...

yazısı səh.12-də

### Azərbaycanda toy "qurbanları": girov qalan gəlinlər, bəylər...

yazısı səh.15-də

### Beynəlxalq maliyyə qurumlarına ehtiyacımız varmı...

yazısı səh.12-də

### Manat möhkəmlənir - amma müvəqqəti olaraq...

yazısı səh.10-da

## Prezident geniş islahatlar üçün mandat aldı

# REFERENDUM BİTDİ, YENİ SİYASİ-İQTİSADİ MƏRHƏLƏ BAŞLADI

Obyektiv təhlilçilər belə hesab edir ki, əslində dövlət başçısı İlham Əliyevin hazırladığı konstitusiya dəyişiklikləri iqtidarda "siyasi devrimdir" və əsas etibarilə hakimiyyətin daxilində yenilənməyə hesablanıb




yazısı səh.5-də

## Ermənilərdən sensasion etiraf - "Bizi atom bombası da xilas etməz..."

"İsgəndər" raketləri düşmən ölkədə əminlik yaratmayıb; Rusiyanın bu jesti Ermənistanın ağzına verilən əmzik kimi qiymətləndirilir; erməni politoloq öz xalqını eyforiyaya uymamağa çağırır

yazısı səh.8-də



*Şahin Cəfərli:*

**"İsraillə münasibətlərin faydasını aprel döyüşlərində gördük"**

yazısı səh.4-də



*Mehman Əliyev:*

**"İqtidar bir addım öndə görünür"**

yazısı səh.5-də



*Elman Rüstəmov:*

**"Bu gün başlıca məsələ manatın məzənnəsi yox, məzənnə-inflyasiya cütlüyüdür"**

yazısı səh.7-də

YENİ MÜSAVAT
N 212 (6533) 27 sentyabr 2016



## Azərbaycan prezidenti Belarusun müdafiə nazirini qəbul etdi

**Prezident İlham Əliyev Belarusun müdafiə naziri Andrey Ravkovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. APA-nın məlumatına görə, dövlət başçısı Belarus müdafiə nazirinin Azərbaycan beynəlxalq müdafiə sərgisində iştirak etmək üçün böyük nümayəndə heyəti ilə Bakıya səfərinin önəmini vurğulayıb.**

Ölkələrimiz arasında hərbi əməkdaşlığın bir çox illərdir ki, uğurla inkişaf etdiyini deyən prezident İlham Əliyev bu sahədə əlaqələrimizin razılıq doğurduğunu bildirib. Dövlət başçısı bunu Azərbaycanla Belarus arasında yüksək səviyyəli etimadın göstəricisi, ölkələrimizin iqtisadi, siyasi, hərbi və digər sahələrdə çoxplanlı əməkdaşlığa əsaslanmasının yaxşı təzahürü kimi dəyərləndirib.

Son illər Belarusdan alınan texnikanın çox yüksək standartlara cavab verdiyini deyən dövlət başçısı bu barədə Belarus prezidenti Aleksandr Lukaşenko ilə görüşü zamanı da danışdıqlarını, azərbaycanlı mütəxəssislərin də bu texnikaların yüksək keyfiyyətindən və etibarlılığından razı qaldıqlarını qeyd edib. Prezident İlham Əliyev bütün bunları Belarusun hərbi-texniki sahədə əldə etdiyi böyük uğurların göstəricisi kimi dəyərləndirib. Ölkələrimiz arasında tarixən əlaqələrin mövcud olduğunu qeyd edən dövlət başçısı əməkdaşlığımızın gələcək inkişafı üçün yaxşı perspektivlərin olduğunu vurğulayıb.

Prezident İlham Əliyev Azərbaycan beynəlxalq müdafiə sərgisində Belarus hərbi texnikasının nümayiş etdirilməsinin ölkəmizin bu sahədəki yeniliklərlə tanış olması və birgə əməkdaşlıq imkanlarının müəyyənləşdirilməsi baxımından önəmini qeyd edib. Belarus müdafiə nazirinin Azərbaycana səfərinin ölkələrimiz arasında əlaqələrin daha da inkişaf etdirilməsinə xidmət etdiyini deyən dövlət başçısı səfərin əməkdaşlığımızın gələcək inkişafı ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını söyləyib.

Ölkəmizə səfərinin Azərbaycan üçün əhəmiyyətli bir günə təsadüf etdiyini vurğulayan A. Ravkov isə keçirilən referendumu mühüm hadisə kimi dəyərləndirib.

## Avropa Şurası İlqar Məmmədova görə narahatdır

**Avropa Şurası Nazirlər Komitəsi İlqar Məmmədov barədə Avropa İnsan Hüquqları Məhkəməsinin hökmünün Azərbaycan hakimiyyəti tərəfindən icra olunmamasından "dərindən narahatdır". Bu barədə komitənin daxili nazirlər müavinlərinin birgə bəyanatında deyilir.**

Komitə bildirir ki, Azərbaycan hakimiyyəti hökmdə qeyd edilmiş qanun pozuntularının qarşısını almağa yönələn addımlar barədə heç bir məlumat verməyib.

Bəyanatda İlqar Məmmədovun həbsdə qalması ilə bağlı deyilir ki, Azərbaycan Konvensiyanın 46 maddəsinə əsasən məhkəmə qərarlarını icra etməyi üzərinə öhdəlik götürüb.

"Azərbaycan hakimiyyətinin bu məsələyə dair susması komitəni "dərindən narahat edir", bəyanatda deyilir .

Komitə İlqar Məmmədovun Ali Məhkəməyə təqdim edilmiş apelyasiya şikayətinin dərhal araşdırılmasına və bu prosesin müddəti barədə məlumat verməyə çağırıb.

Xaric İşlər Nazirliyi BBC Azərbaycancaya bəyanata hələlik rəsmi reaksiyası olmadığını bildirib.

REAL Hərəkatının lideri İlqar Məmmədov 2013-cü ildə İsmayıllıda baş verən etirazlardan sonra kütləvi iğtişaşlara çağırış və hakimiyyət nümayəndələrinə müqavimət göstərmək ittihamı ilə həbs olunub.

2014-cü ildə Şəki Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə İlqar Məmmədov 7 il müddətinə azadlıqdan məhrum edilib.

**"Qaya Mətbuat Yayımı" MMC!**

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Ordumuz artilleriyadan döyüş atışları yerinə yetirdi

**Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi döyüş hazırlığı planına əsasən Raket və Artilleriya Qoşunlarının hərbi hissə və birləşmələri döyüş atışlı təlimlər keçirib.**



Bu barədə nazirliyin mətbuat xidməti məlumat yayıb.

Müdafiə Nazirliyindən verilən məlumata görə, aprel ayında əldə edilmiş döyüş təcrübəsi nəzərə alınmaqla səhra şəraitində keçirilən artilleriya təlimlərində bölmələrin qarşılıqlı əlaqədə fəaliyyəti, atəşin idarə olunması və müxtəlif şəraitli atəş mövqelərindən tapşırıqlar yerinə yetirilib.

Optik və radiotexniki kəşfiyyat vasitələri, pilotsuz uçan aparatlar, eləcə də xüsusi təyinatlıların artilleriya kəşfiyyatı icra edilməklə şərti düşmənin döyüş düzülüşünün bütün dərinliyində örtülü və açıq mövqelərdəki tək və qrup halında, o cümlədən hərəkətdə olan hədəflər məhv edilib.

Təlimə cəlb olunan müxtəlif raket sistemləri və artilleriya qurğuları heyətlərinin döyüş hazırlığı, bacarığı və qarşılıqlı fəaliyyəti Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən yüksək qiymətləndirilib.

## ''Günəşli'' yatağında baş verən hadisənin təfərrüatı açıqlanıb

**"Azneft" İB "28 May" NQÇİ-nin 19 saylı dərin dəniz özülündə 71 saylı quyuda əsaslı təmir zamanı baş vermiş qaz təzahürünün təfərrüatı məlum olub.**

"Report"un məlumatına görə, qaz təzahürü səhər təmir zamanı baş verib və açıq fontana çevrilib. Baş verə biləcək yanğının qarşısının alınması üçün dərhal özülün yanğınsöndürmə sistemi işə salınıb, özüldə istismarda olan digər quyular bağlanılıb, özülün kommunikasiya sistemi tam təcrid edilib, işçi heyətinin vacib olan mütəxəssisləri saxlanılmaqla digərləri "Neftegaz-64" gəmisi vasitəsilə təxliyə olunub.

Eyni zamanda özülə kömək üçün 2 ədəd ixtisaslaşdırılmış VİXR tipli, "Neftegaz" tipli və Şirvan tipli kran gəmiləri cəlb edilib.

"Azneft" İB-nin baş mütəxəssisləri və Fontana Qarşı Dağ Mədən Xilasetmə Hərbiləşdirilmiş Hissəsinin briqadası hadisə yerinə yollanıb. Vəziyyət nəzarətə götürülüb, fontanın qarşısının alınması üçün tədbirlər görülüb.

Fövqəladə Hallar Nazirliyi (FHN) və SOCAR sentyabrın 26-da "Günəşli" yatağında baş verən yanğınla bağlı birgə məlumat yayıb.

SOCAR-dan APA-ya daxil olan birgə məlumatda qeyd olunur ki, sentyabrın 26-da "Azneft" İB-nin "28 May" adına NQÇİ-nin "Günəşli" yatağının 19-cu özülündə 71 saylı quyuda təmir işləri aparılarkən qaz təzahürü meydana çıxıb və açıq fontana çevrilib.

Saat 18:00 radələrində fontanın bağlanması ilə bağlı aparılan işlər zamanı qaz təzahürünün ani alışması nəticəsində yanğın hadisəsi baş verib. Dərhal Dövlət Yanğından Mühafizə Xidmətinin yanğınsöndürən-xilasedicilləri özüldə olan 69 nəfəri "Vixr-5" yanğınsöndürmə gəmisinə təxliyə ediblər.



## "Referendumdan sonra aparılacaq islahatlar əsasən iqtisadi sahəni əhatə edəcək"

**"Referendumdan sonra aparılacaq islahatlar əsasən iqtisadi sahəni əhatə edəcək. İslahatların istisadiyyatın bütün sahələrini əhatə etməsi nəzərdə tutulur".**

APA-nın məlumatına görə, bunu Yeni Azərbaycan Partiyasının (YAP) icra katibi-sədr müavini, baş nazirin müavini Əli Əhmədov sentyabrın 26-da ümumxalq səsverməsi (referendum) ilə bağlı keçirdiyi mətbuat konfransında deyib.

O qeyd edib ki, islahatlar sosial sahələri də geniş əhatə edəcək: "Bu islahatlar imkan verəcək ki, biz Azərbaycan vətəndaşları üçün qarşımıza qoyduğumuz bütün sosial proqramları həyata keçirə bilək".

## "İvanişvilini əzib keçəcəyəm"

**İvanişvilinin mənim Gürcüstana dönüş yolumda dayanması, sürət qatarının qabağında dayanmağa bənzəyir.**

Axar.az xəbər verir ki, bunu Batumidə öz tərəfdarlarına telefonla müraciəti zamanı Gürcüstanın eks-prezidenti Mixail Saakaşvili söyləyib. Onun sözlərinə görə, tezliklə son dörd ilin bədbəxtliyi geridə qalacaq

"Ölkənin yeganə inkişaf yolu oyanışdır. Bizi heç kim saxlaya bilməz. İvanişvilinin mənim yolumda dayanması sürət qatarının qabağında dayanmaq kimi bir şeydir. İstənilən halda sürət qatarı öz yolunu gedəcək, o isə əzilib relslərə yapışacaq".

## Rusiya Ermənistanla hərbi sazişi təsdiqlədi

**Rusiya hökuməti Ermənistanla Qafqaz regionunda hava hücumundan birgə regional müdafiə sisteminin yaradılması haqqında sazişi təsdiq edib.**

"RİA Novosti" xəbər verir ki, bu barədə müvafiq sənəd hüquqi informasiya portalında dərc edilib.

## Fransa İsveçrə bankından 45 min sahibkar haqda məlumat istəyib

**Fransa hökuməti İsveçrənin UBS bankından 45 min fransalı sahibkarın maliyyə qurumundakı göstəriciləri haqda məlumat tələb edib. "Report" "RİA Novosti"yə istinadən xəbər verir ki, Fransanın Vergilər Nazirliyi cari ilin mayında bununla bağlı İsveçrə bankına müraciət göndərib.**

Məlumata görə, Fransa hökuməti 2006 və 2008-ci illərdə ölkə ərazisində yaşamış indiki və keçmiş sahibkarların bank hesabları ilə maraqlanır.

İndiyədək həmin iş adamlarından 5 mini haqda məlumat əldə edilib.



## Ramiz Mehdiyev Venesiya Komissiyasının rəyinə münasibət bildirdi

**Azərbaycan Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev Venesiya Komissiyasının konstitusiya dəyişikliyi ilə bağlı rəyinə münasibət bildirib.**

APA-nın məlumatına görə, R. Mehdiyev VK-nın mövqeyinə münasibətinin mənfi olduğunu deyib: "Onların rəyinə münasibətim mənfidir, çünki reallığa uyğun deyil. Onlar bizimlə müzakirə aparmayıblar. Biz onlara sənəd göndərməmişik, bizimlə heç bir müzakirə aparmadan qərar verib, tapşırıq əsasında belə rəy yayıblar. Referendum Azərbaycana çox şey verəcək. Ölkədə inkişaf edir, referendum da bu inkişafa uyğun olaraq keçirilir".

## Türkiyədə terrorçular hərbçilərə hücum etdi, 6 əsgər şəhid oldu

**Türkiyənin Şırnak əyalətində PKK qruplaşmasının terrorçuları hərbçilərin nəzarət məntəqəsinə hücum edib.**

"Report" "Haber7"yə istinadən xəbər verir ki, iriçaplı silahlarla həyata keçirilən hücum nəticəsində 6 hərbçi şəhid olub, yaralananlar var.

Hadisə yerinə təcili tibbi yardım maşınları cəlb edilib.

Terrorçuların zərərsizləşdirilməsi istiqamətində əməliyyat keçirilir.

## Aeroporta dəmir yolu xətti çəkiləcək

**"Bakı Dəmir Yolu Vağzalından Heydər Əliyev Beynəlxalq Hava Limanına dəmir yolu xəttinin çəkilməsi layihəsi üzərində iş gedir".**

Bunu "Report"a açıqlamasında "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov bildirib.

"Bu layihənin işlənib-hazırlanması ilə bağlı tapşırıq verilib. Hazırda layihə üzərində iş gedir", - deyə o əlavə edib.

Xatırladaq ki, Bakı Dəmir Yolu Vağzalı ilə aeroportu birləşdirəcək dəmir yolu xəttinin uzunluğunun 25 km olması nəzərdə tutulub. İlkin plana əsasən, elektrik qatarları yeni marşrut üzrə Bakı Metropoliteninin "Koroğlu" stansiyası ərazisindəki stansiya vasitəsilə Binə qəsəbəsi istiqamətində hava limanına qədər hərəkət edəcək.

YENİ MÜSAVAT
N 212 (6533) 27 sentyabr 2016

**Sentyabrın 26-da Azərbaycanda konstitusiyada dəyişikliklər edilməsi məqsədi ilə ümumxalq səsverməsi (referendum) keçirildi. Səsvermə saat 8.00-da başlayıb, saat 19.00-da başa çatıb. Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov keçirdiyi mətbuat konfransında bildirib ki, seçicilərinin səsverməsi üçün bütün imkanlar yaradılıb və konstitusiyaya təklif edilən dəyişikliklərlə bağlı bütün 29 hissə üzrə öz fikirlərini ifadə etmək imkanı olub.**





# Referendum baş tutdu

## Beynəlxalq müşahidəçilərdən ilkin rəy müsbət oldu; exit-poll-un nəticələrinə görə, seçici fəallığı 66,8 faiz olub; ABŞ təşkilatı: "88,9 faiz seçici dəyişikliklərə müsbət cavab verib" müxalifətdən "səsverməyə gələn az oldu, saxtakarlıq edildi" açıqlamaları verildi





MSK sədri qeyd edib ki, səsvermə prosesini 53 mindən artıq müşahidəçi izləyib. Eyni zamanda referendumu 18 beynəlxalq təşkilatın 117 müşahidəçisi izləyib. Müşahidəçilər 33 ölkəni təmsil edib: "Bunların sırasında AŞ PA, MDB Parlament Assambleyası, TürkPA, Böyük Britaniya, Fransa, Avstriya, Avstraliya və digər ölkələrin parlamentlərindən ibarət nümayəndə heyətləri, müxtəlif ölkələrin mərkəzi seçki komissiyalarının təmsilçiləri var".

Vətəndaşlar 125 seçki dairəsi üzrə 5 627 seçki məntəqəsində səs veriblər. Seçici siyahılarına əsasən, 5 milyon 260 mindən çox səsvermə hüququ olan şəxs var. Azərbaycanın xaricdəki 38 diplomatik təmsilçiliyində də səsvermə keçirilib.

Günün birinci yarısı prezident İlham Əliyev xanımı Mehriban Əliyeva və ailə üzvləri ilə birlikdə 29 saylı Səbayel seçki dairəsinin 6 saylı seçki məntəqəsində səs verib. Eyni zamanda Azərbaycanın dövlət və hökumət nümayəndələri də qeydiyyatda olduqları seçki məntəqələrində səs veriblər.

**Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev səs verdiyi seçki məntəqəsində jurnalistlərə açıqlamasında deyib ki, referendum Azərbaycana çox şey verəcək:** "Ölkədə inkişaf edir, referendum da bu inkişafa uyğun olaraq keçirilir".

**Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov səs verdiyi məntəqədə jurnalistlərə bildirib ki, referendum təşəbbüsünün əsas səbəblərindən biri də Azərbaycanda postneft dövründə çevik iqtisadi islahatların keçirilməsi effektli idarəçilik sisteminin yaradılması və mövcud bürokratik idarəçilikdəki mexanizmlərin aradan qaldırılmasıdır:** "2016-cı il ölkədə prezident tərəfindən islahatlar ili elan edilib. İslahatlar artıq başlayıb. Azərbaycan postneft dövrünə əlbəttə hazırlaşırdı, ancaq belə tez bir zamanda postneft dövrünün gələcəyini gözləmirdik. Buna müvafiq olaraq da dərhal perativ çevik islahatlar keçiril - məsi prezident tərəfindən irəli sürüldü. Hazırda həmin islahatlar paketi qəbul olunub, islahat qatarı dəmir yoluna buraxılıb. Bu işdə ölkənin bütün həm inzibati, həm iqtisadi, həm insan resursları səfərbər edilməkdədir.

Referendum bir tərəfdən Azərbaycanın inkişafından irəli gələn vəzifələrlə bağlıdırsa, digər tərəfdən qarşıda Azərbaycanı gözləyən vəzifələrlə bağlıdır ki, bu vəzifələrdə də çevik iqtisadi, siyasi və bütün sahələrdəki idarəçilik ona istiqamətlənib ki, dövlətin inkişafında gecikmələr olmasın. Milli iqtisadiyyatımız dərhal postneft dövrünün qanunlarına, tələblərinə uyğunlaşdırılsın. Bu istiqamətdə də Azərbaycan xalqının firəvan həyatını təmin edək".

**Referendum prosesini izləyən xarici müşahidəçilər də gün ərzində və səsvermə sona çatdıqdan sonra təəssüratlarını KİV-ə bildiriblər. MDB Parlamentlərarası Assambleyasının müşahidə missiyasının rəhbəri İlyas Umaxanov deyib ki, referenduma hazırlıq ən yüksək səviyyədə olub. Vətəndaşlara səsvermə hüququndan istifadə etmək üçün imkan yaradılıb:** "İnsanların səs verəcəkləri dəyişikliklər demokratiyanın əsaslarını möhkəmlətmək üçündür. Azərbaycan prezidenti İlham Əliyevlə dünən keçirilən görüşümüzdə bu məsələləri ətraflı müzakirə etdik. Keçmiş sovet respublikaları demokratiyanın inkişafının tam yeni formalarını nümayiş etdirir. Bu mənada Azərbaycan xalqının rəhbəri liderdir".

**APA-ya açıqlamasında AŞPA Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçisi Florin Sezar Preda deyib ki, Azərbaycanda keçirilən referendumla bağlı AŞ PA müşahidə missiyasının ilkin hesabatı assambleyanın payız sessiyasında müzakirə olunacaq:** "AŞPA-nın payız sessiyası oktyabrın 10-14-də keçiriləcək. Parlament Assambleyasının Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçiləri yenidən Azərbaycana səfər edəcəklər. Səfər noyabr ayına planlaşdırılır".

Qeyd edək ki, Sezar Prada və Azərbaycan üzrə digər həmməruzəçi Steffan Şennak ümumxalq səsverməsini müşahidə ediblər.

**Stefan Şennak deyib ki, səsvermə başladığı andan səs vermək üçün növbədə çoxlu adamlar olub. O bildirib ki, səsverməyə qatılanlar arasında qadınlar üstünlük təşkil edib:** "Səsvermə prosesi çox yaxşı təşkil edilmişdi".

**Kipr Parlamentinin deputatı, ATƏT PA-nın Demokratiya, İnsan Hüquqları və Humanitar Məsələlər Komitəsinin məruzəçisi Haciyanni Kiriakos deyib ki, Azərbaycanda referendumla bağlı səsvermə çox yaxşı təşkil edilib:** "Çoxlu sayda seçki məntəqəsində olmuşam. Proseduraların dəqiq həyata keçirildiyini müşahidə etdim".

**APA-ya açıqlamasında Böyük Britaniya Parlamentinin İcmalar Palatasının üzvü David Morris isə bildirib ki, olduğu seçki məntəqələrində hər hansı qanun pozuntusu ilə qarşılaşmayıb:** "Artıq 4-cü dəfədir Azərbaycanda seçki prosesini müşahidə edirəm. Burada seçicilər üçün yaxşı şərait yaradılıb. Deyə bilərəm ki, Azərbaycanda keçirilən səsvermə prosesi beynəlxalq səviyyə ilə müqayisə olunandır. Olduğumuz məntəqələrdə seçici fəallığının şahidi olduq".

Britaniyanın Lordlar Palatasının üzvü David Evans isə bildirib ki, Azərbaycanda tətbiq edilən seçki metodları yüksək səviyyədədir.

**AŞ PA-nın Azərbaycanda keçirilən referendumla bağlı qiymətləndirmə missiyasının rəhbəri Aleksandr Nikoloski bir neçə məntəqəyə baş çəkdikdən sonra jurnalistlərə açıqlamasında bildirib ki, AŞ PA missiyası Azərbaycana hökumətinin dəvəti ilə seçkiləri müşahidə etmək üçün gələn missiya 7 nəfərdən ibarətdir:** "Biz mümkün qədər çox məntəqədə səsverməni müşahidə etməyə çalışdıq. Sentyabrın 27-də ilkin müşahidələrimizlə bağlı mətbuat konfransı keçirəcəyik. 1-2 aydan sonra son nəticələri təqdim edəcəyik".

**TürkPA-nın baş katibi Jandos Asanov isə bildirib ki, referendumda bağlı böyük seçici aktivliyi müşahidə olunub:** "Referendum yaxşı təşkil olunub. Heç bir ciddi qayda pozuntusu qeydə alınmayıb".

Rusiya Federasiya Şurasının komitə sədri Dmitri Azarov isə bildirib ki, dövlət Azərbaycan xalqının gələcəyini müəyyənləşdirəcək vacib qərarla bağlı fikrini ifadə etməsi üçün yaxşı şərait yaradıb.

Avstraliyalı senator Kristofer Back deyib ki, referendum çox mütəşəkkil qaydada keçirilib.

**O bildirib ki, seçicilərin məntəqələrdə qeydiyyatı çox sadə və düşünülmüş şəkildə həyata keçirilib:** "Təəssüratlarımız çox xoşdur, pozitivdir".

**Belçika Polis üzrə Araşdırma Mərkəzinin əməkdaşı Qilis Bordo da referendumun yaxşı təşkil olunduğunu deyib:** "Məntəqələrdə yerli müşahidəçilər var idi. Qeyd etmək istərdim ki, qadın seçicilər daha çox fəallıq göstərirdilər".

Günün sonunda Fransanın "Opinion Way" Tədqiqatlar İnstitutunun "Vətəndaş Cəmiyyəti Uğrunda" Müstəqil Məsləhət və Yardım Mərkəzi ilə birgə Azərbaycanda ümumxalq səsverməsi (referendum) ilə bağlı keçirdiyi exit-poll-un nəticələri açıqlanıb.

APA-nın xəbərinə görə, exit-poll tədqiqatının ilkin nəticələrinə əsasən seçici fəallığı 66,8% olub.

Bildirilib ki, referenduma çıxarılan 29 suala verilmiş cavablar 4 blokda qruplaşdırılıb. Təhlükəsizliyin və müdafiənin təmin edilməsi ilə bağlı təkliflərə 89,3% "bəli", icra hakimiyyətinin strukturuna və səlahiyyətlər çərçivəsinə aid təkliflərə 88,9% "bəli", insan hüquqları və azadlıqlarının konstitusion təminatı ilə bağlı təkliflərə 90,1% "bəli" və Konstitusiyada nəzərdə tutulmuş seçkili və təyinatlı vəzifələrə namizədlər üçün yaş məhdudiyyətinin ləğv edilməsi ilə bağlı təkliflərə 88,8% "bəli" cavabını verib.

O da qeyd olunub ki, prezidentin səlahiyyət müddətinin 5 ildən 7 ilə artırılmasına seçicilərin təxminən 80%-i "bəli" cavabını verib.

"ELS" - Müstəqil Araşdırmalar Mərkəzi referendumla əlaqədar keçirdiyi exit-poll-un nəticələrini açıqlayıb.

APA-nın məlumatına görə, mərkəzin rəhbəri İradə Yaqubova bildirib ki, "exit-poll" ölkə ərazisində 400 seçki məntəqəsində həyata keçirilib. Onun sözlərinə görə, çıxışda sorğu Naxçıvan Muxtar Respublikası istisna olmaqla, 118 seçki dairəsini əhatə edib. O qeyd edib ki, saat 18:00-dək olan seçici fəallığı 65,1 faiz təşkil edib.

ABŞ-ın "Artur J. Finkelstein & Associates" şirkətinin Azərbaycandakı referendumda "Vətəndaşların Əmək Hüquqlarının Müdafiəsi Liqası" ilə birgə keçirdiyi exit-poll-un nəticələri açıqlanıb.

**APA-nın məlumatına görə, şirkətin vitse-prezidenti Corc Börnbaum deyib ki, ümumilikdə 32400 insan arasında müsahibə aparılıb və bu, çox böyük rəqəmdir:** "88,9 faiz seçici dəyişikliklərə müsbət cavab verib. İcra hakimiyyətində struktur dəyişikliklərinə 87,3 faiz tərəfdar olub. Təhlükəsizlik və müdafiənin təminatı ilə bağlı maddələrə 89,7 faiz seçici "hə" cavabını verib. İnsan hüquqları ilə bağlı dəyişikliyi 88,3 faiz seçici dəstəkləyib. Sosial təminatla əlaqədar maddələrə 86,5 faiz seçici "hə" deyib".

MSK da ümumxalq səsverməsində yekun seçici fəallığını açıqlayıb.

"Report"un xəbərinə görə, MSK Katibliyinin Seçkilər İnformasiya Mərkəzinin müdiri Fərid Orucov deyib ki, səsverməyə start verilən andan - saat 08:00-dan 19:00-a qədər ölkə üzrə 5 milyon 267 min 111 seçicidən 3 671 707 nəfəri (69,7 faizi) səsvermədə iştirak edib.

MSK seçicilərin neçə faizinin dəyişikliklərə "hə" dediyini rəsmən bu gün açıqlayacaq...

Müsavat Partiyasının Seçki Qərargahı isə gün ərzində KİV-ə yaydığı press-relizlərdə ölkə üzrə müxtəlif seçki məntəqələri yaxınlığında aparılan müşahidələr və daxil olan informasiyalar barədə məlumatlar yayıb. Məlumatlarda çoxlu sayda seçki məntəqələrinin ünvanları, nömrələri qeyd olunmaqla, həmin məntəqələrdə seçici aktivliyinin 10 faizi keçmədiyi, karusel əməliyyatından istifadə edildiyi, bülletenlərin qutulara top-topa doldurulduğu yazılır. Referendumla bağlı hazırlanacaq geniş hesabatın sentyabrın 27-də açıqlanacağı bildirilir. Yayılan xəbərdə həmçinin deyilir ki, Bakının Nəsimi rayonu ərazisindəki 19 saylı məktəbdə səsverməni müşahidə edən tanınmış müxalifət fəalı Cəmil Hacıyev polisə aparılıb.

Milli Şura və AXCP rəhbərliyi isə xalqın səsverməyə gəlmədiyini bəyan edib.

Qeyd edək ki, müxalifət partiyaları və bəzi ictimai qurumlar xalqa referenduma getməmək çağırışı etmişdilər.

Mətbuat Şurasının referendumla bağlı yaratdığı "qaynar xətt"ə referendumda peşə vəzifəsini yerinə yetirən jurnalistlər tərəfindən hər hansı müraciət daxil olmayıb.

**"Referendum baş tutdu, xalqın böyük əksəriyyəti səs verdi".**

**APA-nın məlumatına görə, bunu isə YAP icra katibi-sədr müavini, baş nazirin müavini Əli Əhmədov sentyabrın 26-da ümumxalq səsverməsi (referendum) ilə bağlı keçirdiyi mətbuat konfransında bildirib.**

**O qeyd edib ki, bu fikirləri YAP-ın müşahidəçilərinin verdiyi məlumat əsasında söyləyir:** "Xalq cənab prezidentə etimad göstərdi. Bu, ümumxalq etimadının testi idi. Bu test kifayət qədər uğurlu oldu".

**Ə.Əhmədov bildirib ki, bu gün referenduma çıxarılan məsələlər Azərbaycan prezidentinin apardığı uğurlu siyasətin hüquqi bazasının daha da möhkəmləndirilməsi məqsədi daşıyır:** "Referendum bundan sonra bu siyasətin daha da uğurlu aparılmasına kömək edəcək. Referendum təkcə Azərbaycan xalqı tərəfindən dəstəklənməyib. Bu, beynəlxalq təşkilatlar tərəfindən də maraqla qarşılanıb. Bizə çatan məlumat ondan ibarətdir ki, beynəlxalq müşahidəçilər də referendumun tam demokratik keçirilməsi qənaətindədirlər. Bugünkü referendum demokratik sahədə atılan uğurlu addımdır".

**Etibar SEYİDAĞA**



# Bəlkə sözü musiqiyə verək?..

Hüseynbala SƏLİMOV

**Bu ölkədə hərə bir şeyə görə utanır. Kimi evinə çörək pulu apara bilmədiyinə görə sıxılır, kimi də şəxsi təyyarəsi olmadığına görə xiffət çəkir...**

Sonuncuların dərdi lap böyükdür. Əşi, böyük nədir, böyükdən də böyükdür! Biri var, heç nəyin olmaya, biri də var hər şeyin - onlarla maşının, evin ola, amma bir quruca təyyarən olmaya və durub dostun -düşmənin yanında xar olasan...

Amma sözüm bunda deyil. Ondadır ki, bu ölkədə daha bir dərd də vardır ki, bu da bu ölkədə yaşamaq dərdidir. Bəli, elələri də var ki, başqa bir şeydən yox, bu ölkədə yaşamaqdan utanırlar...

Böyük dərddir! Elə dərddir ki, mübtəla olmayan, bilməz... Yox, xırdaçılığa-zada getməyəcəm, bircə-bircə deməyəcəm ki, bəs bu ölkədə yaşamağın axı nəyi utanc gətirir?! Bircə onu deyəcəm ki, beləlәri də var bizim lider ölkəmizdə!..

Bilirəm, deyəcəksiniz ki, biz beləyik də, suyunu içib, çörəyindən yeyirik, amma elə ki, iş gəlir anlamaq məqamına, bir-iki kitab oxuyandan sonra qayıdıb deyirik ki, bəs bu ölkə belədir-filandır!..

Ona görə də heç nə deməyəcəm. Bircə onu deyəcəm ki, söhbət tək siyasətdən - filandan da getmir. Nə çox bu dünyada siyasəti bərbad olan ölkələr! Yaşamırlarmı? Yaşayırlar! Düzdür, kənardan baxanlar və hər şeyi çək-çevir etməyi sevənlər buna yaşamaq yox, lap sürünmək və ən yaxşı halda isə mövcud olmaq deyirlər. Olsun. Məgər sürünənlər yaşamırmı? Yaşayırlar, onların da yaşamağı, necə deyər, sürünməkdə və bir deşikdən çıxıb o birisinə girməkdədir...

Deyəsən, çox dərinə getdim axı?.. Demişdim, xırdaçlıq etməyəcəm. Amma bir də gördüm, lap ucunu tutub ucuzluğa getmişəm. Nəyləyim? Bu söz ki var, klaviaturanın qabağında oturmağına bənddi, muncuq kimi biri-birinin ardınca düzülür...

Hə, yadıma düşdü... Bayaqdan fikirləşirdim ki, nə deyəcəkdim axı bunlara?! Bilirsinizmi, telekanallarda indi aparıcıların ən çox sevdiyi söz nədir? Bilmirsiniz? Onda deyim: "Gəlin sözü musiqiyə verək!"...

Bir-iki kəlmə oradan-buradan, "sənət"dən, "musiqi"dən danışırlar və azacıq söhbət ciddiləşən kimi qayıdırlar ki, gəlin sözü musiqiyə verək!.. İndi mən də az qala onların dediyini demək istəyirəm - nə sizin başınız ağrısın, nə də mənim...

Yox, baş ağrısı dedim, başqa bir şey də yadıma düşdü... Telekanallardakı verilişlərin azı 90 faizi "musiqi" verilişləridir. Dırnaqda yazmağımın da səbəbi var. Ona görə ki, bizim telekanallar əslində müxalifət adamlarının və müstəqil, öz fikri olan kəslərin üzünə bağlı olduğu kimi, əsl musiqinin də üzünə bağlıdır....

O gün muğamdan danışırdılar... Bir nəfər qayıtdı ki, baxın, bizim insanların 80-90 faizi klassik qəzəlləri əslində başa düşmür, orada nə deyildiyini anlamırlar, amma yenə də həvəslə və lap şövqlə dinləyirlər. "Səbəb"ini də belə izah etdi ki, musiqimiz insanlarımıza təhtəlşüurla çatır!..

Nə demək olar? Orijinaldır, deyilmi?.. Di gəl, mənim öz izahım var. Əsrlər boyu biz anlamadığımız şeyləri çox böyük həvəslə dinləmişik. Bir növ, adətkar olmuşuq. Ola bilsin, hər məclisdə bir və ya iki nəfər həmin qəzəllərdə həqiqətən də nə deyildiyini başa düşür. Amma qalanlar başlarını həmin bir-iki nəfərlə həmahəng yelləyirlər ki, guya, onlar da nəsə qanır. Axı demək olmaz "Mən başa düşmədim!"! Məclisdir bura axı!.. Deyərlər, bəs filankəs başqa bir filankəsin məclisinə "şuluq" saldı, çərənləyib qan qaraltdı və yaxud da ən yaxşı halda qayıdarlar ki, ayə, nə qanmaz adamdır bu!..

Bir məqam da var ki, onu da sizinlə sirr kimi bölüşəcəm - bilməyənlər ona görə özlərini bilənlər kimi göstərirlər ki, əslində bilənlərin özləri də həmin bilməyənlər kimi bir zad qanmırlar, necə deyər, üzündən oxuyur və mənasını anlamırlar...

Hə, harada qaldım?.. Qayıdım lap əvvələ... Qərəz, gördünüz ki, işlər şuluqdur, meydan verin musiqiyə. Buranınkı ancaq musiqilikdir. Dərinə getmək lazım deyil, çünki dərinə varsan, başqa yerə - dəmir barmaqlıqlar arasına gedib çıxarsan...

Bizim başqa sözümüz də var: yola ver... Gördünüz ki, vəziyyət o sözdür, dərinə getməyin, yola verin. Hamı nə deyir, siz də onu deyin. Hamı hansı tərəfə əyilir, siz də o tərəfə əyilin...

Çünki başqa yol yoxdur. Düzdür, bir yol da var, o da buradan getməkdir. Gəl, hamı bunu bacarmır - birinin pulu çatmır, başqa birisinin hövsələsi... Həm də bir adətkar olmaq məsələsi var. Çoxumuz bu ölkədə yaşamağa, bir növ, adət etmişik. Neyləyək? Əşi, heç nə, sözü verək yenə musiqiyə...

**Rusiyanın Ermənistana "İsgəndər-M" raketləri verdiyi ortaya çıxdıqdan sonra Azərbaycanın bu cür silahları zərərsizləşdirmək gücünə malik raketdən müdafiə sistemləri istehsalı edən İsraillə daha da yaxınlaşması gündəmə gəldi. İsrail ərazi və əhali baxımından Rusiyadan dəfələrlə kiçik olsa da, hərbi sənayesi, siyasi gücü dünya siyasətində söz sahiblərindən biri olmağına imkan verir.**



# Rusiyanın "İsgəndər" raketlərinə qarşı İsrail silahları...

## Şahin Cəfərli: "İsraillə yaxın münasibətlərin faydasını Azərbaycan ictimaiyyəti qısamüddətli aprel döyüşləri zamanı gördü"

Bəzi ekspertlər isə hesab edir ki, Rusiyanın ermənilərə ən müasir silahlar verdiyi bir zamanda Azərbaycan İsraillə yaxınlaşmaqla sanki cavab addımı atır. Bu baxımdan, Azərbaycanın belə bir ölkə ilə yaxınlaşmasının gətirəcəyi dividentlərlə yanaşı, risklər də ola bilər.

**Bu mövzuda "Yeni Müsavat"da danışan politoloq Şahin Cəfərli bildirdi ki, İsrail dövləti ilə yaxın münasibətlərin faydasını Azərbaycan ictimaiyyəti qısamüddətli aprel döyüşləri zamanı gördü:** "Bu ölkədən alınan texnoloji silahlar və hərbi sistemlər sayəsində Azərbaycan Silahlı Qüvvələrinin işğalçı ordu qarşısında üstünlüyü ortaya çıxdı. Hazırda ikitərəfli əməkdaşlığın hərbi aspekti digər aspektlərdən daha çox önə çəkilib. Əslində siyasi münasibətlər də yaxşı səviyyədədir və iki ölkə arasında hər hansı problem yoxdur. Lakin Azərbaycanın İsraildə səfirlik açmaması siyasi münasibətlərə az da olsa, kölgə salan amildir. Azərbaycan bu məsələdə ərəb dünyasının mövqeyini nəzərə alır. Çünki ərəb dövlətləri ilə münasibətləri qaydasında saxlamaq da Azərbaycan üçün çox önəmlidir, xüsusən ərəb ölkələrinin çoxluq təşkil etdiyi İslam Əməkdaşlıq Təşkilatı bizim üçün vacib beynəlxalq platformalardan biridir. BMT başda olmaqla, digər beynəlxalq təşkilatlar çərçivəsində ərəblərin və digər müsəlman ölkələrinin dəstəyi də qiymətlidir. Bu səbəbdən Azərbaycan İsraillə münasibətlərində bir qədər ehtiyatlı davranır".

**Ş.Cəfərlinin sözlərinə görə, əməkdaşlığın hərbi aspektinin inkişafı İsrail tərəfinin Azərbaycana verdiyi önəmin göstəricisidir. Azərbaycanın müsəlman dünyasında dini radikalizmdən uzaq azsaylı dünyəvi ölkələrdən biri olması, İsrailə düşmən kimi yox, dost kimi yanaşması, ölkəmizdə antisemitizmin müşahidə edilməməsi və yəhudilərin burada rahat, təhlükəsiz şəraitdə yaşaması İsrailin bizə isti münasibətinin əsas səbəbləridir:** "Digər amil isə Azərbaycanın geostrateji mövqeyi ilə əlaqədardır. Azərbaycan İranla həmsərhəd ölkədir və bu ölkə ilə uzun sərhəd xəttinə malikdir. Bu gün İsrailin təhlükəsizliyinə əsas təhdid mənbələrindən biri isə məhz İran dövlətidir. Bu səbəbdən Azərbaycanla yaxınlıq İsrailə lazımdır. İki ölkə münasibətlərində mediaya, ictimaiyyətə məlum olmayan müəyyən gizli istiqamətlərin olduğunu da düşünürəm. Məhz bu məsələlərin nəticəsidir ki, İsrail hər ölkəyə satmadığı müasir hərbi vasitələri Azərbaycana həvəslə satır. Məsələn, onlar bu cür texnoloji silahları Ukraynaya satmaqdan imtina ediblər. Bunun əsas səbəbi Ukraynanın bilavasitə Rusiya ilə müharibə vəziyyətində olmasıdır. İsrail Rusiya ilə münasibətlərinin pozulmasını istəmir".

**Ekspert vurğuladı ki, Azərbaycan öz hərbi qüdrətini artırmaq üçün İsraillə əməkdaşlığı davam etdirməlidir:** "Hərbi ekspert olmadığım üçün bu mövzuda geniş danışmağım doğru olmaz, ümumi şəkildə yalnız onu demək istəyirəm ki, Azərbaycan "İsgəndər" və digər potensial raket təhdidlərindən qorunmaq üçün raket hücumundan müdafiə çətirinə sahib olmalıdır. Hazırda dünyada raket hücumundan müdafiə sistemləri hazırlayan ən qabaqcıl dövlətlərdən biri də məhz İsraildir. Bu sahədə İsrail bizə kömək edə bilər. Doğrudur, ölkə iqtisadiyyatının durumunu və maliyyə çətinliyini nəzərə alsaq, Azərbaycanın bahalı silah sistemləri almaq gücündə olub-olmadığı bir az qaranlıq qalır".

**Ş.Cəfərli sonda onu da qeyd etdi ki, İsraillə əməkdaşlığın yaratdığı üstünlüklərdən biri də ABŞ başda olmaqla, dünyadakı güclü yəhudi lobbisi ilə yaxın əlaqə qurulmasıdır. Erməni lobbilərinin Azərbaycan əleyhinə təşəbbüslərini əngəlləmək üçün yəhudi təşkilatları ilə əlaqələr çox mühümdür.**

❑ Etibar SEYİDAĞA

# İqtidar deputatları niyə Rusiyanı yox, Qərbi vururlar?

## Bəxtiyar Sadıqov: "Rusiya ilə münasibətlərini düzgün qurmayan keçmiş SSRİ dövlətlərinin hansı acıları yaşadıqlarını gördük"

**Son vaxtlar iqtidaryönlü deputatların Qərbə hücumlarının artdığı müşahidə olunur. Maraqlıdır ki, Rusiya bu hücumlardan yenə də kənardadır, əksinə, bəzi hakimiyyət mənsubları tərəfindən ciddi şəkildə müdafiə olunur.**



Şimal qonşumuzun ölkəmiz əleyhinə fəaliyyət göstərdiyi, Ermənistana dəstəyini artırdığı dönəmlərdə belə iqtidar mənsubları onun əleyhinə danışmayıblar, ən yaxşı halda ehtiyatlı açıqlamalar veriblər. ABŞ və digər Avropa dövlətlərinə münasibətdə isə bunun şahidi olmuruq. Qərbə münasibətdə isə birmənalı şəkildə iqtidaryönlü deputatlar mənfi münasibət bildirir, ən sərt fikirləri belə səsləndirməkdən çəkinmirlər.

Torpaqlarımızı işğal edən Ermənistanın birbaşa havadarı olan Rusiyanın iqtidar deputatlarının tənqidinə tuş gəlməməsi necə izah oluna bilər?

**YAP-çı deputat, "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov Rusiyanın qonşu ölkə olduğunu qeyd etdi:** "Rusiya nəhəng bir dövlətdir. Eyni zamanda orada çoxsaylı azərbaycanlılar yaşayır. Rusiya ilə bizim strateji əməkdaşlığımız var. Bu elə bir gerçəklikdir ki, bunu unutmaq və danmaq olmaz. Rusiya ilə münasibətlərini düzgün qurmayan keçmiş SSRİ dövlətlərinin hansı acıları yaşadıqlarını gördük. Amma Azərbaycan-Rusiya münasibətləri yüksələn xətlə inkişaf edir. Ən azından Rusiya ölkəmizin siyasi cəhətdən fəaliyyətini qiymətləndirəndə qərəzə yol vermir, daha çox obyektiv olur, amma Qərb əksini edir. Son bir məsələyə diqqət edək: cənab prezident Avropa Parlamentinin nümayəndələri ilə görüşündə onların qəbul etdiyi qətnaməni bir-bir şərh etdi. Sənədin necə qərəzli olduğunu, informasiyaların doğru olmadığını bir-bir faktlarla sübut etdi. Biz nə iş görürüksə, Qərbin bizə münasibəti daim qeyri-obyektiv olur. Azərbaycanda "beşinci kolon"un üzvləri hansı informasiyanı verirsə, məlumat sərf edir deyə, yoxlamadan, onun əsasında həqiqətə uyğun gəlməyən rəylər söyləyirlər. Sanki əllərinə düşən bəhanəni boşa vermək istəmirlər. Bütün bunlar Azərbaycan vətəndaşlarını, millət vəkillərini qıcıqlandırır. Ölkəmiz bu qədər irəliyə gedir, demokratiyanın dərinləşdirilməsi, dünyaya inteqrasiya sahəsində, mətbuat və söz azadlığının qorunması istiqamətində inkişaf açıq şəkildə görünür, amma bir dəfə də olsun, bunu dilə gətirmirlər. Yalnız nöqsan axtarmağa çalışırlar. Daim deyirlər ki, Azərbaycanda siyasi dustaq var. Əgər bir insan nə zamansa hüquq müdafiəçisi, jurnalist olubsa, amma sonradan cinayət əməli törədirsə, niyə bu şəxsin peşəsinə görə onu dərhal siyasi məhbus hesab edirsiniz? Onun əməlini araşdırmaq lazımdır. Təəssüflər olsun ki, siyasi məhbus deyəndə onlar Şahbaz və Dilqəmi bir dəfə də dillərinə gətirmirlər. Ermənilərin onları dədə-babalarının qəbirlərini ziyarət etməyə gedəndə tutub, başlarına hansı müsibətləri açdığı, hansı şəraitdə saxlanıldıqları məlumdur. Obyektivsinizsə, bu siyasi məhbusların adlarını çəkəndə, niyə onları da çəkmirsiniz? Bizə münasibət necədirsə, hansı standartlardan yanaşırlarsa, biz də ona uyğun şəkildə adekvat reaksiya veririk. Rusiyanın bizdəki siyasi proseslərə münasibəti başqadır, gerçəkliyə daha çox yaxındır. Ölkəmizdə referendum keçirildi, Rusiyadan müşahidəçilər gəlib. Nə görsələr, onu da deyəcəklər. Amma Venesiya Komissiyası tələm-tələsik mənfi rəy verir. Bu nə tələskənlikdir?! Konstitusiyada hansı dəyişikliklər olacaqsa, onu xalq həll edir. Bu nə qabaqdan gəlmişlikdir? Biz daim qərəzli yanaşma, ikili standartlar, dəqiq məlumat olmadan ölkəmiz əleyhinə mənfi rəylərin verildiyini görürük. Bunları insan istər-istəməz qəbul edə bilmir. Bir vaxtlar demokratiya məkanı kimi baxdığımız Qərb, bu gün görürük ki, öz maraqlarını güdür, hələ də Azərbaycan kimi dövlətlərə ikili standartlardan yanaşır. Ona görə öz etirazımızı bildirib, reaksiyamızı veririk".

❑ Cavanşir ABBASLI

Yeni MÜSAVAT
N 212 (6533) 27 sentyabr 2016

**Sentyabrın 26-da keçirilən referendumun nəticələrinə görə Azərbaycan yeni siyasi-hüquqi konstitusiya dəyişikliklərinə "hə" dedi. Referendumun nəticələrinə görə, bundan sonra Milli Məclisinin eyni çağırışı bir il ərzində iki dəfə Nazirlər Kabinetinə etimadsızlıq göstərərsə, prezident ali qanunverici orqanı buraxa biləcək. Yaxud Konstitusiya Məhkəməsinin, Ali Məhkəmənin və Mərkəzi Bankın İdarə Heyətinin üzvlüyə namizədlərini iki dəfə təqdim edildikdən sonra, qanunla müəyyən edilmiş müddətdə təsdiqləmədikdə yenə parlamentin işinə yeni seçkilərə qədər son qoya bilər.**

# Prezident geniş islahatlar üçün mandat aldı: yeni siyasi-iqtisadi mərhələ başladı

## Obyektiv təhlilçilər belə hesab edir ki, əslində dövlət başçısı İlham Əliyevin hazırladığı konstitusiya dəyişiklikləri iqtidarda "siyasi devrimdir" və əsas etibarilə hakimiyyətin daxilində yenilənməyə hesablanıb; referendumdan sonra Azərbaycanda iki istiqamətdə ciddi islahatlar başlayacaq...

Konstitusiyaya edilən daha bir mühüm dəyişikliyə görə, prezidentliyə namizədlər üçün otuz beş yaş həddi də daxil olmaqla *(Azərbaycanda 10 ildən artıq daimi yaşamalı və sair tələblər də daxil)* konstitusiyadan çıxarılıb. Referendumun nəticələrinə görə, indən sonra prezident 5 il müddətinə deyil, 7 il müddətinə seçiləcək.

Referendumda Azərbaycanda vitse-prezidentlik institutunun yaradılması təklif edilirdi ki, bu da artıq qanunilişdirildi. Qeyd edək ki, bundan sonra idarəetmədə birinci vitse-prezident və vitse-prezidentlər postu yaradılacaq. Bu vəzifələrə təyinat hüququnu da referendumun nəticəsinə görə prezident həyata keçirəcək.

Referendumda qanunilişən daha bir mühüm dəyişiklik prezident vəzifədən getdikdə onun səlahiyyətlərinin icrası ilə bağlıdır. İndən sonra ölkə başçısının səlahiyyətlərinin birinci vitse-prezidentə, o olmadıqda vitse-prezidentə, daha sonra ardıcıllıqla baş nazirə, Milli Məclisin sədrinə keçəcək. İndiyədək ölkənin ikinci səlahiyyətli şəxsi baş nazir hesab olunurdu.

Qeyd edək ki, bu, 1995-ci il noyabrın 12-də qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasına edilən üçüncü dəyişiklikdir. Konstitusiyaya ilk dəyişiklik 24 avqust 2002-ci ildə, son dəyişikliklər isə 18 mart 2009-cu ildə həyata keçirilib. 2002-ci ildə konstitusiyanın 22 maddəsinə 31, sonuncu dəfə isə 29 maddəyə 41 əlavə və dəyişiklik edilib.

***

Ümumxalq səsverməsinə çıxarılan sadaladığımız dəyişikliklər ölkənin siyasi idarəetmə institutunda yeni bir mərhələ kimi qiymətləndirilir. Bəzi siyasi təhlilçilər və müxalifət Azərbaycan Konstitusiyasına edilən dəyişikliklərin iqtidarın "hökmranlığını uzatmağa" hesablandığını, hakimiyyət təmsilçiləri isə dövlətin "inkişafındakı yeniliklərin tələbi" kimi ortaya çıxdığını deyir.

Kimin hansı mövqedə haqlı olub-olmadığının indi bir o qədərdə əhəmiyyəti qalmayıb. Çünki sentyabrın 26-da açıqlanan rəsmi nəticələr onu deməyə əsas verir ki, Azərbaycan yeni hüquqi-siyasi mərhələyə qədəm qoyub. Aydındır ki, referendumdan sonra ölkədə hakimiyyət dəyişməyib, amma heç kimə sirr deyil ki, bu dəyişikliklər iqtidarın bütün alt və üst yapısında tezliklə özünü göstərəcək. Qərbdəki obyektiv təhlilçilər də belə hesab edir ki, əslində prezidentin hazırladığı bu layihə iqtidarda bir "siyasi devrimdir". Yuxarıda sadaladığımız dəyişikliklər əsas etibarilə hakimiyyətin daxilində bir yenilənməyə hüquqi hazırlıq deməkdir. Əslində 26 sentyabrda İlham Əliyev xüsusilə yeni iqtisadi şəraitin diktə etdiyi komandanı formalaşdırmaq, ciddi siyasi-iqtisadi islahatları həyata keçirmək üçün seçicidən yenidən mandat aldı.




Prezidentin hakimiyyətdə və ölkədə mövqelərinin möhkəm olduğu faktdır - bunu Qərb də, müxalifət də etiraf edir. Amma belə görünür ki, bu dəyişikliklər üçün həm də hüquqi bazaya da ehtiyac yaranmışdı. Diqqət etsək, görərik ki, səsverməyə çıxarılan 29 maddədə xalqın hansısa hüququnu məhdudlaşdıran maddə yoxdur. Barəsində çox danışılan mülkiyyət hüququ ilə bağlı dəyişiklik də böyük ölçüdə harınlamış varlıların zəbt etdiyi yararlı torpaqları əllərindən alınması üçündür. Əgər söhbət prezidentlik müddətinin uzadılmasına da yönələrsə, burada da xalqı narazı salacaq nəsə tapmaq mümkün deyil. Xoşu gəlməzsə, prezidentliyə namizədə səsə verməz: fərqi yoxdur, prezidentlik müddəti 5, ya 7 ildir...

***

Təhlillər onu deməyə əsas verir ki, referendumdan sonra Azərbaycanda iki istiqamətdə ciddi islahatlar başlayacaq. Vitse-prezident institutunun yaradılması hakim komandada ciddi kadr dəyişikliyinin anonsu idi. Artıq bu təsisatlar var və təyinatlar da referendumun nəticəsi Konstitusiya Məhkəməsində təsdiqləndikdən sonra gerçəkləşəcək. Nazirlər Kabinetində ciddi ixtisarlardan tutmuş, icra hakimiyyətlərinin ləğvinədək gözləntilər var. Etiraf etmək lazımdır ki, Azərbaycan çətin iqtisadi dönəmi xalqın etimadını itirmiş məmurlarla davam edə bilməz. Bunu dövlət başçısından daha yaxşı bilən də yoxdur. Son bir neçə ayda dövlət başçısı bunu açıq dilə də gətirib, məmurları sərt şəkildə tənqid də edib. Bu səbəbdən referendumdan sonra hakimiyyətdə "qan dəyişimi" mütləq olmalıdır. Ehtimal etmək olar ki, yeni dövrün əsas ağırlığı da vitse-prezidentlərin üzərinə qoyulacaq ki, bu postda kimlərin təyinat alacağı böyük maraqla izlənməkdədir.

**Bildirilir ki, 1-ci vitse-prezident əsas etibarilə iqtisadi komandanı kurasiya etməklə, islahatların həyata keçirilməsinə təhkim olacaq. Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov açıqlamasında yeni iqtisadi dövrə necə mühüm əhəmiyyət verildiyini bir daha qeyd edib. Ə.Həsənov deyib ki, Azərbaycan postneft dövrünə hazırlaşırdı, ancaq belə tez bir zamanda postneft dövrünün gələcəyini gözləmirdi:** "Buna müvafiq olaraq da prezident İlham Əliyev dərhal operativ, çevik islahatların keçirilməsi təşəbbüsünü irəli sürdü. Hazırda həmin islahatlar paketi qəbul olunub, islahat qatarı reysə buraxılıb. Bu iş üçün ölkənin bütün imkanları, həm inzibati, həm iqtisadi, həm də insan resursları səfərbər edilməkdədir. Ona görə də referendum təşəbbüsünün əsas səbəblərindən biri də Azərbaycanda postneft dövründə çevik iqtisadi islahatların keçirilməsi, effektli idarəçilik sisteminin yaradılması və mövcud bürokratik idarəçilikdəki bəzi mexanizmlərin aradan qaldırılmasıdır".

Vitse-prezidentlərdən birinin də siyasi islahatların kurasiyasına cavabdeh olacağı gözlənilir. Bu da daha geniş bir sahədə - xüsusilə iqtisadi islahatların əngəllənməsinə şərait yaradan qanunların, nazirliklərin qanunsuz müdaxilələrinin, məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsini əhatə edir.

Əvvəlki yazılarımızda da qeyd etmişdik ki, Azərbaycan hakimiyyəti ölkəmizin daxil olduğu regiondakı gərgin siyasi vəziyyətin tezliklə aradan qalxmayacağını, Qərbin "daxili məsələlərə" müdaxilə imkanlarının artacağını yaxşı bilir. Bu səbəbdən də referendumdan sonra Qərblə münasibətlərdə artıq nəzərə çarpan "yumşaq siyasət"in davam etdiriləcəyi gözlənilir. Ölkə daxilindən də siyasi münasibətlərə yeni yön veriləcəyi deyilir....

Beləliklə, 26 sentyabrdan sonra ölkə ciddi bir siyasi mərhələyə qədəm qoydu. Qarşıda görüləcək işlər çoxdur və bunun Azərbaycan üçün xeyirli olması üçün hamı çalışmalıdır...

❑ **Analitik şöbə**

# İqtidar və müxalifətin vədləri: hansı daha realdır?

**Azərbaycan hakimiyyəti və müxalifəti zaman-zaman gələcək barədə vədlər verirlər. İndiki situasiyada iqtidar ölkənin gələcəyi barədə daha nikbin danışır, cərəyan edən iqtisadi böhranı aradan qaldıracağını deyir və bunun üçün tezliklə siyasi və iqtisadi sahədə ciddi islahatlar aparacağının anonsunu verməkdədir. Hökumətin ən çox diqqətçəkən vədi Dağlıq Qarabağ probleminin tezliklə həll olunacağı ilə bağlıdır.**

Müxalifət də özünəməxsus vədlər verir. Tezliklə hakimiyyətə gələcəyini, ölkəni demokratikləşdirəcəyini deyir.

Hər iki düşərgənin özünəməxsus inandırıcı vədləri var. Heç şübhəsiz ki, siyasi düşərgələrin belə vədlər vermələri onların əsas işlərindən biridir. Çünki insanlarda inam yaratmadan uğur qazanmaq çətindir.

Maraqlıdır, mövcud şəraitdə hansı düşərgənin vədlərinin həyata keçəcəyi daha real görünür?

**"Turan" informasiya agentliyinin rəhbəri Mehman Əliyev hesab edir ki, iqtidar və müxalifət düşərgəsi verdiyi vədləri həyata keçirməyə eyni dərəcədə yaxındırlar:** "Hakimiyyət islahatlara, dəyişikliklərə getməyə məcburdur. Müxalifət də bu dəyişikliklərin həyata keçməsi üçün hakimiyyətə müəyyən təsirlər göstərir. Ümumiyyətlə, bu dəyişikliklər müxalifətin fəaliyyətinə daha geniş imkanlar açacaq. Proseslər gələcəkdə böyük dəyişikliklər olacağına doğru gedir. Açığı, vədləri həyata keçirməkdə iqtidar bir addım öndə görünür. Çünki böhrandan çıxış yolu üçün ilk addımları hakimiyyət atmalıdır və onu yavaş-yavaş edir".



**Mehman Əliyev:**
"İqtidar bir addım öndə görünür"



**Natiq Miri:**
"Hakimiyyətə gəlmək üçün insanları aldatmaq lazımdır"

**Politoloq Natiq Miri bildirdi ki, vəd vermək hər bir siyasi qurumun, siyasətçinin boynunun yüküdür:** "YAP 23 ildir ki, hakimiyyətdədir və demək olar öz potensialını tamamən xərcləyib. Bu müddət ərzində ciddi nailiyyətlərə güc mərkəzi kimi nail olmayıbsa, bundan sonra da bu real görünmür. Vədlər olmasa, müxalifətin hakimiyyətə gəlməsi, iqtidarın da hakimiyyətdə qalması mümkün olmaz. Hakimiyyətə gəlmək üçün insanları aldatmaq lazımdır. Siyasətçilərin böyük əksəriyyəti dünya çapında bu cür yalanlarla məşğuldur. Hakimiyyətin hazırkı vədləri o qədər inandırıcı görünmür. Müxalifətə gəlincə isə orada yeni gənc qüvvələr, yeni nəfəslər, yeni ideoloji baxışlar və mübarizə metodlarını tətbiq edən qüvvələr var. Nəzərə almaq lazımdır ki, hər bir xalqda müxalifət öz potensialını reallaşdırmamış siyasi güc mərkəzləridir. 1992-93-cü illərdə hakimiyyətdə olmuş AXCP və digər siyasi qüvvələr öz potensiallarını reallaşdırmayan güc mərkəzləridir. Bu baxımdan, hesab edirəm ki, onların vədləri daha keçərlidir. Amma bunları demək asandır. Həmin siyasi qüvvələrin öncəliklə hakimiyyətə gəlmələri və davranışları, iş metodları böyük rol oynayacaq. Çünki ən gözəl proqramlar belə subyektiv amildən çox asılıdır. Bu gün hakim partiya funksionerləri və xarici güclər tərəfindən ortaya atılmış çox gözəl proqramlar var. Amma bunu yerinə yetirən insan faktoru varmı? Bu sualın cavabı Azərbaycan cəmiyyətinin mövcud durumudur. İnsan faktoru çox önəmlidir. Bu baxımdan, hesab edirəm ki, bundan sonra müxalifətin potensialından danışmaq daha çox lazım olacaq".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 212 (6533) 27 sentyabr 2016

# Əli İnsanov hakimiyyətlə anlaşıbmı...

## Sabiq nazirin susqunluğu mülahizələrə yol açıb; **politoloq:** "Düzgün hərəkət etdi"

**Həbsdə olan sabiq səhiyyə naziri, bir müddət öncə barəsində yeni cinayət işi başlanan Əli İnsanovun referendum öncəsi susqunluğu, xüsusilə ölkə müxalifətinin referendum əleyhinə keçirdiyi mitinqlərə dəstək verməməsi müzakirələrə yol açıb. Məsələ ətrafında müxtəlif iddialar səslənir.**



İttihamlardan biri odur ki, sabiq nazir gizli şəkildə hakimiyyətlə anlaşıb, yeni susqun mövqe sərgiləməklə, 11 illik cəza müddəti başa çatan kimi azadlığa çıxmaq istəyir. Bu fikirlərdə müəyyən qədər həqiqət çalarları var. Çünki azadlığa çıxmasına 53 gün qalanda barəsində 3 yeni cinayət maddəsi açılan sabiq naziri əlavə 10 ildən çox həbs cəzası gözləyir. 70 yaşlı bir şəxs üçün növbəti dəfə uzunmüddətli həbsi gözə almaq o qədər də asan məsələ deyil.

Daha bir iddia isə İnsanovun müxalifətdə perspektiv görmədiyinə görə susmasıdır. O, boşuna qəzəbə tuş gəlmək istəmir.

Xatırladaq ki, bundan öncə İnsanov dəfələrlə ölkə müxalifətinə ciddi dəstək verib. Hətta 2013-cü ilin prezident seçkilərində bütün tərəfdarlarını Milli Şuranın vahid namizədi Cəmil Həsənliyə səsverməyə çağırmış və onun bu müraciəti geniş əks-səda doğurmuşdu.

**Politoloq Qabil Hüseynli** bildirdi ki, sabiq nazir indiyə qədər müxalifətə verdiyi dəstəyə görə özünə ciddi problemlər yaradıb: "Həbsxanadan nəyəsə etiraz etməklə baş vermiş proseslərin qarşısını almaq mümkün deyil. Üstəlik də, indiyə qədər verdiyi dəstəyə görə özü üçün yaratdığı problemlər hər kəsə məlumdur. Bu problemləri indi aradan qaldırmağın vaxtıdır. Bəli, mitinqlərə münasibət bildirmədi, zənnimcə, düzgün hərəkət etdi. Referenduma da münasibət bildirmədi, yenə də düzgün hərəkət etdi. Yəni siyasətçidir, Heydər Əliyev məktəbinin yetirməsidir. Bu məktəbdə siyasətin ən azından bir çox sirlərinə yiyələnib. O, siyasətçi kimi hərəkət etməlidir. Əgər həbsxana həyatını yaşamaq istəyirsə, oranın qayda-qanunları ilə yaşamalıdır. Bir sözlə, hakimiyyətlə həbsxanada konfliktə getməyin mənası yoxdur. Hesab edirəm ki, bu, həm də İnsanova rəğbət bəsləyən insanların üreyincədir".

**Ekspert hesab edir ki, İnsanovun susqunluğunun sonda xeyri olacaq:** "Buna ümidim var ki, müsbət tərəfləri olacaq. Əli İnsanov həqiqətən yaşlı və xəstə bir adamdır. O, bundan sonra həbsxanadan çıxsa - ümidvaram ki çıxacaq-hakimiyyətə heç bir ziyanı dəyməz. Çünki hakimiyyət kifayət qədər güclüdür, ideal dayaqları var, ölkə uğurla idarə olunur, xalq arasında prezident İlham Əliyevin reytinqi yüksəkdir".

**Q.Hüseynli müxalifətin zəif olmasının İnsanovun susqunluğuna səbəb olması qənaətində deyil:** "Müxalifətin zəif və ya güclü olmasının ona heç bir dəxli yoxdur. Əli İnsanov artıq siyasətçi kimi hərəkət etməyə başlayıb. Eyni zamanda öz mövcud statusunu başa düşür və buna uyğun da hərəkət edir".

Qeyd edək ki, sabiq səhiyyə naziri Əli İnsanov 2005-ci ilin oktyabr ayında həbs olunub. O, dövlət vəsaitlərinin mənimsənilməsində və dövlət aktivlərinin qanunsuz özəlləşdirilməsinin təşkilində ittiham olunub. 2007-ci ilin aprel ayında əmlakı müsadirə olunmaqla, 11 il müddətinə azadlıqdan məhrum olunub.

❑ **Cavanşir ABBASLI**

# Milli Şura mitinq anonsu verdi

## **Elman Fəttah:** "Kütləvi aksiyalar Müsavatın da müzakirə etdiyi məsələdir"

**Referendum bitdi. Bundan sonra ölkə müxalifətinin mitinqlərə yenidən start verib-verməyəcəyi müzakirə olunan məsələlərdəndir. Hələlik görünən budur ki, referendumdan öncə demokratik düşərgə 11-13 və 18 sentyabr tarixlərində keçirdiyi etiraz aksiyaları ilə işini bitmiş hesab edib.**

Amma bu aksiyalarda müxalifətin məqsədinə çatdığını söyləmək mümkün deyil. Belə ki, 3 mitinqdə ən yaxşı halda siyasi düşərgə meydana 10 minə yaxın etirazçı çıxara bildi. Bu isə qənaətbəxş sayıla bilməz. Xüsusilə Milli Şura və Müsavat arasında mitinqlərdən sonra başlayan narazılığın aksiyaların üzərinə kölgə saldığı və referendum öncəsi azacıq da olsa, vətəndaşlar arasında artan fəallığa ciddi zərbə vurduğu heç kəsə sirr deyil. Milli Şuranın 11 sentyabr mitinqində AXCP sədri Əli Kərimli Müsavatın 18 sentyabrda aksiya təyin etdiyini bilə-bilə bir gün öncəyə mitinq təyin etdi, əvəzində ilk aksiyadan dəfələrlə az sayda etirazçı meydana çıxdı. Müsavatın 18 sentyabr mitinqində isə başqan Arif Hacılı Milli Şuranın əvvəlcədən təyin etdiyi 24 sentyabr mitinqinə dəstək verəcəklərini söylədi, ardınca Milli Şura həmin aksiyanı keçirməkdən imtina etdi. Bütün bunlar ana müxalifət partiyalarının imicinə bir daha sarsıdıcı zərbə oldu.

**Bütün bunlara baxmayaraq, Milli Şura yenidən aksiyalar keçirmək niyyətindədir. Quruma daxil olan partiyalardan AXCP sədri Əli Kərimli bununla bağlı öz facebook səhifəsində status paylaşıb:** "Dostlar, mitinqlərə hazırlığımız davam edir. Hazırda Azərbaycan hökumətinin insan haqlarına hörmətlə bağlı qarşılarında öhdəlik götürdüyü beynəlxalq təşkilatlarla ciddi işləyirik ki, hakimiyyətin öz dinc əhalisinə zor tətbiq etməsinə etirazların bildirsinlər, sərbəst toplaşmaq azadlığına təminat verilməsi və mitinq məhbuslarının dərhal azad olunması üçün danışıqlar aparsınlar. İlkin nəticələr də var..."

**Müsavat Partiyasının isə referendumdan sonra mitinqlər mövzusunda hansı addımları atacağı bəlli deyil. Başqan müavini Elman Fəttah "Yeni Müsavat"a açıqlamasında bunları dedi:** "Sentyabrın 27-də Müsavat Partiyası referendum haqda ilkin rəyini yayacaq. Ayın 28-i isə Milli Strateji Düşüncə Mərkəzi ilə birgə, referendumla bağlı dəyirmi masa keçirəcək. Kütləvi aksiyalar Müsavatın müzakirə etdiyi məsələdir. Qərar olduğunda ictimaiyyətə açıqlama veriləcək".

❑ **Cavanşir ABBASLI**

# Həmkarından Fazil Mustafaya sərt cavab - Səfəvilərlə bağlı qalmaqal böyüdü

## **Fəzail Ağamalı:** "Tarix sizlik deyil; tarix sizi 40 arşın quyunun dibinə salar, ordan çıxa bilməzsiniz"

**BQP sədri, deputat Fazil Mustafanın Səfəvilər dövrü ilə bağlı tənqidi fikirləri kəskin etirazlara səbəb olub. Bir qrup tarixçi alimdən də sərt təpkilər alan deputat hətta həmkarı Fəzail Ağamalının da qınaqlarına tuş gəlib.**



Fəzail Ağamalı



Fazil Mustafa

F.Mustafanın dediklərinə reaksiyası zamanı F.Ağamalı deputat həmkarını tənqid edərək bu mövzu ilə bağlı danışarkən diqqətli olmağı tövsiyə edib, "bilmədiyin şeylərdən danışma" deyib. F.Mustafa isə bundan sonra özünün facebook səhifəsində həmkarının iradlarını cavablandırıb. O, F.Ağamalının mövzu barədə "emosional münasibət" bildirdiyini vurğulayıb: "...Açığı, günlərdir antiazərbaycançı qüvvələrlə və "Şah babam" deyib bağıran cahil milliyyətçilərlə savaşda öz mövqeyimizin haqlılığını qətiyyətlə ortaya qoyduğumuz bir məqamda Fəzail müəllimin bu qədər ultimativ formada məsələyə müdaxilə etməsi mənim üçün bir qədər təəccüblü oldu. Çünki Fəzail müəllim çox gözəl bilir ki, öz inandığım və millətim üçün faydalı olan həqiqətlərin söylənməsi mənim üçün elə bir prioritetdir ki, qarşıma çıxan istənilən qüvvə ilə istənilən elmi diskussiyanı aparmağa hazıram və bunu da edirəm. Nəinki bundan sonra bir dəfə, hətta daha böyük qətiyyətlə bu mövzuda həqiqətləri cəmiyyətə çatdırmağa davam edəcəyəm və buyurub Fəzail müəllim də başqa opponentlər kimi öz yazıları və kitabları ilə bizim mövqeyə qarşı fikirlərini ortaya qoyar... İxtisasca hüquqşünas olsam da, fəlsəfə üzrə fəlsəfə doktoruyam və Xürrəmilik, Səfəviliyin ideoloji görüşləri mənim bilavasitə tədqiqat sahəmdir".

**F.Mustafa ardınca həmkarını onun yerini "zəbt etməkdə" qınayıb:** "Maraqlıdır ki, mənə hüquqçu kimi tarixlə məşğul olmamağı tövsiyə edən Fəzail müəllim, özü illərdir Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvüdür, orada bir tarixçi kimi məhz mənim hüquqçu kimi fəaliyyət göstərməli olduğum yeri tutub. Bu məntiqlə gərək Fəzail müəllim tarixçi olduğuna görə həmin komitənin üzvlüyündən dərhal istefa verməli və məni həmin komitəyə dəvət etməlidir...

Ən sonda isə hörmətli Fəzail müəllimə heç gözləmədiyim bir müqayisəyə görə qısa bir iradımı da bildirmək istərdim. Mənim hörmətli həmkarım və tanınmış tarixçi alim Yaqub Mahmudova insan kimi böyük hörmətim var və tariximiz barədə xeyli faydalı işlər gördüyünə inanıram. Ancaq hörmətli Yaqub müəllimin hörmətli Fəzail Ağamalı üçün tarix sahəsində bir avtoritet olması o demək deyil ki, hamı bunu qəbul edib, əlini-qolunu yanına sallayıb yerində oturmalıdır. Mənim üçün bu sahədə başqa avtoritetlər var və onların içində Mommzen, Toynbii, Carr, Zəki Vəlidi, Faruq Sümer və bu kimi onlarla tarix dühası var".

**Deputat Fəzail Ağamalı isə "Yeni Müsavat"a açıqlamasında həmkarının dediklərinə belə reaksiya verdi:** "Mən Fazil bəyə sizin qəzetiniz vasitəsilə lakonik şəkildə cavab vermişdim ki, tarix ciddi elmdir, bu elmlə zarafat etmək olmaz. Hər bir dövrdə tarixin özünə çox təəssüf ki, ədalətsiz hücumlar olub və imkan verilməyib ki, tarix olduğu kimi yazılsın və millətə təqdim olunsun. Söhbət Azərbaycandan gedir. Təbii ki, Fazil bəyin yüksək intellekti, savadı var, dünyagörüşü genişdir, maraqlı fəlsəfi yanaşmaları var. Ancaq tarix onluq deyil. Ona bu baxımdan dedim ki, siz tarixin fəlsəfəsini işləyə bilərsiniz, ancaq tarix sizlik deyil, tarix sizi 40 arşın quyunun dibinə salar, ordan çıxa bilməzsiniz. Tarix çox ciddi elmdir, baxmayaraq ki, o, buna elm kimi yanaşmır, elə ən böyük səhvi də ondadır. Digər tərəfdən, bu gün məhz tarix elminə yeni nəslin gəlməməsi ucbatından bir boşluq var və boşluqdan Fazil bəy kimi adamlar istifadə edir".

**F.Ağamalı dedi ki, ehtiyac duysa, həmkarına daha geniş cavab verəcək:** "Ancaq "Fəzail Ağamalı əgər tarixçidirsə, niyə Hüquq siyasəti komitəsində uzun illərdən bəri fəaliyyət göstərir və mən onun hüquqlarını mənimsəmişəm" iddiası çox qəribə və gülməli vəziyyət yaradır. Fazil Mustafa, əvvələ, komitənin adını düzgün deməlidir. Komitənin adı Dövlət quruculuğu və hüquq siyasətidir. Bir siyasətçi kimi mənim dövlət quruculuğu prosesində, hər halda, təcrübəmlə, biliyimlə töhfə vermək, fəaliyyət göstərmək imkanlarım var, Fazil Mustafanın buna qətiyyən şübhəsi olmasın. Özü də bunu o bilməmiş deyil. Belə bir cavablarla polemikaya girməyə, məncə, heç bir ehtiyac yoxdur".

**F.Ağamalı həmkarının diqqətinə çatdırdı ki, mətbuata açıqlamasında, sadəcə olaraq, faktları ortaya qoyub:** "Buyur, o faktlar əsasında sübut elə! Yoxsa "Fəzail Ağamalı emosiya ilə danışıb, Hüquq siyasəti komitəsində nə gəzir" kimi yanaşmaları doğru deyil. Mən bir daha təkrar edirəm, hər elm sahibi təhsil aldığı sahə üzrə məşğul olsa, o, daha əhəmiyyətli olar və ciddi töhfələr verə bilər. Fazil Mustafa hüquqçu qurtarıb, lakin onun maraqlı fəlsəfi araşdırmaları var. Buyursun, fəlsəfi araşdırmalarına doğru getsin. Bu, həm hüquqşünas kimi çıxış edir, həm fəlsəfə ilə məşğul olur, həm tarixçi kimi. Nədir bu, ensiklopedik şəxsiyyətdirmi? Mən düşünmürəm ki, belədir. Parlamentin daxili nizamnaməsi Fazil Mustafaya Hüquq siyasəti və dövlət quruculuğu komitəsinə üzv olmaq imkanı verir, buyurub gəlsin, komitəyə üzv olsun".

**Məsələ ilə bağlı deputat Fazil Mustafanın da fikirlərini dərc etməyə hazırıq.**

❑ **Cavid TURAN**

# Samir Şərifov pensiya və maaşların artırılacağını vəd etdi

## "Biz çalışmalıyıq ki, xərclərimizlə gəlirlərimiz ayaqlaşsın"



**"Biz çalışmalıyıq ki, xərclərimizlə gəlirlərimiz ayaqlaşsın. Bunun əksi baş verərsə, biz risklərlə üz-üzə qalarıq. Gələn il xərclər siyasətimiz daha sərt olacaq". APA xəbər verir ki, bunu maliyyə naziri Samir Şərifov deyib.**

Nazir həmçinin 2017-ci il dövlət büdcəsinin əsas prioritetlərini də açıqlayıb: "Şübhəsiz ki, büdcə layihəsi hazırlanarkən dünya iqtisadiyyatında baş verənlər nəzərə alınıb. Azərbaycan qlobal iqtisadiyyatın tərkib hissəsidir və baş verənlər bizə də təsirsiz ötüşmür. Qlobal iqtisadiyyatda qeyri-müəyyənliklər davam edir. Bunu nəzərə alaraq biz xarici şokların ölkə iqtisadiyyatına təsirini azaltmalıyıq və bu istiqamətdə bir sıra addımlar atılıb. Bilirsiniz ki, cari ildə dövlət sektorunda çalışanların əməkhaqları artırılıb. Gələn ildə də bu addımların davamlı olması üçün biz büdcədə maliyyə təminatı yaratmalıyıq. Digər tərəfdən, cari ildə sosial müavinətlərin, pensiyaların, təqaüdlərin və digər sosial ödənişlərin artımı baş verib. Bu cür artımların gələn ildə də baş verməsi üçün maliyyə təminatı nəzərdə tutulub. Digər tərəfdən, unutmamalıyıq ki, bizim gəlirlərimiz əhəmiyyətli dərəcədə azalıb. Biz çalışmalıyıq ki, xərclərimizlə gəlirlərimiz ayaqlaşsın. Bunun əksi baş verərsə, biz risklərlə üz-üzə qalarıq. Gələn il xərclər siyasətimiz daha sərt olacaq. Bu, o deməkdir ki, daha səmərəli xərclərə üstünlük veriləcək".

"2017-ci ildə Dövlət Neft Fondundan (ARDNF) dövlət büdcəsinə transfertin həcmi azalmaqda davam edəcək. 2017-ci ildə 1,5 mlrd. manat azalmadan söhbət gedir" - deyə, nazir qeyd edib.

Qeyd edək ki, 2016-cı ilin dəqiqləşdirilmiş dövlət büdcəsində Dövlət Neft Fondundan dövlət büdcəsinə transfert 7 mlrd. 615mln. manat təşkil edib.

Nazirin sözlərinə görə, 2017-ci ilin dövlət büdcəsi layihəsində neftin qiyməti 1 barelə görə 40 dollar səviyyəsində götürülüb.

**Bankların durumundan danışan nazir bildirib ki, Azərbaycan Beynəlxalq Bankının sağlamlaşdırılması prosesi gedir:** "Lakin proses olduqca mürəkkəbdir. Sağlamlaşdırma prosedunu dünya praktikasında qəbul olunmuş prosesdir. Bilirsiniz ki, Beynəlxalq Bankın toksik aktivləri "Aqrarkredit" qeyri-bank kredit təşkilatına ötürülür, bunun müqabilində "Aqrarkredit" banka ödəniş edir. Əfsuslar olsun ki, bankın sabiq rəhbərliyinin yarıtmaz fəaliyyəti nəticəsində bank böyük həcmlərdə xaricdən borclanıb. Bir tərəfdən bankın xarici valyutada öhdəlikləri, digər tərəfdən isə "Aqrarkredit" aktivləri manatla alır. İstər-istəməz natarazlıq yaranır. Bu həcmdə manat kütləsinin bazara çıxması arzuolunmazdır, çünki manatın məzənnəsinə mənfi təsir edə bilər. Buna görə, bu proses makroiqtisadi vəziyyətlə uzlaşdırılır. Dövlət bankın sağlamlaşdırılmasını öz üzərinə götürüb və əsas məsələlərdən biri də əmanətçilərin maraqlarıdır. Söhbət ən iri bankdan gedir və onun problemlə üzləşməsi əmanətçilərə zərbə olar. Bundan başqa, adıçəkilən bankın problemlə üzləşməsi Azərbaycanın xarici nüfuzuna da xələl gətirə bilər. Sağlamlaşdırma prosesində dəyişmiş makroiqtisadi şərait nəzərə alınmalıdır. Mərkəzi Bank hazırda məqsədyönlü monetar siyasət yürüdür. Biz də Mərkəzi Banka zəruri dəstək veririk. Ona görə, böyük həcmdə manat kütləsinin bazara çıxması yolverilməzdir. Sağlamlaşdırma prosesinin əsas məqsədlərindən biri də odur ki, biz bu bankı bir qədər kiçiltməliyik. Xarici öhdəliklər qaytarıldıqdan sonra bankın həm aktivləri, həm də passivləri ciddi şəkildə azalacaq".

S.Şərifov əlavə edib ki, yekun nəticədə bank sağlamlaşdırıldıqdan sonra özəlləşdirilməyə hazır olacaq. Bununla yanaşı, nazir bildirib ki, bankın sağlamlaşdırılması "uzunmüddətli prosesdir və hətta gələn il də başa çatmayacaq".

**O deyib ki, hökumət bank sektorunda baş vermiş problemlərlə əlaqədar bir sıra tədbirlər görüb və görməkdədir. O ki qaldı xarici valyutada kreditləri olan şəxslərə dəstəyə, bu, borcalan və borcverən arasında olan münasibətlərə bağlıdır:** "Biz hər iki tərəf üçün, həm əmanətçi və kredit borcu olanlar üçün narahatıq, lakin biz bunlardan birinə yardım etdik, digər tərəfə yardım etmək dövlətə çətin olacaq. "Dövlət öhdəliyi öz üzərinə götürür" demək asandır. Lakin bunun üçün maliyyə imkanları olmalıdır. Biz anlamalıyıq ki, krediti borcu olan məhdud sayda insanların öhdəliyini bütün cəmiyyətin, yəni vergi ödəyicilərinin üzərinə qoyuruq".

# Elman Rüstəmovdan devalvasiya açıqlaması

## "Bu gün başlıca məsələ məzənnə yox, məzənnə-inflyasiya cütlüyüdür"

**"Həm qlobal, həm də daxili amillər manatın məzənnəsinə təsir edir". APA xəbər verir ki, bunu Mərkəzi Bankın sədri Elman Rüstəmov bildirib.**

Onun sözlərinə görə, cari ilin 9 ayı ərzində manatın məzənnəsi ilin əvvəli ilə müqayisədə 5% korreksiyaya uğrayıb: "Məzənnə ilə bağlı hər hansı proqnoz vermək çətindir. Manatın məzənnəsi faktiki olaraq idarə olunan üzən məzənnə rejimi əsasında formalaşıb. Bir sıra amillər onun formalaşmasına təsir edir. Xüsusilə neftin qiyməti, tədiyyə balansının vəziyyəti və s. amilləri qeyd etmək istərdim. Müəyyən dövr ərzində manatın məzənnəsinə təzyiq güclənmişdi. Lakin biz Maliyyə Sabitliyi Şurası çərçivəsində manatın dayanıqlığını təmin etmək üçün zəruri addım atmış dıq".

"Bu gün başlıca məsələ məzənnə yox, məzənnə-inflyasiya cütlüyüdür" - deyə, Elman Rüstəmov bildirib. Onun sözlərinə görə, "Dünyada da biz görürük ki, 30%-lik avro-dollar rallisi getdi sonradan geri qayıdır qiymətlər sabit qalırsa, heç kim həyəcan təbili çalmır. Bizim başlıca məqsədimiz ikirəqəmli inflyasiyanı aşağı səviyyəyə, həm əhali üçün, həm biznes, həm də dövlət üçün inflyasiyanı məqbul səviyyəyə salmaqdır. Bütün mərkəzi bankların qayğısı birrəqəmli aşağı inflyasiyaya nail olmaqdır. Yuxarı inflyasiya və devalvasiya iqtisadiyyat, iqtisadiyyatın bütün subyektləri üçün zərərlidir".



**Ölkədə inflyasiyanın 11% səviyyəsində olduğunu deyən E.Rüstəmov bildirib ki, hazırda inflyasiya ilə bağlı proqnoz vermək çox çətindir:** "Biz 9 ayın nəticələrini gözləyirik. İnflyasiya proqnozu kurs-məzənnə dayanıqlığından asılı olacaq. Bu isə bütövlükdə makroiqtisadiyyatın bütün istiqamətlərinin müvəffəqiyyətindən asılıdır. Amma biz nikbinik. Situasiyanın gərginliyinə baxmayaraq gördüyünüz kimi situasiyanı idarə edirik. Bazarda müəyyən gərginlik var idi. Valyuta qıtlığı və digər gərginlikləri biz aradan götürdük. Bununla əlaqədar proseslərə öz siyasətimizlə valyuta qıtlığını aradan götürmüşük. Amma qarşımızda daha fundamental sabitliyə nail olmaq məqsədi var".

**Elman Rüstəmov həmçininn bankların durumundan da danışıb. O deyib ki,"Bank Standart" QSC-nin sağlamlaşdırılmasına başlanılıb və bütövlükdə digər bir dövlət bankı vasitəsilə Mərkəzi Bank əhəmiyyətli likvidlik verib:** "Təbii ki, əgər bu prosesə başlanılıbsa, bu o deməkdir ki, həmin proseslər gedir. Dövlət tərəfindən müəyyən addımlar atılıb. Bankda kəskin vəziyyət aradan qaldırılıb. Amma bütövlükdə Maliyyə Nazirliyi, Mərkəzi Bank, Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən bankın sağlamlaşdırılması planı axtarılır. Bütövlükdə indi bankın vəziyyətinin tam strateji sabitləşdirilməsinin planı üzərində işlənilir".

# İki gedişlik oyun və Avropadan gələn qınaq



Xalid KAZIMLI

**Sentyabrın 26-da keçirilən ümumxalq səsverməsində passiv iştirakına görə xalqa yönəlik qınaqlar bugünlərdə pik həddinə çatıb - daxildən də döşəyirlər, xaricdən də.**

Bu faktdır: gerçəkdən də həm xalq kütləri, həm də onun siyasi aktiv hissəsi referenduma çıxarılan konstitusiya dəyişikliklərinə münasibətdə aktivlik göstərmədi.

Düzdür, müxalifət partiyalarının üç mitinqini fəallıq adına nəzərə almaq olar, amma həmin aksiyaların kütləvi və davamlı olmaması da göz önündə idi.

İncələsək, bu passivliyin dərin sosial-siyasi, eləcə də psixoloji səbəbləri var.

Ancaq ən ümdə səbəb odur ki, illərlə xalqa və müxalifətə qarşı aparılmış basqılar öz nəticəsini verib, azadlıqların məhdudlaşdırılması, fəallığın cəzalandırılması öz mənfi rolunu oynayıb.

Artıq hamı bilir ki, siyasətlə məşğul olmaq təhlükəli işdir. Buna görə adamın özünü və yaxınlarını işdən çıxara, özünü və qohum-əqrəbasını həbs edə, müxtəlif təzyiqlərə məruz qoya bilərlər.

"Göz gördüyündən qorxar", - deyiblər. Bu ölkədə hamının gözü nələrsə görüb. Ölkə gözüqıpıq adamlarla doludur.

İctimai-siyasi passivliyin daha bir səbəbi də mübarizənin effektivliyinə inamsızlıqdır. Xalq görür ki, hər şey həmişə şahmat oyununda olduğu kimi baş verir: "ağlar" başlayır və iki gedişə "qaraları" mat edirlər (mat qoyurlar).

Özü də bu iki gediş elə gedişlərdir ki, "qaralar"ın qurtuluş variantı yoxdur, A variantında da mat olurlar, B variantında da.

Son 23 ildə xalq bu cür variantsız prosesləri, seçkiləri çox görüb. Ona görə də əbəs yerə növbəti dəfə fəallıq göstərib özünü bəlaya salmaq, gücü çatmayan qayadan yapışıb gücənmək istəmir.

Bu duruma görə kimləri qınamaq olar? Xalqın müqavimət gücünü amansızcasına qıran iqtidarı? Olar. Xalqın gücünü toparlaya bilməyən müxalifəti? Olar. Öz gələcəyinə şüurlu şəkildə yanaşa bilməyən, xırda, məişət qayğılarından başqa bir şey düşünməyən xalqı? Olar.

Əslində bu durum üçün məsuliyyət hər kəsin üzərindədir. Ancaq son vaxtlar qınaq obyekti axtararkən bir çoxları xalqa yüklənir.

Xalq kimdir ki? Sən, mən, biz, siz, onlar. Əgər onlar, siz, biz, sən və mən siyasi baxımdan passiviksə, avtomatik olaraq xalq da passiv olacaq. Çünki nə müxalifət, nə də xalq ayrıca götürülmüş, administrativ iyerarxiyaya malik olan nizami birləşmə, vahid orqanizm deyil.

Xüsusilə də vaxtilə müxalifət fəalı olmuş, hazırda xarici ölkələrdə yaşayan şəxslər bu mövzuda sərt açıqlamalar verir, öz düşüncələrini sosial şəbəkədə yayır, hamını susqunluqda, passivlikdə qınayırlar.

Bu məsələyə dair əvvəllər də yazmışıq, görünür, təkrar yazmaq lazımdır.

Bir var, bu sözü ölkədə yaşayan, məruz qala biləcəyi təqib-təzyiqin nədən ibarət olacağını yaxşı bilən və gözə alan adam desin, bir də var, 4-5 min kilometr uzaqda, azad bir ölkədə yaşayan, ölkədə baş verənlərdən internet resursları vasitəsilə xəbər tutan adam yazsın.

Fərqli durumlardır. Uzaqda olduğu halda xalqı fəallığa, sərt etiraza səsləyən, özünü hər kəsi qınamağa haqlı sayan insanların çağırışları səmimi görünmür və tez-tez belə bir ifadə ilə qarşılanır: "Özləri oturub azad Avropada, camaatı üsyana çağırırlar"; "Dəyişiklik istəyən oğlan gələr oturar burda, mübarizəsini aparar"; "İqtidarla döyüşmək belə asan idisə, özləri niyə qaçıb gediblər" və s. və i.a.

Bu ritorika ilə çıxış edənlər haqlı görünür. Doğrudan da azad ölkələrdə asudə yaşadığın halda onsuz da basqı altında olan adamları qınamaq onlara psixoloji təzyiq göstərməkdir.

Nə yazıq ki, bir çox mühacirlər illərdir bu xasiyyətlərini tərgidə bilmirlər. Düzdür, onlar bunu pis məqsədlə etmirlər, ölkənin gələcəyini, xalqın istiqbalını düşünüb edirlər, ancaq məsləhət, tövsiyə verərkən, çağırışlar edərkən, sərt tona üstünlük verməsələr, bir az həlim olsalar, sözləri daha effektiv olar.

Hazırkı passivliyin nə vaxt bitəcəyinə gəlincə, onun əbədi olacağını düşünüb eyforiyaya qapılanlar da, apatiyaya düşənlər də yanılır. Cəmiyyətlərin belə halı uzunömürlü olmur. Bəzən elə hadisələr baş verir ki, xalq vahid orqanizmə çevrilir və ovqatı dəyişir.



# Amerika pisdir, məsləhəti yaxşıdır

Zamin HACI
zaminhaci@gmail.com

**Keçən yazımda iqtidarlı-müxalifətli Azərbaycan xalqının nə istədiyini bilmədiyini qeyd eləmişdim. Buna daha bir misal yazmaq istərdim. Yayda, konkret yazsam avqustda prezidentin iqtisadi islahatlar üzrə köməkçisi Natiq Əmirov "Financial Times" qəzetinə açıqlamasında Azərbaycan hökumətinin neftin qiymətinin düşməsinə hazır olmadığını etiraf eləməklə yanaşı, vəziyyəti düzəltmək üçün işlər görüldüyünü də demiş və misal çəkmişdi ki, dünyada tanınan konsaltinq şirkəti - "McKinsey & Company" ölkəmizə dəvət edilib.**

Bu, doğrudan da dünyada yaxşı iqtisadi məsləhətləri ilə tanınan şirkətdir, əcəb eləyib çağırıblar, ümid eləyək şirkətin dediklərinə əməl eləyərlər. Hərçənd şəxsən mən Azərbaycanın bütün problemlərinin siyasi sistemdən qaynaqlandığı qənaətindəyəm, o cümlədən iqtisadiyyatı da ayrıca götürüb düzəltmək mümkün deyil. İdarəçilik sistemi tamam korrupsiya içindədirsə, orda nə edəcəksən? Öz əllərini kəsəcəklər? O üzdən, "Makkinzi" yox, lap Adam Smiti dirilt, gətir, heç zad dəyişməyəcək. Məni işin başqa tərəfi düşündürür.

Bax, həmin bu konsaltinq şirkətinin mərkəzi ofisi ABŞ-ın Nyu York şəhərində yerləşir. Yəni adını nə qədər "beynəlxalq" qoysan da bu, bir Amerika şirkətidir, Qərb iqtisadi sisteminin övladıdır. Bəs bütün günü Qərbi söyən, Amerikanın Azərbaycanda guya məxməri inqilab qayırdığını iddia edən, Obamanın nəsli-nəcabətini Bəxtiyar Sadıqovun cızmaqara dövlət qəzetciyində yerdən-yerə vuran yapistlər niyə bu "Makkinzi"yə ehtiyac duyublar? Bəlkə birdən bu da sizi, o kinoda deyilən kimi, "qurbağaya döndərsə", nə edərsiniz? O nə pəhrizdir, bu nə alça turşusu? Amerika pisdir, məsləhəti yaxşı, eləmi? Sabir necə yazmışdı? "Qah-qah!.. Qəribə gülməlisən, xaniman xərab"...

Hələ başqa idiot söhbət atıblar ortaya. Guya Rusiya-Azərbaycan-İran yaxınlaşması olubmuş, Bakıda 3 dövlətin rəhbəri görüşübmüş, ona görə Qərb Azərbaycana təzyiqləri artırıb. Bəs Rusiya və İran Azərbaycana nə edirmiş - başını sığallayırmış? Bunlar bizim dostlarımız imiş, xəbərimiz olmayıb. Halbuki bunun biri Ermənistanı saxlayır, üstümüzə qısqırdır, o biri də milyonlarla azərbaycanlını əsir durumunda saxlamaqdadır. Üstəlik, ABŞ-da "Azərbaycan İran və Rusiyanın arasında sendviç kimi əzilir, bizə yardım edin" deyə inildəyən elə yapistlərin xarici desant qruplarından birinin başçısı Səməd əkə Seyidov deyildimi? Yəqin Putinlə Ruhani Bakıya bu sendviçə yağ sürtməyə gəlibmişlər. Neftin qiyməti düşəndən sendviç çox qurumuşdu, boğazdan rahat keçmirdi.

Vəziyyəti yumşaltmaq, repressiyaları azaltmaq yerinə daha kəskin addımlara getmək fikrindədirlər və bu baxımdan ölkənin yaxın perspektivi heç də yaxşı görünmür. Təzə qanun projesi hazırlanır, deputatxanaya çıxarılmaq üzrədir, o projeyə görə Avropa Məhkəməsinin qərarları bizdə qanuni qüvvə daşımayacaq. Bu, Azərbaycan vətəndaşını son ümiddən də üzməkdir. Əslində o məhkəmə işlərə çox gec baxırdı, cərimələr də adətən kiçik olurdu, ancaq hər halda, olmayan yerdə bir təsəlli idi. İndi yapistlər istəyir vətəndaş üçün belə kiçik təsəlli də olmasın.

Sonda bir gülməcə... Dünənki yazımda cəbrayıllıların ölkə həyatında aktivliyi temasında bir zarafat eləmişdim, sən demə, bu tipdə bir söhbət çoxdan - ötən əsrin 90-cı illərində olubmuş. Köhnə dostlardan biri danışdı, mən yazım, siz də oxuyun.

Yazıçı Seyran Səxavət "Ulduz" jurnalında işləyəndə o dövrün tanınmış musiqişünası, olduqca koloritli adamlardan biri Firudin Şuşinski onun iş yerinə gəlir, masanın üstündən jurnalı götürüb vərəqləməyə başlayır. Baxır ki, burda bir şairin şəkli var, adı da Vaqif Cəbrayılzadə yazılıb. Soruşur bu kimdir, Seyran bəy deyir Cəbrayıldandır. Bir neçə səhifə vərəqləyir, görür kimsə ədəbi tənqid yazıb, imzası da Kamil Vəliyevdir, bunun haralı olduğunu soruşur, Seyran bəy deyir bu da cəbrayıllıdır. Yenə vərəqləyir, görür Tofiq Hacıyev adlı bir nəfər türkologiya temasında nəsə yazıb, onu soruşur, Seyran bəy "Cəbrayıldandır" deyəndə, Firudin Şuşinski dözmür, jurnalı çırpır masanın üstünə, deyir: "A kişi, biz görmüşük yazan Şuşadan olar, uzağı Şamaxıdan olar, bu Cəbrayıl da təzə çıxdı?!"




# Ermənilərdən sensasion etiraf - "Bizi atom bombası da xilas etməz..."

## "İsgəndər" raketləri düşmən ölkədə əminlik yaratmayıb; Rusiyanın bu jesti Ermənistanın ağzına verilən əmzik kimi qiymətləndirilir; erməni politoloq öz xalqını eyforiyaya uymamağa çağırır

**Qarabağ problemi ətrafında siyasi-hərbi situasiya daha gərgin fazaya keçib. Bu da öncəliklə Kremlin Ermənistana "İsgəndər" tipli müasir raket kompleksləri ötürməsinə dair iddialarla bağlıdır. Doğrudur, həmin kompleksin Gümrüdəki 102 saylı Rusiya hərbi bazasına məxsusluğu da bildirilir, ancaq fakt ortalıqdadır - belə təhlükəli sistemlər işğalçı ölkənin ərazisindədir.**

O üzdən də həmin sistemlərdən təcavüzkar ölkənin Azərbaycan əleyhinə istifadə edəcəyi, ən azından, guya Azərbaycan üçün müharibə variantına qarşı çəkindirici faktor ola biləcəyi barədə fikirlər səslənib. Hərçənd fərqli mövqedə olanlar da kifayət qədərdir.

Sonuncuların fikrincə, Azərbaycanı belə silahlarla öz ərazilərini güc yolu ilə azad eləməkdən daşındırmaq mümkün olmayacaq, ona görə ki, onun hərbi potensialı ümumən Ermənistandan üstündür və İrəvan yaxın perspektivdə bu üstünlüyü aradan qaldırmağa qadir deyil. Deməli, "İsgəndər" məsələsi əslində yeni müharibə ehtimalını azaltmır, bəlkə də əksinə...

***

"Dağlıq Qarabağ konflikti ilə bağlı indiki şərtlər fonunda ən pis ssenariyə hazır olmaq lazımdır, çünki münaqişə həll olunmayıb, tərəflər isə silahlanıb və bütün arsenalı istifadə etməyə hazırdır". Musavat.com xəbər verir ki, bu barədə **rusiyalı tanınmış analitik və publisist Andrey Piontkovski** yeni müharibənin mümkünlüyü barədə erməni nəşrinə açıqlamasında bildirib. Onun fikrincə, savaş təhlükəsi realdır.

"Məhz bu səbəbdən vasitəçilər özəl danışıqlar və görüşlər reallaşdırmağa çalışırlar ki, münaqişə tərəfləri arasında təmas ipləri qırılmasın. Ancaq konflikt çox mürəkkəbdir, ona çoxlu yan təsirli amillər var. Bütün bunlar da ixtilafın təzədən alovlanması riskini artırır. Necə ki, bunu apreldə gördük. Biz heç vaxt belə təhlükəni istisna edə bilmərik. Amma mən onu da qeyd eləmək istəyirəm ki, Moskva nə hərbi, nə də siyasi müstəvidə bu və ya digər tərəfin üstünlüyünə imkan verməz. Odur ki, hazırkı məqamda yeganə çıxış yolu - Moskvanın təsirini azaltmaqdır", - deyə ekspert vurğulayıb.

Məsələ də ondadır ki, Rusiya amilinin təsiri olmasa, Azərbaycan qısa zamanda özünün hərbi, iqtisadi üstünlüyü, insani və başqa resursları sayəsində öz ərazilərini işğaldan azad edər. Bunu zatən, ciddi erməni təhlilçiləri də bilir və nəzərə alırlar. O sırada "İsgəndər" operativ-taktiki raket kompleksləri də Ermənistan üçün xilas yolu deyil, sadəcə, Kremldən İrəvana Bakı əleyhinə bir müvəqqəti sakitləşdirici "həb", aldatma "əmzik" olduğunun yaxşı fərqindədirlər - hərgah, həmin komplekslərin Ermənistana məxsusluğu bu günədək rəsmən öz təsdiqini tapmayıb. Bu üzdən məntiqini itirməyən erməni təhlilçilər öz xalqını eyforiyaya uymamağa səsləyir, xəbərdarlıqla çıxış edirlər.

***

**"Biz düşünməməliyik ki, bu raketlər xarici qüvvələr üçün, düşmən dövlət Azərbaycandan ötrü gözlənilməz olub. Ən azı Azərbaycan üçün rəhbərlik səviyyəsində bu, yenilik olmayıb. Onlar əmin idilər ki, Ermənistanda belə silah var. Başqa yandan, "İsgəndər"lərin əhəmiyyətini şişirtməyə də ehtiyac yoxdur". Bu sözləri isə 1.in.am saytına açıqlamasında erməni politoloq Ayk Martirosyan deyib.**

"Ermənistan nüvə silahı əldə eləməyib ki. Ermənistan əvvəlki Ermənistan olaraq qalır. Sadəcə, çox güclü raket sisteminə malik olub. Ancaq birincisi, bundan da vacibi odur ki, bu sistemin neçə raketi Ermənistanda ehtiyatdadır. İkincisi isə "İsgəndər"in əhəmiyyəti uzağı vurmağındadır. Bu, bütöv bir şəhəri və ətraf rayonları məhv edən atom bombası deyil. Güclü silahdır, ancaq anlamaq lazımdır ki, bununla Bakını məhv etmək qeyri-mümkündür. Biz həmçinin başa düşməliyik ki, bu, bizim müharibə zamanı hər şeyi itirdikdən sonra istifadə edə biləcəyimiz son resursumuz olacaq - o da əgər Azərbaycanda həmin an eyni silahdan olmasa" - Martirosyan qeyd edib.

**Onun qənaətincə, Azərbaycan İrəvanı vurmayınca Ermənistan Bakıya zərbə endirməyəcək:** "Ermənistan Dağlıq Qarabağdan Bakıya zərbə endirə bilər. Amma İrəvan da Naxçıvan tərəfdən Azərbaycanın hədəfindədir. Azərbaycan həmçinin başqa sistemlərdən zərbələr endirə bilər ki, bu da "İsgəndər" qədər dağıdıcı nəticələr törədəcək".

**Erməni politoloq habelə əmindir ki, "İsgəndər"lər Azərbaycan toplumunda heç bir çəkindirici ovqat doğurmayıb:** "Əlbəttə ki, yox. Dolayı yolla Suriyanın da "İsgəndər"i var. Rusiya ona dəstək verir. Hətta dənizdən bu raketlərin atılması kimi gözəl bir şou da gördük. Amma bu, heç kimi dayandıra bilmədi. Suriyada müharibə davam edir. Odur ki, "İsgəndər"lərə ümid eləməyə, özünü aldatmaqla məşğul olmağa, deməli ki, bu silahlar çəkindirici mexanizmə malikdir, dəyməz. Hətta atom silahımız olsa belə, heç nə dəyişmir. Çünki onu yüz faiz biz istifadə etməyəcəyik".

**Bu xüsusda erməni ekspert Azərbaycanın hətta "İsgəndər"in zərbəsinə hazır olduğunu deyir.** "Onlar artıq hesablayıblar ki, bu zərbələrdən nə qədər itki olacaq. Ona görə ki, Bakıdan ötrü tarixi vəzifə Ermənistanı və erməni amilini regiondan çıxarmaqdır. Bizdən ötrü isə əsas sağ qalmaqdır" - deyə o əlavə edib.

**Bu yerdə yada salaq ki, az öncə tanınmış erməni politoloqu Aleksandr İsgəndəryan da "İsgəndər" kompleksləri ilə Azərbaycanın qabağını almağın mümkünsüzlüyünü dilə gətirmişdi. Sitat:** "Apreldə təmas xəttindəki gərginliyi nəzərə alsaq, belə hadisələrin təkrarlanması tamamilə mümkündür. Demirəm ki, hökmən olacaq, amma "İsgəndər"lər aprel olayları tipli hadisələri önləyəcək silahlar deyil. Apreldəki kimi analoji hadisələr başqa şeylərdən - neftin qiymətindən, Azərbaycanın müharibə hazırlığından, xüsusi hazırlıq keçmiş xüsusi təyinatlılardan asılı olacaq. Yoxsa ki, parada bizə göstərilənlər bu qəbildən eskalasiyaları önləyəcək vasitələr deyil".

***

Şübhə yox ki, erməni hərbi-siyasi rəhbərliyi Azərbaycanın güclü raketdən müdafiə sisteminə malik olduğunun da fərqindədir. Konkret olaraq, "İsgəndər" qalmaqalından sonra bu sistem yüzdə-yüz İsraillə hərbi əməkdaşlıq hesabına daha da təkmilləşdiriləcək. Artıq gəlişmələr də var. İsrail mənbəyinin bildirdiyinə görə, Bakı "Dəmir günbəz"i "Sehrli çubuq" adlı daha etibarlı raketdən müdafiə sistemi ilə əvəzləmək üçün hazırda bu ölkə ilə əməkdaşlıq içindədir. "Sehrli çubuq" isə verilən məlumatlara görə, "İsgəndər" raketləri də daxil, operativ-taktiki raketləri belə havada ikən məhv edib məhv etmək qabiliyyətinə malikdir.

❑ **Siyasət şöbəsi**

# Kremlin Azərbaycana təzyiqlərinin pərdəarxası - Lavrov "aprel savaşı"ndan sonra Bakıda nə demişdi?

**"Aprel müharibəsi"ndən sonra Qarabağ danışıqlarını davam etdirməklə bağlı aktiv fəaliyyətə keçən şimal qonşumuz Rusiyanın qəfildən prosesi dayandırması ortaya müxtəlif suallar çıxarıb. Prezidentlərin Vyana danışıqlarından sonra Kremlin moderatorluğu ilə baş tutan Sankt-Peterburq görüşündə bəyan olunduğu kimi, danışıqların davam etdirilməsi barədə razılaşma əldə olunsa da, növbəti görüşün keçirilməsinə həvəsli görünmədi.**

Bunun ardınca isə Rusiya hava məkanını da nəzarət altına aldığı Ermənistana "İsgəndər" raket komplekslərini verdi ki, bu da Bakıya birbaşa təhdiddir. Əslində danışıqların məntiqi yekunu olaraq Rusiyanın Ermənistandan ən azı Dağlıq Qarabağın ətraf ərazilərini boşaltmağı tələb edəcəyi gözləntilər sırasında idi. Düzdür, bunun qarşılığında Rusiyanın "sülhməramlı" missiyasının bölgəyə yerləşdirilməsi planının olduğundan da danışıldı. Ancaq ümumilikdə Putinin dediyi kimi, tərəflərin "nə qalib, nə məğlub" olması ilə bağlı planın belə işə salınması müşahidə olunmadı.

Belə görünür ki, 2016-cı il də Qarabağ münaqişəsinin həll olunmadığı il kimi tarixdə qalacaq və Rusiyanın "açar" rolunu oynayacağı barədə hətta Almaniya kansleri xanım Merkeldə olan gözləntilər məntiqi nəticəsini tapmayacaq. Problemi həll etmək əvəzinə, Rusiyanın təcavüzkara dəstək verməsi, əraziləri işğal olunan tərəfə isə təzyiqlər göstərməsi nonsensdir. Bəzi müşahidəçilər hesab edir ki, əslində baş verənlər Rusiyanın Azərbaycanı Avrasiya Birliyi, Gömrük İttifaqı və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının çətiri altına sala bilməməsinə verilən adekvat reaksiyasıdır.

Xatırladaq ki, Rusiya XİN başçısı aprel ayında Bakıda olarkən ölkəsinin niyyətini açıqlamışdı. "Azərbaycan nə Avrasiya İqtisadi Birliyinə, nə də ki Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzvdür. Lakin mən bu vəziyyətin dəyişə biləcəyinə ümid edirəm",- deyə, Rusiya xarici işlər naziri Sergei Lavrov demişdi. Görünən budur ki, vəziyyət dəyişməyib və ümidi puça çıxan Moskva təzyiq rıçaqlarını işə salıb. Azərbaycan isə haqlı olaraq işğalçı ölkə ilə bir çətirin altında olmağı mümkün saymadığı üçün öncə ərazilərimizin azad olunmasında israrlıdır.

**"Rusiyanın Azərbaycanı cəzalandırması, zənnimcə, məntiqsiz bir məfhumdur. Xarici və daxili siyasətdə nəyinsə diktə edilməsi cəhdi isə öz maraqlarından irəli gəlir". Politoloq Arzu Nağıyev bu mövzuda "Yeni Müsavat"a danışarkən bildirdi. Qeyd etdi ki, Rusiya regionda nüfuz sahibinə çevrilməyə cəhd edir. Buna nail olmaq üçün isə əsasən müharibə ocaqları yaratmağı, hərbi müdaxiləni üstün tutur:** "Azərbaycanın bu gün ən prioritet məsələsi məhz Qarabağ münaqişəsinin həllidir. Təbii ki, Rusiya özünü SSRİ-nin varisi sayırsa, bu münaqişənin yaranmasında məsuliyyəti öz üzərinə götürməlidir və həlli istiqamətində də mühüm addımlar atmalıdır. Təəssüf ki, Rusiya Ermənistana havadarlıq edərək ən əsas öz məqsədlərini həyata keçirməyə çalışır. Həm də hərbi istiqamətdə, yəni silah-sursat satışı ilə bağlı ciddi müqavilələr imzalayır, eyni zamanda Ermənistanın iqtisadiyyatına tam nəzarət edir, NATO və Rusiya sərhədinin məhz Ermənistandan keçməsini əsas gətirərək nəzarətdə saxlayır".



**Arzu Nağıyev:** "Rusiya özünü SSRİ-nin varisi sayırsa, bu münaqişənin yaranmasında məsuliyyəti öz üzərinə götürməlidir"



**Elxan Şahinoğlu:** "Münaqişə ədalətli həll olunarsa və bölgədə sülh şəraiti yaranarsa, Azərbaycanın prinsip etibarilə Avrasiya İqtisadi Birliyinə üzvlüyü mümkündür"

**A.Nağıyev bildirdi ki, öz növbəsində Qərb Rusiyanın bu addımlarını diqqətlə izləyir və iqtisadi sanksiyalarla demək olar ki, onu cəzalandırır:** "Belə bir məqamda Rusiya Avrasiya İttifaqı məsələsini ortaya atır. Məlumdur ki, bu ittifaq əsasən regional iqtisadi inteqrasiya üçün nəzərdə tutulmalıdır və əsas məqsəd kimi üzv dövlətlərin həyat tərzinin və əhalinin rifahının qaldırılması üçün iş görməlidir. Ancaq faktlar göstərir ki, burum həm də siyasi maraqlar üçün yaranıb. Təsəvvür edin ki, Ukrayna bu ittifaqa daxil deyilsə, hansı Avropadan danışmaq olar? Deməli, əsas maraq Çin, Hindistan, Pakistan, İran və digər dövlətləri bura cəlb etməkdir. Məhz Azərbaycan da əsas maraq doğuran dövlətdir, çünki bizim iştirakımız olmadan normal qurumdan söhbət gedə bilməz. Statistika göstərir ki, bu ittifaq daxilində Rusiya, Belarus və Qırğızıstan arasında ticarət dövriyyəsi getdikcə azalır. Məlumdur ki, Azərbaycanın Avropa dövlətlərinin bir çoxu ilə ikitərəfli müqavilələri mövcuddur və son məqsəd kimi avrointeqrasiya hədəf seçilib. Rusiya və digər dövlətlərlə eyni zamanda MDB çərçivəsində ikitərəfli əlaqələrimiz mövcuddur".

**Politoloqun fikrincə, bu illər ərzində Ermənistanla olan münaqişənin həllinə Rusiya tərəfindən ciddi bir cəhd göstərilmirsə, bu, ancaq siyasi təzyiq deməkdir:** "Buna görə də düşünürəm ki, Azərbaycan heç bir təzyiq və ya təhdidlərə baxmayaraq bütün dövlətlərlə qarşılıqlı münasibətlərə hazırdır və bu istiqamətdə mühüm addımlar atır və Rusiyanın özü də regionda beynəlxalq makrolayihələrdə iştirak etmək niyyətini həyata keçirmək istəyirsə, ilk növbədə Dağlıq Qarabağ münaqişəsinin həllində mühüm rol oynamalıdır. Bütün bunlardan sonra digər layihələr haqqında danışmaq olar".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu isə hesab edir ki, Kreml Ermənistana modern "İsgəndər" raketlərini ötürməklə Azərbaycanla münasibətlərin üstündən xətt çəkdi:** "Azərbaycan rəsmiləri, o cümlədən xarici işlər naziri Elmar Məmmədyarov bir neçə dəfə vurğulayıblar ki, əgər Qarabağ münaqişəsi ədalətli həll olunsa və bölgədə sülh şəraiti yaransa, Azərbaycanın prinsip etibarilə Avrasiya İqtisadi Birliyinə üzvlüyü mümkündür. Bu, birbaşa Kremlə mesaj idi ki, buyurun, sizdən asılı olan Ermənistan hakimiyyətinə təsir edib işğal atlındakı torpaqların azad olunmasını sürətləndirin, biz də Avrasiya İqtisadi Birliyinə üzv olaq. Ancaq bütün bu mesajlar havada qaldı, çünki Kreml Azərbaycanın Avrasiya İqtisadi Birliyinə üzvlüyü naminə konfliktin həllinə həvəs göstərmir".

**E.Şahinoğlu bu qənaətdədir ki, Rusiyanın modern "İsgəndər" raketləri Ermənistanda peyda olduqdan sonra Azərbaycanın iki seçimi var:** "Birinci seçim - rəsmi Bakı Kremlə müraciət edir ki, Rusiya bizə də "İsgəndər" raketləri satsın. Halbuki Kreml eyni adlı raketləri Ermənistana peşkəş edib ki, bölgədə hərbi balans Azərbaycanın xeyrinə pozulmasın. Əgər Kreml Azərbaycana "İsgəndər" raketlərini satmaq istəməsə, qalır ikinci seçim - "İsgəndər" raketlərini havada neytrallaşdırmağa imkan verən raketlərdən müdafiə sistemini əldə etmək. Bu sistemi İsrail Azərbaycana satmağa hazırdır. Rusiyanın Azərbaycana "İsgəndər" raketlərini satacağını düşünmürəm. Çünki əks halda həmin raketləri Ermənistana ötürməzdi. Elə Moskvanın raketləri Ermənistana ötürməkdə məqsədi hərbi balansın Azərbaycanın xeyrinə pozulmasına mane olmaq idi. İndi həmin raketləri bizə də versə, üstünlük yenə də Azərbaycanın tərəfində olacaq. Bu, Kremlin maraqlarına cavab vermir. Digər tərəfdən, Azərbaycan Türkiyənin hərbi strateji müttəfiqidir. Rusiya ehtiyat edə bilər ki, "İsgəndər" raketlərinin texnologiyası NATO ölkəsinin əlinə keçə bilər. Azərbaycanın "İsgəndər"ə qarşı İsraildən müasir raket sistemləri alması da Kremlin xoşuna gəlməyəcək. Çünki Azərbaycan Rusiyanın silahından da üstün olanına yiyələnəcək. Bütün hallarda nə etsək, Moskva razı qalmayacaq. Ancaq biz hərbi qüdrətimizi Rusiyanın xoşuna gəlib-gəlməmək üçün artırmırıq, nə ediriksə, işğal altındakı torpaqların azadlığı üçün edirik. Bunu isə heç kim bizə qadağan edə bilməz".

❑ **E.PAŞASOY**

# Belə bir Rusiya...



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**Rusiya indi də, deyəsən, Azərbaycanın "könlünü almağa" qərar verib. Xəbər yayılıb ki, Moskva Bakıya kiçik raket gəmisi göndərib - guya xoşməramlı jest kimi. Hər halda, xəbərin mahiyyəti belə təəssürat yaradır. Bəlli olub ki, bu gün həmin hərbi gəmi şəxsən Rusiyanın Xəzər Dəniz Donanmasının komandanı, kontr-admiral Sergey Pinçukun rəhbərliyi ilə Bakıya varid olacaq.**

Bu da hamısı deyil. Səfər çərçivəsində qonaqların Fəxri Xiyabana ziyarəti Azərbaycanın Hərbi Dəniz Qüvvələri Komandanlığı ilə görüşü, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə səfəri, həmçinin bu gün - sentyabrın 27-də Bakıda açılacaq "ADEX-2016" 2-ci beynəlxalq müdafiə sərgisində iştirakı nəzərdə tutulub.

Maraqlıdır ki, gəminin şəxsi heyətinin mədəni və tarixi abidələrlə tanışlıq məqsədilə Bakıda gəzintisi, futbol üzrə yoldaşlıq görüşünün keçirilməsi də planlaşdırılır. Üstəlik, Bakı sərgisinə Rusiya özünün döyüş vertolyotlarının yeni modifikasiyaları ilə qatılacaq ki, bu da şəkk-şübhəsiz, Ermənistanı qıcıqlandıran ikinci şok xəbər olacaq. O Ermənistan ki, orada dünənəcən "İsgəndər" kompleksləri ilə bağlı eyforiya yaşanırdı.

Beləcə, Moskva Bakıya etdiyi jestlə bir daha anlatmaq istəyir ki, eyforiyaya gərək yox - nə İrəvanda, nə də elə Bakıda. Çünki Rusiyadan ötrü əbədi dostlar deyil, əbədi maraqlar var. Məhz həmin maraqlar Kremli Azərbaycan kimi vacib ölkəni, özlərinin dediyi kimi, strateji tərəfdaş dövləti də yanında saxlamaq üçün gərəkən addımlar atmağa vadar edir.

Bu üzdən, Moskva vaxtaşırı öz strateji müttəfiqi ilə strateji tərəfdaşı arasında manevr etməyə, oynamağa, lap dəqiqi, ikili standart siyasəti yürütməyə, yeri gələndə isə "qamçı və kökə" siyasəti yürütməyə məhkumdur.

Zarafat deyil, həm işğalçı ilə, həm də işğala məruz qalan tərəflə eyni vaxtda dost olmaq, üstəlik, bu zaman ədalətli münsif, neytral vasitəçi imici saxlamaq asan iş deyil. Zira, ortada işğal, etnik təmizləmə faktları varsa, deməli, tərəflərdən biri yüzdə yüz haqsızdır.

Belə bir tərəf-ölkə ilə dostluq isə beynəlxalq hüquq bir yana, mənəvi prinsiplərə də düz gəlmir. Necə ki, Türkiyə işğalçı Ermənistanla sərhədlərini 24 ildir bağlayıb - yəni qardaş ölkə, Pakistan təcavüzkara münasibətdə əxlaqlı siyasət yürüdür.

Nə yazıq ki, müasir dünyamızda, siyasətdə mənəvi prinsiplər az keçərlidir - əgər o da keçərlidirsə. Bu gün Rusiyanın Azərbaycana, Qarabağ dərdimizə məlum münasibəti buna bariz sübutdur. Gerçək belədir ki, Kreml nə Azərbaycana, nə də Ermənistana münasibətdə əxlaqlı siyasət aparmır - ikisini də aldadır, ikisinə vaxtaşırı siyasi yalanlar danışır, yalan vədlər verir. Təki, Azərbaycan da, Ermənistan da onun orbitində qalsın, uzağa getməsin, Qarabağ məsələsi isə on illərlə uzana da bilər...

Moskva analoji siyasəti başqa qonşularına qarşı da aparır: öz maraqları naminə Gürcüstanın iki bölgəsini artıq işğal edib, Ukraynanın Krımını zorla özünə birləşdirib, indi də gözü Donbasdadır. Halbuki 1995-ci ildə Budapeştdə ABŞ, Böyük Britaniya, Fransa ilə birgə imzaladığı sənədlə Ukraynanın nüvə başlıqlarından imtina edəcəyi təqdirdə onun suverenliyi və ərazi bütövlüyünə yazılı zəmanət vermişdi. Ukrayna nüvə ölkəsi olmaqdan imtina etdi, amma bu, 19 il sonra Rusiyanın Krımı ilhaq eləməsinə mane olmadı. Keşkə, Ukrayna nüvə dövləti kimi qalaydı...

Rusiya bax, belə Rusiyadır - özünün qeyri-əxlaqi siyasəti və beynəlxalq hüquqdan kənar, proqnoz edilməyən davranışı ilə. Nə edəsən ki, bəxtimizə belə bir qonşu da düşüb.

YENİ MÜSAVAT
N 212 (6533) 27 sentyabr 2016



## Manat möhkəmlənir - amma müvəqqəti olaraq...

Nazir "tarazlıq baş verdikdə manat öz ədalətli məzənnəsini tapacaq" deyir, ekspertlər bildirirlər ki, istənilən halda ya hökumət ölkənin valyuta ehtiyatlarının azalması ilə barışmalı, ya da növbəti devalvasiyaya getməlidir...

**Bir aya yaxın valyuta bazarında baş verən dollar ajiotajından sonra vəziyyət nisbətən səngiyib. Hərraca bir neçə milyon dollar çıxarılandan sonra manat yenidən möhkəmlənməyə başlayıb. Mərkəzi Bankın sentyabrın 27-nə olan rəsmi məzənnəsində bildirilir ki, dolların məzənnəsi sentyabrın 23-ü ilə müqayisədə dəyişməyib və 1,6292 səviyyəsində müəyyən olunub. Ekspertlər bildirirlər ki, bu, müvəqqətidir. Tezliklə manat yenidən ucuzlaşmaqda davam edəcək. İlin sonuna yaxın isə manatın ucuzlaşmasının kəskin şəkildə olacağı proqnozlaşdırılır.**

"Biz bazar iqtisadiyyatı şəraitində yaşayırıq. Şübhəsiz ki, bazar iqtisadiyyatı prinsiplərinə uyğun manatın məzənnəsi öz yerini tapacaq. Bu gün Mərkəzi Bank bu prosesi yaxından izləyir, lazım gəldikdə müdaxilələr edir".

APA xəbər verir ki, bunu maliyyə naziri Samir Şərifov deyib.

Nazirin sözlərinə görə, manatın fundamental məzənnəsinin tapılması üçün ölkəyə daxilolmalar və çıxarılan vəsait arasında tarazlıq olmalıdır: "Bu tarazlıq baş verdikdə manat öz ədalətli məzənnəsini tapacaq. Hazırda ölkəyə valyuta daxilolmaları bir qədər azalıb. Buna baxmayaraq, Mərkəzi Bank vasitəsilə keçirilən iki devalvasiya nəticəsində manatın məzənnəsinin ədalətli məcraya yönəltmək istiqamətində işlər görmək mümkün olub. Bu proses bir neçə faktordan asılıdır. Bizim əsas ixrac məhsulumuz olan neftin qiyməti manatın məzənnəsinə təsir edir. Biz çalışmalıyıq ki, idxal əməliyyatlarımız azalsın. Digər tərəfdən, biz ölkəyə daha çox valyutanın daxil olmasına çalışmalıyıq. Bizim ənənəvi ixrac məhsulumuz olan neftlə yanaşı, yeni rəqabət qabiliyyətli məhsulların xarici bazarlara çıxarılmasına çalışmalıyıq. Bu vəzifələr tədricən həll olunduqca, manat nəinki ədalətli məzənnəsini tapacaq, hətta möhkəmlənəcək".

**Ekspert Əkrəm Həsənov məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, bir aya yaxın davam edən "qara bazar" əməliyyatından sonra dövriyyədə milli valyuta azalıb. Bu səbəbdən hazırda manatın məzənnəsi stabil qala bilir:** "Çünki insanlar son manatlarını da getib dollara çevirdilər. Ona görə də Mərkəzi Bank bundan istifadə edərək indi məzənnəni bir az aşağı salıb. Yəni yenə də belə bir təəssürat yaratmaq istəyirlər ki, guya manatın dəyəri bərkidi. Amma elə deyil. İndi bir az da manatın məzənnəsinin cüzi artırılması onun hesabına edirlər ki, insanlar manatı çevirib dollar alırlar. Məcbur olurlar ki, yığdıqları dolları dəyişib yenidən manat alsınlar. Bunun hesabına məzənnədə cüzi dəyişiklik olub. Amma istənilən halda, manat ucuzlaşacaq. İlin sonu yaxınlaşır, xərclər artacaq, ödənişlər edilməlidir. Mərkəzi Bank milli valyuta ilə kreditlər verəcək. Bunun hesabına dolların dəyəri yenə də qalxacaq. Manat bu həddə qalmayacaq. Hətta indiki vəziyyətdə də biz görürük ki, hər həftə milyonlarla dolların hərraca çıxarıldığını elan edirlər. Banklar on milyonlarla dollar alır. Həm Neft Fondu, həm Mərkəzi Bank dollar satır. Deməli, valyuta ehtiyatlarımız onsuz da azalır. Bu baxımdan, demək olmaz ki, milli valyutaya təzyiq azalıb. Çünki yenə də dollar alınır. İlin sonuna da bu, artan xətlə gedəcək. İstənilən halda ya hökumət ölkənin valyuta ehtiyatlarının azalması ilə barışmalıdır, ya da devalvasiyaya getməlidir".

**Ekspert Natiq Cəfərli isə musavat.com-a deyib ki, məzənnə hələ də inzibati qaydada tənzimlənir:** "Hazırda manatın bahalanmasının iqtisadi əsasları yoxdur. Bazara milyonlarla dollar vəsaiti çıxarmaqla ajiotajı yatırmağa çalışdılar. Buna da müəyyən dərəcədə nail oldular. Ona görə də indiki məzənnənin cüzi də olsa möhkəmlənməsi bununla bağlıdır. Amma bu, gələcəkdə manatı gözləyəcək təhlükələrdən sığortalamır. Nə Mərkəzi Bank, nə Neft Fondu bazara hər dəfə valyuta çıxarmaq iqtidarında deyil. Çünki Mərkəzi Bankın da, Neft Fondunun da öz limiti var. O həcmdən artıq valyuta çıxara bilməyəcək. Ona görə düşünürəm ki, bu, müvəqqəti xarakter daşıyır və yaxın günlərdə, həftələrdə dünyada baş verən hadisələrlə paralel olaraq manat ucuzlaşacaq. Neft qiymətində də ciddi oynamalar baş verir. Daxildəki tələb və təklif prinsipini nəzərə alaraq manatın addım-addım zəifləməsinin şahidi olacağıq. Gələn həftələrdə bu proses başlayacaq".

❑ Röya RƏFİYEVA

**Neftin ucuzlaşmasından sonra qeyri-neft sektorunun, turizmin, aqrar sahənin inkişafı, sahibkarlığa əngəllərin aradan qaldırılması məqsədilə Prezident İlham Əliyev sentyabrın 23-də ASAN Xidmətin tabeliyində Ailə Biznesinə Asan Dəstək mərkəzləri yaradılması haqqında fərman imzalayıb. Yeni qurum ailə təsərrüfatlarına, kiçik və orta sahibkarlara dəstək layihələrini həyata keçirəcək. Fərmana əsasən Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin (ASAN Xidmət) tabeliyində "ABAD" publik hüquqi şəxsi yaradılacaq.**

# "ABAD" mərkəzləri qeyri-neft sektorunu abad edəcəkmi?

## Ekspertlərə görə, əsas məqsəd ailə təsərrüfatlarının gəlirliliyini artırmaq, bu yolla kənd təsərrüfatı sahəsinə insanları cəlb etməkdir



"ABAD" mərkəzləri vasitəsilə ailə təsərrüfatlarına, kiçik və orta sahibkarlara dəstək layihələrinin həyata keçirilməsi, bu layihələrin maliyyələşdirilməsi məqsədilə fondun yaradılması, təsərrüfat məhsullarının istehsalı üçün müasir texnoloji istehsal avadanlıqlarından istifadə edilməsinə şərait yaradılması, kiçik və orta sahibkarlara biznes planların hazırlanması, marketinq, brendinq və dizayn, maliyyə-mühasibat, hüquqi yardım xidmətlərinin göstərilməsi, məhsulun sertifikatlaşdırılması və sair xidmətlər nəzərdə tutulub.

Pilot layihə çərçivəsində "ABAD" mərkəzlərinin fəaliyyətə başlaması üçün 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan ASAN Xidmətə 1 milyon manat ayrılıb.

Bəs, bu yeni mərkəzin fəaliyyəti Azərbaycan iqtisadiyyatına və əhalinin gəlirlərinə, ölkədə məşğulluq səviyyəsinə necə təsir göstərəcək?

**Məsələ ilə bağlı "Yeni Müsavat"a açıqlama verən Milli Məclisin İqtisadi siyasət komitəsinin üzvü Vahid Əhmədov bildirdi ki, yeni yaradılan qurumun ASAN Xidmət qədər şəffaf və uğurlu fəaliyyət göstərəcəyinə ümid edir:** «ASAN Xidmət mərkəzi Azərbaycanda fəaliyyətə başladığı gündən orada həyata keçirilən xidmətlərdə bürokratik əngəllər, süründürməçilik, korrupsiya halları faktiki olaraq tamamilə aradan qaldırılıb. Yəni şəffaf bir xidmət həyata keçirilir. Bu gün də ASAN Xidmət mərkəzlərinin tərkibində "ABAD" mərkəzinin yaradılması, sahibkarlığın və ailə təsərrüfatının inkişafı baxımından müsbət haldır. Yəqin ki, həmin mərkəzin nəzdində fond yaradılacaq, dövlətdən maliyyə ayrılacaq və insanlar oraya müraciət edərək banklar vasitəsilə deyil, bu xidmət vasitəsilə özləri üçün təsərrüfat quracaqlar. Kiçik və orta sahibkarlığa yardım üçün bunun əhəmiyyəti böyükdür. Mən inanıram ki, ASAN Xidmət necə şəffaf fəaliyyət həyata keçirirdisə, "ABAD" xidmətdə də belə olacaq və sahibkarlığın inkişafına öz müsbət təsirini göstərəcək. Bu xidmət əsasən kiçik və orta sahibkarlar üçün nəzərdə tutulub".

**Deputat qeyd etdi ki, «ABAD» mərkəzlərinin yaradılması ilk növbədə əhalinin işlə təmin olunması baxımından çox böyük əhəmiyyət kəsb edir:** "Həmçinin hər bir dövlət üçün kiçik və orta sahibkarlığın inkişafı əsas prioritetdir. Əgər dövlətdə bu sahədə heç bir problem yoxdursa, o dövlət daha çox inkişaf etmiş dövlət sayılır. Əgər biz bu sahəni inkişaf etdirə bilsək, bu, dövlət üçün də böyük əhəmiyyət kəsb edəcək. Yaradılacaq fonda vəsait yəqin ki, dövlət büdcəsindən veriləcək, o fond vasitəsilə vəsait insanlara yönəldiləcək və işlər görüləcək. Düzdür, bizim belə fondlarımız çoxdur, ancaq burada şəffaflıq önəmlidir ki, kiçik və orta sahibkarlıqla məşğul olmaq istəyən insan bu sahədə problemlə qarşılaşmasın".

**İqtisadçı ekspert Rəşad Həsənov da "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, "ABAD xidmət" mərkəzlərinin "ASAN"-ın tərkibində yaradılması bu layihənin uğurlu olacağını deməyə əsas verir:** "İlk növbədə onu qeyd edim ki, bu mərkəzin ASAN Xidmətin tərkibində yaradılması hökumətin bu istiqamətdə gələcəkdə atılacaq addımlarla bağlı qərarlı olmasından və prosesin daha şəffaf şəkildə keçiriləcəyindən xəbər verir. Həmçinin ASAN Xidmətin bu günə qədər həyata keçirdiyi şəffaf siyasətin davam etdirilməsi məqsədindən qaynaqlanır. Hazırkı dövrdə bu təşəbbüs qeyri-neft sektorunun inkişafı baxımından müsbət addımdır. Çünki ölkə iqtisadiyyatında bu sahədə vəziyyət heç də ürəkaçan deyil. Ölkə iqtisadiyyatında kiçik sahibkarlığın payı cəmi 2,6 faizdir. Ailə təsərrüfatlarından söhbət gedirsə, təbii ki, ailə təsərrüfatlarının məşğulluqda payı kifayət qədər böyükdür. Ölkə məşğulluğunun 36 faizinin məhz kənd təsərrüfatının payına düşdüyünü nəzərə alsaq, kənd təsərrüfatında çalışanların da 95 faizini məhz ailə təsərrüfatlarında çalışanlar təşkil edir. İstehsalın da təxminən 92 faizi məhz sektorda, ailə-kəndli təsərrüfatlarının fəaliyyəti nəticəsində formalaşır".

**İqtisadçı ekspert ailə kəndli təsərrüfatlarına daha çox diqqət ayrılmasının vacibliyini önə sürərək, "ABAD" mərkəzlərinin bu sahədə inkişaf yaradacağına inandığını qeyd etdi:** "Ölkədə məşğulluğun 34 faizinin məhz ailə təsərrüfatları ilə bağlı olduğunu nəzərə alsaq, onların ölkə iqtisadiyyatında yaratdığı dəyərin ÜDM-də payı 4,5-5 faiz arasında olur. Bu isə o deməkdir ki, həmin təsərrüfatların inkişaf etdirilməsinə, exspensiv inkişaf modelindən intensiv inkişaf modelinə keçirilməsinə çox ciddi ehtiyac var. Qəbul edilən qərarın da əsas məqsədi bu istiqamətdə nailiyyətlərin əldə olunmasına yönəlib. Fərmandan da göründüyü kimi, yeni texnologiyaların cəlb edilməsi, maliyyə fondunun yaradılması, təşəbbüslərin dəstəklənməsi, satışa dəstək verilməsi, logistik dəstəyin təmin olunması kimi məsələlər də burada öz əksini tapıb. O cümlədən konsaltinq xidmətinin göstərilməsi daha səmərəli təsərrüfat subyektlərinin ortaya çıxmasına şərait yaradacaq".

**R.Həsənovun sözlərinə görə, həm ölkə vətəndaşlarının, həm də iqtisadiyyatın bu mərkəzlərin yaradılmasına ehtiyacı var:** "Əsas məqsəd ailə təsərrüfatlarının gəlirliliyini artırmaq, bu yolla kənd təsərrüfatı sahəsinə insanları cəlb etməkdir. Amerika kimi kapitalizmin inkişaf etdiyi ölkədə iqtisadiyyatın 54 faizi kiçik sahibkarlıq hesabına formalaşıb. Avropa ölkələrində də vəziyyət analoji formadadır. Yəni kiçik sahibkarlıq iqtisadi inkişafın təminatçısı hesab olunur. Azərbaycanda da bu sahənin inkişaf etdirilməsinə ehtiyac var. Mən ölkə rəhbərliyi tərəfindən imzalanmış fərmanı yüksək qiymətləndirirəm. Ancaq bu məsələdə icra mexanizminin təkmilləşdirilməsi, şəffaflığın təmin edilməsi əsas fəaliyyət istiqamətlərindən olmalıdır. İşlər sürətləndirilməlidir, ölkə iqtisadiyyatı idxaldan asılılıqdan xilas olmalıdır. Daxili tələbatın ödənilməsi, milli gəlirlərin qorunması, məşğulluğun təmin olunması baxımından bu layihənin uğurlu olacağına ümid edirəm".

❑ Nərgiz LİFTİYEVA

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 212 (6533) 27 sentyabr 2016



# Rusiyadan Ermənistanı qıcıqlandıracaq qərar

"Rusiya vertolyotları" holdinqi Bakıda keçiriləcək «ADEX-2016» hərbi sənaye sərgisinə özünün ən yeni modellərini göndərir; düşmənin "İsgəndər" təhdidinə Azərbaycandan tutarlı cavab; hərbi ekspertlər işğalçıya cavab imkanlarının yetərli olduğuna əmin edirlər...

**Ermənistan paytaxtında nümayiş etdirilən "İskəndər" operativ-taktiki raket komplekslərinin üzərindəki sirr pərdəsi hələ də çəkilməyib. Nə Rusiya, nə də Ermənistan hakimiyyəti rəsmən bu dağıdıcı raketlərin hansı ölkəyə məxsus olduğu, keçirilən hərbi paradda nə məqsədlə nümayiş etdirildiyinə hələ ki aydınlıq gətirməyib. Amma qəribəsi budur ki, qarşı tərəf susduqca Azərbaycanın rəsmi qurumları da məsələ ilə bağlı izahat verilməsi zərurəti barədə mövqe bildirməyə tələsmir.**

Ötən gün də Xarici İşlər və Müdafiə nazirliklərindən Azərbaycanın təhlükəsizliyinə birbaşa təhdid sayılan bu məsələyə münasibət öyrənmək cəhdlərimiz nəticə vermədi. Güman etmək olar ki, Bakı Ermənistanın Azərbaycanla Rusiyanın münasibətlərinə xələl gətirmək istiqamətində cəhdlərindən xəbərdar olduğu üçün bu məsələdə təmkinli davranmağa üstünlük verir.

*****

**"Bizim "İsgəndər" raketlərimiz olmasa da, ondan da daha müasir və güclü Hava Hücumundan Müdafiə və Hərbi Hava Qüvvələrinə aid silah-sursatlarımız var və lazım olanı da alınır. Bir də, biz borclu deyilik ki, ordunun arsenalındakı bütün texnikamızı çıxarıb nümayiş etdirək. Sadə dillə desək, ciddi narahatçılıq üçün elə də əsas yoxdur". Ehtiyatda olan polkovnik-leytenant Üzeyir Cəfərov "Yeni Müsavat"a açıqlamasında belə dedi.**

**Onun sözlərinə görə, sentyabrın 21-də İrəvanda keçirilən hərbi paraddan sonra sanki bədnam qonşularımızın "gözünə işıq gəlib".** "Sən demə, bunların Tanrıdan arzuladıqları ən böyük istəkləri "İsgəndər" raketləri imiş və indi bunlar buna nail olduqdan sonra dünyanın ən xoşbəxt varlıqlarıdır. Bu binəvalar daha demirlər ki, onların bizə göstərdikləri silah və sursatdan çoxlarında var və Azərbaycan Silahlı Qüvvələri də öz müdafiəsini və təhlükəsizliyini təmin etmək üçün lazım olan hər şeyə malikdir",- deyə Ü.Cəfərov əlavə etdi. Ekspertə görə, ölkənin siyasi-hərbi rəhbərliyi Azərbaycanın güclü müdafiəsi üçün nə lazımdırsa edib və edir: "İndi bu raketlərin guya onlara məxsus olması ilə bağlı az qala gecə-gündüz danışan erməni-rus avantürüstləri bir şeyi unudurlar ki, dünyada dövlətlərin nüvə silahları var və onlar onilliklərdir ki, o silahı biri digərinə tuşlayıb və hələ də ondan istifadəyə ürək eləmir. İndi biz durub hansısa operativ-taktiki raketə görə öz əzəli torpaqlarımızdan imtina edəsi deyilik ki. İnşallah, bədbin fikirlər səsləndirən və az qala Qarabağın əldən getdiyini birmənalı söyləyən dostlara və səbirsiz vətəndaşlarımıza da tam səmimi olaraq demək istəyirəm ki, narahat olmasınlar! İki arqument deyəcəyəm və onunla mənə elə gəlir ki, hər şey aydın olacaq. Ermənilərin Bakını və ya digər strateji şəhər və rayonlarımızı vurmağa cəhd etməsi onlara ölümcül başa gələcək. Bir tərəfdən Türkiyə, Naxçıvan faktoru, digər tərəfdən hazırda bizdə olan silah-sursat kifayət edir ki, bir neçə saata İrəvan və ətraf şəhərlər xarabazarlığa çevrilsin. Ona görə də mən bəzi mətləbləri çox xırdalamaq istəməyərək deyirəm ki, əgər ölkəmiz Ermənistandan silah-sursat baxımından zəif olsaydı, bəlkə də hamıdan çox mən həyəcan təbili çalardım. Amma insani resurslar və maddi imkanlar baxımından gücümüz və qüvvəmiz yetərincədir".

**Ü.Cəfərov onu da qeyd etdi ki, artıq Azərbaycanın Türkiyə və İsraillə zəruri silah-sursatın alınması barədə anlaşmaları da uğurla başa çatdırılıb:** "İnşallah, ilin axırına bununla bağlı BMT-yə hesabat veriləndə hər şey məlum olacaq. Ən azından bizim bu proseslərdən çox-çox əvvəldən İsraillə, qardaş Türkiyə Respublikası ilə bu və digər sahələr üzrə çox səmərəli danışıqlarımız və müsbət nəticələrlə yekunlaşan sazişlərimiz olub".

**Digər hərbi ekspertlər də işğalçı ölkənin hərbi cəhətdən Azərbaycandan önə keçməsi barədə iddiaları qətiyyətlə təkzib edib. Ekspert Azad İsazadə Azərbaycanın əvvəllər olduğu kimi bu gün də Ermənistanla müqayisədə hərbi üstünlüyə malik olduğunu söyləyib. Moderator.az-a açıqlamasında A.İsazadə deyib ki, Ermənistanın nümayiş etdirdiyi raket sistemləri Azərbaycan və Ermənistan arasındakı hərbi balans fərqinin azalması ilə bağlı, sadəcə, əsassız təəssürat yaradır.** "Çünki Azərbaycan ordusu həm silahlarına, həm də döyüş hazırlığına görə Ermənistan ordusundan daha üstündür. Ermənistan indiki halda Azərbaycana çatmağa çalışır. Ermənistanın "İsgəndər" raketlərinə sahib olması Azərbaycanla aradakı məsafəni bir qədər qısaldır. Lakin aprel döyüşlərindən sonra Azərbaycan ordusu da ciddi addımlar atıb. Təzə silah növləri əldə edib, İsraildən də yeni silahlar alıb. İki dövlət arasındakı silahlanma yarışı davam edir".

**A.İsazadə deyib ki, "İsgəndər" raket kompleksi orta məsafəli raket hesab olunur:** "Bu raketlər Azərbaycan üçün müəyyən təhlükə ehtiva edir. Ermənistanda bundan öncə köhnə sovet istehsalı olan "Skat" raketləri də mövcud idi. Ermənilər Bakını bu raketlərlə vuracaqlarını da vaxtilə bildirmişdilər. Əgər ermənilər o raketləri Dağlıq Qarabağ ərazisində yerləşdirsələr, Azərbaycan ərazisinin bir hissəsinə zərbə endirmək imkanı əldə edə bilərlər. Ermənilər bütün hədələrə baxmayaraq, bu raketlərdən istifadə etməyiblər. Çünki bilirlər ki, belə bir addım atsalar, Azərbaycan daha ciddi zərbələr endirə bilər. Naxçıvandan İrəvan və digər əraziləri daha tez bir zamanda vurmaq mümkündür. İkincisi, bu cür raketlər qarşı antiraket sistemləri mövcuddur. Hər buraxılan raket o demək deyil ki, hədəfə çatacaq".



Üzeyir Cəfərov



Azad İsazadə



Şair Ramaldanov



Yaşar Aydəmirov

"Əgər "İsgəndər" raketləri artıq Ermənistana məxsusdursa, təbii ki, hədəf ilk növbədə Azərbaycan və burada yerləşən obyektlər olacaq. Əgər onlar Ermənistanın yox, Rusiyanındırsa, o zaman həmin silahların Azərbaycandakı hansısa obyektə yönəlməsi ehtimalı çox azdır. Çünki Rusiyanın Ermənistandakı bazasının tapşırıqlarından biz də məlumatlıyıq". Bu fikirlər isə hərbi-siyasi məsələlər üzrə ekspert, ehtiyatda olan tanınmış **polkovnik Şair Ramaldanova** məxsusdur.

Ekspert onu da vurğulayıb ki, həmin komplekslərin Rusiyaya və ya Ermənistana məxsus olması hələ ki mübahisəlidir, tam dəqiqləşməyib. "Ermənistanın bugünkü iqtisadi vəziyyətini nəzərə alsaq, onların belə bir silah sistemləri almağa imkanının olmasına inanmıram"-ekspert deyib (milli.az). "Hazırda Azərbaycan Silahlı Qüvvələrinin arsenalında istər "İsgəndər" olsun, istərsə də digər silahlar olsun, onlara qarşı dura biləcək yetəri qədər müvafiq silah və texnika var, bunun üçün lazımi tədbirlər görülüb. Təbii ki, qarşı tərəf də ilk növbədə düşmənin ata biləcəyi addımların qarşısını almaq üçün silahlanır. Digər tərəfdən, bizim tapşırığımız yalnız onlara qarşı hansısa tədbir görməkdən ibarət deyil. Bizim qarşımızda duran əsas vəzifə və tapşırıq Azərbaycan torpaqlarını işğalçıdan azad etməkdir. Yəni biz nəinki onlara cavab vermək, hətta torpaqlarımızı azad etmək, düşməni tam məhv etmək gücündəyik. Mən buna tam əminəm və qəti şübhəm yoxdur".

**Ehtiyatda olan general-leytenant, Azərbaycanın Çindəki keçmiş hərbi attaşesi Yaşar Aydəmirov isə deyib ki, Ermənistandakı "İsgəndər" raketləri içi boş olan korpuslardır və bu, Azərbaycanı qorxuda bilməz:** "Digər tərəfdən, bu gün Azərbaycan Silahlı Qüvvələrinin hava hücumundan müdafiə qoşunlarının "İsgəndər" raketinə qarşı cavab verə biləcək çox güclü müdafiə sistemləri və arsenalı var. Qəti şəkildə bunun Azərbaycana qarşı heç bir hərbi təhdidi, riski və qorxusu ola bilməz. Ermənilər hansı addımı atsa, biz hər zaman buna adekvat, qabaqlayıcı və irəliləyici addımlar atırıq"- Y.Aydəmirov əlavə edib.

*****

Bu arada Rusiya Azərbaycana növbəti jestini edib. Məlum olub ki, Rusiyanın vertolyot istehsalı ilə məşğul olan "Rusiya vertolyotları" holdinqi Bakıda keçiriləcək «ADEX-2016» hərbi sənaye sərgisində özünün ən yeni modellərini nümayiş etdirəcək. Virtualaz.org Rusiya vertolyotları" holdinqindən yayılan açıqlamaya istinadən xəbər verir ki, 27 sentyabrda işə başlayacaq sərgidə "Rusiya vertolyotları" mülki və hərbi təyinatlı bir sıra aktual modelləri göstərəcək, habelə «Mi-38» nəqliyyat vertolyotunu, «Mi-28HE» və "Ka-52" (Alligator") döyüş modellərini sərgiyə çıxaracaq.

Holdinqin baş direktoru İqor Çeçikov deyib ki, Azərbaycan "Rusiya vertolyotları"nın ənənəvi tərəfdaşlarından biridir. Bu ölkənin hakimiyyəti silahlı qüvvələrin hava parkının modernləşdirilməsinə böyük diqqət ayırır və mərhələli şəkildə yeni vertolyot texnikası ilə yeniləyir. Çeçikovun sözlərinə görə, holdinq öz partnyorlarına ən qabaqcıl modelləri və ən yeni vertolyotları təqdim edəcək. Habelə holdinq vertolyotların satışından sonra onlara texniki qulluq göstərilməsini və artıq mövcud olan texnikanın modernləşdirilməsini də həyata keçirməyə hazırdır. Sərgi zamanı holdinq Azərbaycanın müxtəlif strukturları ilə əməkdaşlığı genişləndirməyə imkan verəcək razılaşmalar imzalayacaq.

*****

Əslində bu, Rusiyanın ənənəvi siyasətinin məntiqi davamı da sayıla bilər. Çünki Ermənistan Rusiyanın Azərbaycana silah satmasından narahatlığını ifadə edəndə, bununla bağlı İrəvan küçələrindəki aksiyalarda qəzəbli şüarlar səslənəndə belə Moskvadan Bakı ilə silah alverinin davam etdiriləcəyi barədə rəsmi münasibət açıqlanmışdı. Hətta o zaman açıq şəkildə bildirilmişdi ki, Azərbaycana silah satışı dayandırılsa, Bakı yeni bazar axtarışına çıxacaq.

Təbii ki, söhbət silah bazarındakı böyük vəsaitlərdən gedir və Rusiya Azərbaycanla 4 milyardlıq razılaşmanın ardınca öz müştərisindən yeni gəlirlər əldə etməyə çalışacaq. Üstəlik də Ermənistanda nümayiş etdirilən "İsgəndər" kompleksindən narahat olan Azərbaycana "buyurun, istədiyiniz silahları sizə satmağa hazırıq" cavabı da verilə bilər.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Cavid TURAN

YENİ MÜSAVAT
N 212 (6533) 27 sentyabr 2016

# Beynəlxalq maliyyə qurumlarına ehtiyacımız varmı?

## Ekspertlər bildirirlər ki, ehtiyac hələ kritik həddə deyil

**Azərbaycanın xarici, beynəlxalq maliyyə qurumlarından kredit alması məsələsi yenidən gündəmdədir. Ekspertlər məsələyə fərqli prizmadan yanaşırlar. Bəzi ekspertlərin fikrincə, ölkənin kredit ehtiyacı hələlik kritik həddə deyil. Ancaq ölkə müxtəlif yerlərdən borc axtarır.**

Professor Elşad Məmmədov məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, Azərbaycanın ehtiyacı hələ ki kritik həddə deyil: “Beynəlxalq maliyyə qurumlarından resursların cəlb edilməsinə, xarici kreditlərə ehtiyac hesab edirəm ki, hazırkı vəziyyətdə kritik həddə deyil. Bununla belə, perspektivdə belə zərurətin daha da aktuallaşacağı istisna olunmur. Makroiqtisadi durumun dinamikası baxımından belə ssenarinin gələcəkdə reallaşacağının ehtimalı var. Belə ki, ölkəyə valyuta daxil olma kanalları baxımından kəskin şəkildə azalan neft dollarlarının real alternativi yoxdur. Yaxın perspektivdə də olacağı gözlənilmir. Tədiyyə Balansının mövcud vəziyyətini və inkişaf dinamikasını, ölkənin beynəlxalq investisiya layihələrində, ilk növbədə Cənub Qaz Dəhlizinin reallaşmasında iştirakına görə xarici öhdəliklərinin artacağını nəzərə aldıqda, milli iqtisadiyyatın xarici valyutaya tələbatının artacağını proqnozlaşdırmaq mümkündür. Bununla belə, hesab edirəm ki, xarici kreditlərin perspektivdə ölkəyə cəlb olunması şərtlərinin ağırlaşacağı gözlənilləndir. Beynəlxalq reytinq agentlikləri tərəfindən ölkənin reytinq göstəricilərinin aşağı salınması sözsüz ki, beynəlxalq kreditlərin şərtlərinə təsir edəcək. Əslində həmin reytinq agentliklərinin fəaliyyətinin əsas məqsədlərindən biri də məhz ölkələrin suveren kredit reytinqlərinin müəyyən edilməsi və kreditorlara özünəməxsus şəkildə konsaltinq xidmətlərinin göstərilməsindən ibarətdir. Bu prosesin artıq ölkə iqtisadiyyatına kritik olmasa da, təsiri hiss olunmaqdadır. Hesab edirəm ki, 5 faiz dərəcəsi ilə SOCAR-ın daxili bazarda yerləşdirdiyi istiqrazların da əsas səbəblərindən birini məhz xarici kreditlərin ölkəyə cəlb olunma şərtlərinin ağırlaşmasında axtarmaq lazımdır. Bu məsələ ilə bağlı bir prinsipial məqama nəzər salmaq lazımdır. Belə ki, söhbət ümumiyyətlə xarici kreditlərin ölkəyə cəlb edilməsi ilə bağlı problemlərdən getmir. Çünki Azərbaycana qarşı hər hansı bir beynəlxalq sanksiya rejimi mövcud deyil, kredit təşkilatlarının əsas missiyası isə elə məhz kredit resurslarının yerləşdirilməsindən ibarətdir. Digər tərəfdən, Azərbaycanın, o cümlədən xeyli hissəsi ölkə xaricində yerləşdirilmiş ki, bu da vacib məqamdır, kifayət qədər aktivləri var. Kreditlərin müvafiq təminatı baxımından, bu da xarici kredit mənbələrinə çıxışı ölkə üçün mümkün edir. Əsas problem həmin kreditlərin şərtləri ilə bağlıdır. Belə ki, yaxın və orta müddətli perspektivdə neft qiymətlərinin artacağı gözlənilmədiyinə görə ölkəyə cəlb olunan kreditlərin şərtlərinin ağırlaşacağı ehtimalı yüksəkdir”.



**Ekspert Rövşən Ağayev sosial şəbəkədə bildirib ki, hazırda çıxış yolu ölkəyə xarici investisiyanın gəlişini təmin etməkdir. Bir ay əvvəl baş verən valyuta çatışmazlığının bazarda ciddi ajiotaj yaratmasına diqqət çəkən ekspert qeyd edib ki, ölkəyə xarici investisiyanın gəlişi islahatlara maraq göstərməyən siyasi hakimiyyətin maraqlarına ziddir:** “Ölkəyə xarici investisiyanın gəlişini təmin etmək real islahatlara maraq göstərmək istəməyən siyasi hakimiyyətin maraqlarına cavab vermir. Problem ondadır ki, ölkənin valyuta gəlirləri kəskin azalıb, amma valyuta ehtiyaclarını nəinki sabit saxlamaq mümkün olub, əksinə, xeyli artıb- bu artım özünü həm kapital qaçışı, həm də xarici borcların kütləvi qaytarılması formasında göstərir”.

Ekspertlər qeyd edirlər ki, ölkənin reytinqi nə qədər aşağı düşürsə, onun aldığı kredit faizləri də bir o qədər artır. Bildirilir ki, ölkəyə neftdən gələn gəlirlərin azaldığı, valyuta daxilolmalarının minimuma endiyi bir vaxtda hazırkı iqtisadi böhranda çıxış yollarından biri də xaricdən kredit borclarının alınmasıdır. Hökumət rəsmilərinin xaricdən alınacaq kreditə ehtiyac olmadığını deməsinə baxmayaraq, ekspertlər buna ciddi ehtiyac olduğunu vurğulayırlar. Həmçinin bildirirlər ki, məsələ ilə bağlı ciddi problem yaranmaqdadır. Ekspertlərin sözlərinə görə, hazırda xaricdən borcların cəlb olunması istiqamətində müəyyən işlərin görüldüyü açıq-aşkar görünür. Hazırkı böhranlı vəziyyətdən çıxış yolu kimi xarici borclanma yolunun seçilməsi də variantlardan biri idi. Çünki ölkəyə birbaşa kapital qoyuluşunun cəlb olunması çox çətindir. Ona görə də xaricdən kredit alınması gündəmdədir. Ancaq bu məsələdə də çox böyük çətinliklər var. Birinci çətinlik ondan ibarətdir ki, beynəlxalq institutların, o cümlədən ən böyük kredit təşkilatları olan Beynəlxalq Valyuta Fondu və Dünya Bankı müəyyən reytinqlər çərçivəsində verirlər və müəyyən islahatlar tələb edirlər. Hökumətin də bu islahatlara gedəcəyi məlum deyil. Digər önəmli məsələ ölkənin gəlirlərinin azalması və kredit reytinqinin reytinq agentlikləri tərəfindən aşağı salınmasıdır. Ölkənin reytinqi nə qədər aşağı düşürsə, onun aldığı reytinq göstəricisi üzərindən hesablanmış kredit faizləri də bir o qədər çox artır. Həmçinin vurğulanır ki, daha böyük problem Azərbaycanda alınan kreditlərin xərclənməsinin effektivliyi ilə bağlıdır. Bu günə qədər Azərbaycana 125 milyard dollardan yuxarı neft pulu gəlib. Bunun böyük bir hissəsi investisiya şəklində yatırılıb. Onların xərclənmə effektivliyi çox aşağı olduğundan, qeyri-neft sektorunun yaranmasında, ölkənin çoxşaxəli iqtisadi modelə keçməsi, biznesin fundamental problemlərinin həllində nəticə əldə olunmayıb. Bu isə onu göstərir ki, kapital qoyuluşu effektiv deyil. Korrupsiya səbəbindən investisiya qoyuluşları effektiv idarə olunmur.

❑ Röya RƏFİYEVA

# Gözlənilən neft toplantısı - niyə ən çox Rusiya narahatdır?

## Neftin qiymətinin düşəcəyi barədə proqnozlar ciddiləşir; hasilatın dondurulması ilə əlaqədar anlaşmanın məna kəsb etməyəcəyi də vurğulanır...

**Neft hasilatının azaldılması barədə müzakirələr sentyabrın sonuna yaxın daha da şiddətlənib. Son olaraq bildirilir ki, İran hasilatı dondurmağı qəbul etsə, Səudiyyə neft hasilatını azaltmağa hazırdır. Səudiyyə Ərəbistanı o halda öz neft istehsalını bu ilin əvvəllərindəki səviyyəyə düşürə biləcəyini təklif edib.**

“Reuters”in xəbərinə görə, təklifin bu ay edildiyi və İranın isə hələ bunu nə qəbul, nə də rədd etdiyi qeyd olunub. Xəbərin ardınca neft bahalaşıb. Brent neftin qiyməti 0,4 faiz qalxaraq 47,81 dollar olub. Ölkələr isə neftin qiymət enməsindən narahatdırlar və itkiləri hesablayır. Qiymət 25 dollara düşsə, bu il Rusiyanın 12 iri bankı ümumilikdə 3,4 trilyon rubl (təxminən 53,2 milyard ABŞ dolları) itkiyə məruz qalacaq. Rusiya Mərkəzi Bankı apardığı stress-testin nəticələrini elan edib. Bundan başqa, qurum test nəticəsində müəyyən edib ki, neftin 25 dollara satılması ölkənin ümumi daxili məhsulunun (ÜDM) 5,7 faiz azalması, ölkədə dolların 88 rubla çatması ilə nəticələnə bilər. Bank “qara qızıl”ın 19 dollara qədər ucuzlaşması ilə bağlı gözləntilərini də açıqlayıb. Stress-testin nəticələrinə görə, bu halda Rusiya banklarının itkisi 3,75 trilyon rubl (təxminən 57,75 milyard dollar) təşkil edəcək, ÜDM 7,8 faiz azalacaq, dollar isə 100 rubla qədər bahalaşacaq.

ABŞ-da fəaliyyətdə olan neft-qaz quyularının sayı 17-23 sentyabr tarixlərində 5 ədəd və ya 0,98 faiz artaraq 511 ədəd təşkil edib. ABŞ-ın neft-qaz sektoruna xidmət göstərən “Baker Hughes” şirkəti açıqlayıb ki, hesabat həftəsində aktiv neft quyularının sayı 2 ədəd artaraq 418, qaz quyularının sayı isə 3 ədəd artaraq 92 ədəd, qarışıq fəaliyyət göstərən quyu sayı isə sabit qalaraq 1 ədəd olub. Beləliklə, keçən ilin eyni dövrü ilə müqayisədə neft quyularının sayı 223 ədəd və ya 34,8 faiz, qaz quyularının sayı isə 105 ədəd və ya 53,3 faiz, ümumilikdə isə neft-qaz quyularının sayı 327 ədəd və ya 39 faiz azalıb.



Ekspertlər bildirir ki, neftin qiyməti ilin sonuna qədər 40 dollar/barel səviyyəsindən aşağı düşəcək. Lakin sentyabrın 26-28-də Əlcəzairdə keçiriləcək neft hasilatçısı ölkələrinin qeyri-formal sammiti ərəfəsində neftin qısa müddətli olaraq 50 dollar/barelə kimi bahalaşması mümkündür. Rusiyanın keçmiş maliyyə naziri, hazırda Strateji Araşdırmalar Mərkəzinin rəhbəri olan Aleksey Kudrin isə deyib ki, neftin hər barelinin qiyməti yaxın illərdə 30 dollara, 20 illik müddətdə isə daha da aşağı enə bilər. Onun sözlərinə görə, neft ucuzlaşdıqdan sonra Rusiyanın dövlət büdcəsinin kəsiri ümumi daxili məhsulun (ÜDM) 3,7-3,9 faizinə çatıb.

**“Neftin qiyməti 40 deyil, 30 dollar olsa, nə baş verəcək? Nəzəri olaraq neft bu il olmasa da, yaxın illərdə 30 dollara qədər ucuzlaşa bilər. Mən şəxsən 20 illik dövr ərzində qiymətlərin bu səviyyədən də aşağı düşəcəyini proqnozlaşdırıram. Belə ki, Çin iqtisadiyyatında yaranan böhran nəticəsində neft bazarında təklifin artması və digər mənfi hallar bunu deməyə əsas verir. Biz buna hazır olmalıyıq”** - Kudrin bildirib.

“BP Rusiya”nın vitse-prezidenti Vladimir Drebentsov isə qeyd edib ki, neft hasilatının dondurulması ilə əlaqədar hər hansı anlaşma cari vəziyyətdə heç bir məna kəsb etməyəcək. Onun sözlərinə görə, neft bazarında təklifin həddən çox olması qiymətlərin sabit artımını təmin edə bilməz. Drebentsov deyib ki, hasilatı azaltmaqla düşən neft qiymətləri ilə mübarizə aparmaq olmaz, əsas məsələ təklifin azaldılmasıdır: **“Hazırda neft bazarında qiymətləri dəstəkləyən amil bəzi ölkələrin gündəlik 2 milyon barelə yaxın hasil etdikləri neftin əldə olunmasında yaranan problemlərdir”.**

Uzunmüddətli perspektivdə isə BP rəsmisi ABŞ-ın şist neft hasilatı göstəricinin əsas rol oynayacağını bildirib. Onun sözlərinə görə, neft sənayesi tarixində elə bir ölkə olmayıb ki, ardıcıl 4 il hasilatı gündəlik 1 milyon barel artırmış olsun: **“Bu il ABŞ-ın neft hasilatında bir qədər sengimə olsa da, bu ölkənin artım potensialı yüksəkdir. Belə ki, şist neft hasilatının əsasında texnologiyaların inkişafı durur”. V.Drebentsov məhz bu səbəbdən Əlcəzair görüşünə şübhəli baxdığını deyib: “Hasilat dondurularsa neftin qiyməti yüksələcək, nəticədə ABŞ yenidən hasilatı sürətlə artıracaq. Cari reallıqlarda hasilatı dondurmaqla bağlı anlaşmaya əsas yoxdur”.** Onun sözlərinə görə, yaxın illərdə əsas məsələ ABŞ-ın şist neft ehtiyatı bazasının tükənməsinə çalışmaqdır.

“S&P Global Ratings” (S&P) beynəlxalq reytinq agentliyi isə 2016-cı ildə neftin qiymətinə dair proqnozunu yaxşılaşdırıb. Yenilənmiş proqnoza əsasən, 2016-cı il üçün “Brent” və WTI markalı neftin bir barelinin qiyməti 40 dollardan 42,5 dollaradək qaldırılıb. Agentlik hesab edir ki, neftə olan tələbatın artması yaxın bir neçə il ərzində qeyri-stabil olacağına baxmayaraq, müsbət qalacaq. **“Neftin hazırkı bolluğu orta müddətli və uzaq müddətli perspektivdə artıq müşahidə olunmayacaq”**,- deyə məlumatda qeyd olunur. Bu, yeni layihələrin azlığı və yataqların tükənməsi ilə izah olunur.

Ekspertlərə görə, neftin dünya bazarlarında qiymətinin hansı səviyyədə olması Azərbaycan iqtisadiyyatı üçün də uzun müddət strateji əhəmiyyət kəsb edəcək. Hələ uzun müddət ölkə iqtisadiyyatının əsas makroiqtisadi göstəriciləri neft qiymətlərinin konyukturuna köklənəcək. Əksər ekspertlər qeyd edirlər ki, dünya iqtisadiyyatında və siyasətində hər hansı fövqəladə hadisə baş verməzsə, neft qiymətlərində ciddi dəyişiklik olmayacaq.

❑ RÖYA

YENİ MÜSAVAT
N 212 (6533) 27 sentyabr 2016

# Rusiya Bakıya hərbi gəmi göndərir - güc nümayişi, yoxsa dəstək...

**Elxan Şahinoğlu:** "Bu, Kremlin Azərbaycanla Ermənistan arasında balans yaratmağa hesablanmış addımı ola bilər"

**Şahin Cəfərli:** "Moskvanın bu addımı Xəzər regionundan kənardakı qüvvələrə ünvanlanıb"

**Rusiya Federasiyası Xəzər Dəniz Donanmasının komandanı, kontr-admiral Sergey Pinçukun rəhbərliyi ilə "Uqliç" kiçik raket gəmisinin sentyabrın 27-də Bakıya rəsmi səfəri planlaşdırılıb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, səfər çərçivəsində qonaqlar Fəxri Xiyabanda Heydər Əliyevin məzarını və Şəhidlər Xiyabanını ziyarət edəcək.**

Rusiya nümayəndə heyətinin Azərbaycan Respublikası Hərbi Dəniz Qüvvələri Komandanlığı ilə görüşü, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə səfəri, eləcə də "ADEX-2016" 2-ci beynəlxalq müdafiə Sərgisində iştirakı nəzərdə tutulub. Gəminin şəxsi heyətinin mədəni və tarixi abidələrlə tanışlıq məqsədilə Bakıda gəzintisi, həmçinin futbol üzrə yoldaşlıq görüşünün keçirilməsi də planlaşdırılır. Səfər sentyabrın 30-dək davam edəcək.

Xatırladaq ki, 2013-cü ilin avqust ayında Rusiya prezidenti Vladimir Putin Azərbaycana rəsmi səfərə hərbi gəmi ilə gəlmişdi. O vaxt bu, ekspertlər tərəfindən birmənalı qarşılanmamışdı. İndi Rusiya hərbi gəmisi yenidən Azərbaycana gəlir. Ekspertlər budəfəki hərbi gəmi səfərinin səbəblərini musavat.com-a açıqlayıblar.

**Elxan Şahinoğlu musavat.com-a bildirib ki, Rusiya hərbi gəmilərinin Azərbaycan sərhədlərini keçməsi ənənəyə çevrilib:** "Əlbəttə, burada qeyri-adi heç nə yoxdur. Çünki Xəzərsahili ölkələrin hərbi əməkdaşlığı mövcuddur. Bu istiqamətdə Rusiyanın hərbi gəmiləri Azərbaycan limanlarına Azərbaycan tərəfinin icazəsi ilə lövbər sala bilərlər. Bu, hərbi əməkdaşlıq çərçivəsində mümkün ola bilər. Baxmayaraq ki, bizim Rusiyadan, siyasətindən böyük narazılığımız var. Çünki işğalçı Ermənistanı silahlandırır və bu yaxınlarda "İsgəndər" raketləri verib. Buna baxmayaraq, bu, ənənə halını alıb. Amma burada istisna var. Bir neçə il əvvəl Rusiya prezidenti məhz hərbi gəmi ilə Azərbaycana səfər edib. Bu, bir mesajdır, güc nümayişidir ki, Xəzərdə əsas söz sahibi Rusiyadır, onun silahlı qüvvələridir. Başqa mesaj bundan ibarətdir ki, Azərbaycan Rusiyanın hərbi gücü ilə hesablaşmalıdır. Rusiya Xəzərin dibi ilə Türkmənistanla Azərbaycan arasında boru xətti çəkilişinə mane olur. Bu da mesajın bir növü idi, yenə də təkrarlayırlar. Apreldən sonra inam var idi ki, Rusiya Qarabağ münaqişəsinin həllində vasitəçi kimi fəallığını artıracaq. Amma bu ümid puça çıxdı. Əksinə, Rusiya Ermənistanı silahlandırdı. Bu da ondan irəli gəlir ki, Ermənistanın Azərbaycan qarşısında zəif qalmasını istəmir. Əgər yenə də hərbi gəmi ilə bir nümayəndə heyəti gəlirsə, bu, bir daha göstərir ki, Rusiya bununla bizə nümayiş etdirir ki, bölgədə bu balansın kiminsə xeyrinə pozulmasını istəmir. Bir növ bu səfərlə Ermənistanla Azərbaycana münasibətdə balansı saxlamağa çalışır. Sərgidə də öz silahlarını nümayiş etdirəcək. Ermənistana bu silahları peşkəş veriblərsə, müasir "İsgəndər" raketlərini bağışlayıblarsa, rəsmi Bakı bununla bağlı müraciət etməlidir. Bu silahdan almaq istəməlidir. Çünki bəzi ölkələrə bu silahı satmırlar. Onda bilinəcək ki, Rusiya nə dərəcədə tərəfdaş adlandırılan Azərbaycanla hərbi əməkdaşlığa hazırdır. Rusiya rəsmilərinin hərbi gəmilərlə Azərbaycana səfərlərinin çoxalması bir mesaj və nümayişkaranə xaraktərə dönüb".



**Ekspert Şahin Cəfərli isə musavat.com-a deyib ki, Rusiya Xəzərdə lider dövlətin kim olduğunu bir daha hər kəsə nümayiş etdirmək ehtiyacı hiss edir:** "Rusiya gəmilərinin Azərbaycana səfərləri dövlətlər arasında qarşılıqlı razılıq əsasında həyata keçirilir. Azərbaycan gəmiləri də ötən dövrdə Həştərxana dostluq səfərinə getmişdilər. Dənizdə Rusiya ilə Azərbaycanın ikitərəfli və Qazaxıstanla birlikdə üçtərəfli təlimləri və yarışları da keçirilib. Türkmənistan istisna olmaqla, Xəzər sahilində yerləşən bu 3 keçmiş sovet respublikası arasında hərbi və təhlükəsizlik sahələrində sıx əməkdaşlıq mövcuddur. Xəzərin hüquqi statusu məsələsində də 3 dövlətin mövqeləri bir-birinə çox yaxındır. Məncə, bu hadisəni Xəzəryanı dövlətlərə güc nümayişi kimi qiymətləndirmək doğru olmaz. Moskvanın Xəzəryanı ölkələrə güc nümayiş etdirməyə ehtiyacı yoxdur. Rusiya onsuz da burada hərbi baxımdan ən qüdrətli dövlətdir və bu reallığı bütün sahilyanı ölkələr qəbul edir. Lakin bununla yanaşı, şübhə yoxdur ki, Rusiya Xəzər regionunda öz liderliyini təsdiq və nümayiş etdirməkdə maraqlıdır. Yəni güc nümayişi varsa da, bu, daha çox Xəzər regionundan kənardakı qüvvələrə ünvanlanıb. Moskva Azərbaycanın Xəzərdəki təhlükəsizlik məsələləri ilə bağlı ABŞ-la əməkdaşlığında maraqlı deyil. İranın da bu məsələdə maraqları Rusiyanın maraqları ilə üst-üstə düşür. Hər ki dövlət ABŞ-ın Xəzər məsələlərinə müdaxilə cəhdlərindən hər zaman qıcıqlanıb. Digər tərəfdən, Moskva həm də Azərbaycan və Türkmənistan arasında enerji əməkdaşlığının inkişafını, konkret olaraq, "Transxəzər" qaz kəməri layihəsinin reallaşmasını istəmir. Çünki "Transxəzər" layihəsinin həyata keçirilməsi və Avropa bazarına əlavə təbii qaz çıxarılması Rusiyanın enerji maraqlarına daha bir zərbə olar. Bu səbəblə Rusiya öz hərbi gəmilərini dənizdə sərbəst üzdürməklə, Xəzərdə lider dövlətin kim olduğunu bir daha hər kəsə nümayiş etdirmək ehtiyacı hiss edir. Bununla ABŞ və Avropa Birliyinə mesaj verirlər ki, Rusiyanın iradəsi xaricində bu bölgədə hər hansı iri layihə gerçəkləşə bilməz. Rusiyanın Xəzərdən Suriyadakı hədəflərə qanadlı raketlərlə zərbə endirməsi də ilk növbədə ABŞ-a yönəlmiş mesaj idi".

❑ **Röya RƏFİYEVA**

# Özbəkistanın yeni prezidenti kim olacaq...

Rusiya 4 iddiaçıdan hansını dəstəkləyəcək; Qərbin də bu ölkəyə qarmaq atacağı istisna edilmir

**İslam Kərimovun vəfatından sonra Özbəkistanda onun yerini tutacaq şəxsin kimliyi indidən maraq doğurur. Artıq Özbəkistan prezidentliyinə 4 iddiaçının adı müəyyənləşib. Bunlar Milli Şahlanış Demokrat Partiyasının lideri Sarvar Atamuradov, Ədalət Sosial Demokrat Partiyasının lideri Nariman Umarov, Xalq Demokrat Partiyası lideri Hotamjon Ketmonov və Özbəkistanın müvəqqəti prezidenti, baş nazir Şavkat Mirziyoyevdir.**

Əksər ekspertlər dekabrın 4-də keçiriləcək seçkilərdə hakim partiyanın- Liberal Demokrat Partiyasının namizədi Ş.Mirziyoyevin qalib gələcəyini proqnozlaşdırır və mərhum prezident İ.Kərimovun son 26 ildə ölkədə formalaşdırdığı sistemin dəyişməyəcəyini bildirirlər. Bunu da hazırkı hakimiyyət orqanlarının baş naziri dəstəkləməsi və Qərbin bu ölkədə Rusiyaya nisbətən təsirinin zəif olması ilə əlaqələndirirlər. Rusiyanın Özbəkistan rəhbərliyində müvəqqəti prezidenti rəhbər kimi görmək istəyi də artıq sirr deyil. Çünki şimal qonşumuzun bu ölkəni Kərimov zamanındakı kimi təsir dairəsində saxlamağın yeganə yolu baş nazirin prezident olmasından keçir. Siyasi şərhçilər Özbəkistana Amerikanın da qarmaq atacağını istisna etmirlər. Amma nəzərə almaq lazımdır ki, müxalifətin bu seçkilərə təsir qüvvəsi Kərimov zamanından sıfıra endirilib. Müxalif liderlər ya xaricə sürgün ediliblər, ya qaçıblar, ya da ölkə daxilində məhbəs həyatı yaşamağa məhkum ediblər. ABŞ-ın isə Rusiyanın təsir dairəsində olan ölkələrdə inqilabi dəyişiklikləri həmin dövlətlərin daxilində formalaşan müxalifətlə etdiyinin zaman-zaman şahidi olmuşuq. Bütün bunları nəzərə alanda Rusiyanın bu qarşıdurmadan qalib çıxacağını indidən təxmin etmək olar.



**Hikmət Hacızadə:** "Özbəkistan Qərbdən çox uzaqdır"

**Politoloq Hikmət Hacızadə Özbəkistandan müsbət dəyişiklik gözləmir:** "Həmin rejim davam edir, insan haqlarının müdafiəçiləri, müxalif fəallar həbsdədirlər, mətbuata həmin senzura var. Seçki təkcə səsvermə ilə ölçülmür. Özbəkistanda seçkiqabağı azad mətbuat, mühit, debatlar yoxdur. Ona görə heç nə gözləmirəm. Bu ölkədə Rusiya-Qərb qarşıdurması bəyanatlar formasında olacaq. Yalandan seçki keçiriləcək, hazırda hakimiyyəti əlində saxlayan şəxs ölkə rəhbəri olacaq. Sonra da rus müşahidəçiləri deyəcəklər ki, hər şey yaxşı olub, təbrik edirik. Qərb isə bəyanat verəcək ki, bu belə deyil, azad seçki keçirilməyib. Bununla da hər şey bitəcək. Təəssüflər olsun ki, Özbəkistan Qərbdən çox uzaqdır, Azərbaycan kimi Türkiyə və digər ölkələrə yaxın deyillər. Bu baxımdan, ora müdaxilə çətindir. Özbəkistanda axır-əvvəl demokratiya rüşeymlərini biz görəcəyik. Çox şey Rusiyadan asılıdır. Rusiya normal ölkəyə çevrilsə, demokratiya keçmiş SSRİ ölkələrinə, o cümlədən Azərbaycanda da daha sürətlə gedəcək. Əsas Rusiyadır".

**"Sivilizasiyalar və Konfliktlər" Analitik Mərkəzin rəhbəri Əhəd Məmmədli bildirdi ki, Qərbin Özbəkistanda hakim sistemi dəyişməsi qeyri-mümkündür:** "Rusiyanın bu ölkədəki təsiri tamdır. Buna görə Qərb burada oyunçu ola bilməyəcək. Biz bunun nümunəsini Qırğızıstanda gördük. İnqilablar oldu, amma indi vəziyyət necədir, hamıya bəllidir. Bu baxımdan, Özbəkistanda da Rusiyanın namizədi qalib gələcək. İndidən məlumdur ki, Rusiyanın namizədi olan, müvəqqəti prezident səlahiyyətlərini icra edən Şavkat Mirziyoyev seçki qutusundan çıxacaq. Orada demokratiyanın rüşeymlərinin gələcəkdə görünə biləcəyindən söhbət gedə bilməz. Türkmənistanda türkmənbaşı vəfat edəndə hamımız deyirdik ki, orada açılım olacaq, demokratiyaya doğru addımlar atılacaq. Rusiyanın təsiri altında olan ölkələrin heç birində demokratiyaya doğru addımların atılacağı inandırıcı görünmür. Özbəkistan yenə də qapalı ölkə olacaq, müxalifətçilər isə geri qayıda bilməyəcəklər. Sadəcə olaraq, adlar dəyişəcək. Orta Asiya respublikalarının reallığı budur. Bu seçki mühiti hakimiyyətdaxili gedərsə, daha problemli ola bilər. Burada Qərb dairələrinin hansı namizədə dəstək verəcəkləri maraqlı olacaq. Amma artıq bəllidir ki, indiki özbək hakimiyyəti baş naziri dəstəkləyir. Ona görə də digər üç şəxsin namizədliyi formal şəkildədir. Formal demokratiya vitrini təşkil etmək üçün namizədlikləri irəli sürüblər".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 212 (6533) 27 sentyabr 2016

# Salyanda qadın həmcinsini bıçaqladı



**Salyanda bıçaqlanma hadisəsi baş verib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, hadisə Salyan rayonunun Xocalı kəndində qeydə alınıb. Kənd sakini Aygün Həsənova kəsilmiş-deşilmiş xəsarətlə xəstəxanaya gətirilib.**

Salyan Rayon Polis Şöbəsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində hadisəni törətməkdə şübhəli bilinən şəhər sakini Samira Əliyeva tutulub.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**




## Bakıda avtomobil piyadanı vurub öldürdü

**Bakıda piyadanın ölümü ilə nəticələnən yol qəzası baş verib. Xəzər Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, hadisə Buzovna qəsəbəsində qeydə alınıb. Bakı şəhər sakini Aydın İsmayılov idarə etdiyi "Toyota" markalı avtomobillə yolu keçən Nəsibə Vəliyevanı vurub. Nəticədə piyada aldığı xəsarətdən hadisə yerindəcə ölüb.**

## İstirahət günləri yol qəzalarında 2 nəfər ölüb

**İstirahət günləri Azərbaycanda baş verən yol-nəqliyyat hadisələrinin statistikası açıqlanıb. Daxili İşlər Nazirliyindən verilən məlumata görə, şənbə-bazar günləri respublikanın avtomobil yollarında 11 yol-nəqliyyat hadisəsi baş verib. Nəticədə 2 nəfər ölüb, 24 nəfər xəsarət alıb.**


## Təbib Darya xanım

Onurğa yırtığı, osteoxandroz, sağalmaz yaralar, yanıqlar, uzun müddət yataqdan sonra əmələ gələn yaralar, diabetdə trafik xoralar, varikoz genişlənmələr və digər xəstəlikləri cərrahi müdaxiləsiz, xüsusi məlhəmlərlə və xüsusi metodika ilə inyeksiyalarla müalicə edirəm.

**Tel: 051- 634- 40-01**


## Oğru ev sahibini bıçaqladı

**Gəncə şəhər sakini evinə daxil olan oğru tərəfindən bıçaqlanıb. APA-nın qərb bürosunun verdiyi məlumata görə, şəhər sakini, 1961-ci il təvəllüdlü Şamil Məmədov sol bud nahiyəsinin kəsilmiş deşilmiş yarası xəsarəti ilə Gəncə Şəhər Təcili Tibbi Yardım Xəstəxanasına yerləşdirilib.**

Ona dərhal tibbi yardım göstərilib. Ş. Məmmədov tək yaşadığını və evə daxil olan oğrunu tutmağa çalışan zaman bıçaqlandığını deyib.

Faktla bağlı hüquq-mühafizə orqanları tərəfindən araşdırma aparılır.

## Qazaxda 7 yaşlı qızı ilan sancıb

**Qazax rayon sakinini ilan sancıb. APA-nın qərb bürosunun verdiyi məlumata görə, rayonun Aslanbəyli kənd sakini 2009-cu il təvəllüdlü Aysu Mustafa qızı Qəmbərli sağ əlin ilan sancması xəsarəti ilə Qazax Müalicə Diaqnostika Mərkəzinə çatdırılıb.**

Ona dərhal tibbi yardım göstərilib. Vəziyyətinin normal olduğu bildirilir.

## Qayınata kürəkənini bıçaqladı

**Tovuzda qayınata kürəkənini bıçaqlayıb. APA-nın qərb bürosunun verdiyi məlumata görə, rayonun Qovlar şəhər sakini, 1983-cü il təvəllüdlü Ruslan İsmayılov bel nahiyəsinin bıçaq xəsarəti ilə Tovuz Mərkəzi rayon xəstəxanasına yerləşdirilib.**

Ona dərhal tibbi yardım göstərilib. Vəziyyətinin normal olduğu bildirilir. Məlumata görə, R. İsmayılov mübahisə zəminində qayınatası Vitalik Cəfərov tərəfindən bıçaqlanıb.

Faktla bağlı hüquq-mühafizə orqanları tərəfindən araşdırma aparılır.

## Gəncə sakini dərmandan zəhərləndi

**Gəncədə qadın dərmandan zəhərlənib. APA-nın qərb bürosunun verdiyi məlumata görə, şəhər sakini, 1986-cı il təvəllüdlü Tahirə Məmmədova dərman zəhərlənməsi əlaməti ilə Gəncə Şəhər Təcili Tibbi Yardım Xəstəxanasına yerləşdirilib. Ona dərhal tibbi yardım göstərilib. Vəziyyətinin orta ağır olduğu bildirilir. Məlumata görə, T. Məmmədova həddindən artıq dərman preparatı qəbul etdiyinə görə zəhərlənib.**

## Türkiyədə axtarışda olan Gürcüstan vətəndaşı Azərbaycandan gedəndə tutuldu

**"İnterpol"un Türkiyə bürosu tərəfindən barəsində axtarış elan edilən Gürcüstan vətəndaşı "Qırımızı körpü" sərhəd-keçid məntəqəsində tutulub.**

"Report" Gürcüstan KİV-ə istinadən xəbər verir ki, 1977-ci ildə anadan olmuş Yaşar O. Azərbaycandan Gürcüstana gedirmiş.

Saxlanılan şəxs Türkiyə Cinayət Məcəlləsinin silahlı qarət, qanunsuz odlu silah gəzdirmək və başqa bir neçə maddəsi ilə ittiham olunur.

## Toya getdi, toy sahibi döyüb yola saldı

**Samuxda döyülmə faktı qeydə alınıb. APA-nın qərb bürosunun verdiyi məlumata görə, rayonun Seyidlər kənd sakini, 1994-cü il təvəllüdlü Əmrah Qasımov bədənin müxtəlif hissələrinin əzilməsi xəsarəti ilə Gəncə Şəhər Təcili Tibbi Yardım Xəstəxanasına yerləşdirilib.**

Ona dərhal tibbi yardım göstərilib. Ə. Qasımov bildirib ki, o, qonşu kənddə toy şənliyində iştirak edən zaman toy sahibi və onun oğlu tərəfindən döyülüb.

Faktla bağlı hüquq-mühafizə orqanları tərəfindən araşdırma aparılır

## Şəmkirdə ev yandı

**Şəmkir rayonunda yanğın hadisəsi baş verib. APA-nın Fövqəladə Hallar Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, yanğın Şəmkir rayonunun Bayramlı kəndində vətəndaşa məxsus ümumi sahəsi 100 m2 olan birmərtəbəli evdə qeydə alınıb.**

Yanğın nəticəsində 4 otaqlı evin yanar konstruksiyaları yanıb. Evin qalan hissəsi yanğından mühafizə olunub. Yanğın saat 16:07-də yanğınsöndürənlər tərəfindən söndürülüb.

## Ağdam sakinini məzalığa aparıb döydülər, sonra bıçaqladılar

**Ağdamda 39 yaşlı kişi döyüldükdən sonra bıçaqlanıb. APA-nın Qarabağ bürosunun xəbərinə görə, hadisə rayonun Çıraxlı kəndində qeydə alınıb. Ağdam Mərkəzi Rayon Xəstəxanasından APA-ya verilən xəbərə görə, İsmayılov Elnur Asif oğlu xəstəxanaya daxil olarkən onun sol üz nahiyəsi və əllərinin üstü kəsilmiş-deşilmiş vəziyyətə olub. APA-nın əldə etdiyi xəbərə görə , hadisə qısqanclıq zəminində baş verib. E. İsmayılovu kənd məzarlığına aparan bir qrup şəxs onu döydükdən sonra bıçaqlayıb.**

Faktla bağlı Ağdam Rayon Polis Şöbəsində araşdırma aparılır.


## Elan

**Qəbələdə bağ sahibi olmaq istəyənlərin nəzərinə!**

**Qəbələnin gözəl ərazisi olan Vəndam kəndində yola yaxın, dağın ətəyində, meyvə ağacları ilə dolu 54 sot torpaq sahəsi satılır. Hissə-hissə də (6 sot) almaq mümkündür.**

**Əlaqə telefonu: (050) 371-01-60, (070) 335-90-15**

YENİ MÜSAVAT
N 212 (6533) 27 sentyabr 2016

# Valyuta bazarındakı qeyri-müəyyənlik daşınmaz əmlak bazarını çökdürüb

## Mənzillərin alqı-satqısı zəifləyib, kirayə evlər isə bahalaşıb

**Ölkədə baş verən iki devalvasiyadan, dolların 2 dəfə bahalaşmasından sonra daşınmaz əmlak bazarında da qiymət artımı müşahidə olundu. İlk vaxtlarda evlərin qiyməti aybaay artdı. Yay aylarında da mənzillərin qiymətində 6 %-ə qədər artım oldu. Lakin hazırda dolların cüzi də olsa ucuzlaşması əmlak bazarında bahalaşmanı bir qədər səngidib. Həmçinin bazarda real alıcı çox azdır. Ancaq kirayə mənzillərə tələbat artıb və bu da kirayə haqqının bahalaşmasına səbəb olub.**

Musavat.com-un müxbiri Nizami rayonunda fəaliyyət göstərən "Makler bazarı"nda maklerlərlə həmsöhbət olub.

Ev dəllallarının sözlərinə görə, alqı-satqı əməliyyatları azaldığından indi əsas diqqəti mənzilləri kirayə verməyə yönəldiblər. Bir tərəfdən dərs ilinin başlaması ilə bağlı tələbələrin axın etməsi, digər tərəfdən işçi sinfinin paytaxta dönməsi kirayə mənzillərə tələbatı artırıb. Kirayə evlərin qiyməti iki-üç ay öncə ilə müqayisədə 50-100 manat civarında qalxıb.







**Maklerlər bildirdilər ki, kirayə mənzillərin bahalaşması bazara mənfi təsir edir:** "Boş mənzili olanlar çox olsa da, müştəri yoxdur. Bunun əsas səbəbi isə bahalaşmadır. Son aylar mənzillərin bahalaşması kirayə bazarına da təsir etdi. Ev sahibləri qiymətləri artırdılar. Hazırda şəhərətrafı ərazilərdə ikiotaqlı, əşyalı evlər 350 manatdan, üçotaqlılar isə 400 manatdan başlayır. Halbuki əvvəl 300 manata normal şəraiti olan ev tapmaq asan idi. Bunun nəticəsidir ki, maklerlərin də "bazarı" ölüb. Heç kim evini ucuz kirayə vermək niyyətində deyil".

Mənzillərin satış qiymətində də aybaay bahalaşma müşahidə olunur. Ev alqı-satqısı ilə məşğul olan ofislərə baş çəkib qiymətlərlə maraqlandıq.

**Makler Arif Səlimov bildirdi ki, əmlak bazarındakı durğunluq onları müflis duruma salıb:** "Demək olar ki, işləmirik. Daşınmaz əmlak bazarı çöküb. Ev almaq istəyən də gözləmə mövqeyindədir. Ancaq çətin ki, mənzillərin qiyməti bu il ucuzlaşa. Nizami rayonu ərazisində ikiotaqlı mənzil 60-70 min manata, üçotaqlılar isə 80-90 min manata təklif olunur. Halbuki iki-üç ay öncə bu mənzilləri 6-10 min manat ucuz almaq mümkün idi".

**Həmsöhbətimiz son aylar əsasən kirayə evlər verməklə çörəkpulu qazandıqlarını bildirdi:** "Heç kim əmlak bazarına yatırım etmək istəmir. Çünki bazarda qiymətlər stabil deyil. Əlində pulu olan insanlar da bu riskə getmir. Bu səbəbdən də alqı-satqı ofisləri qazancını kirayə mənzil bazarından götürür. Son bir ay ərzində cəmi iki mənzil kirayəyə vermişəm. Hərəsindən 100 manat qazancım olub. 50 manat ev sahibindən, 50 manat da müştəridən... Xərcləri çıxsaq, cüzi miqdarda qazancımız olur".

**Daşınmaz əmlak bazarı üzrə ekspert Ramil Osmanlı "Yeni Müsavat"a açıqlamasında mənzil bazarındakı vəziyyəti şərh etdi. O bildirdi ki, valyuta bazarındakı qeyri-müəyyənlik əhalini daşınmaz əmlaka yatırım etməkdən çəkindirir və bazarda durğunluğa səbəb olur:** "Hər il müəyyən qədər ipotekaların aktivliyini bərpa etmək olurdusa, bu il ipoteka kreditlərinin verilməsində də problem var. Eyni zamanda maliyyə bazarında yaşananlar ümumiyyətlə alqı-satqı əməliyyatlarına təsir edir. Adətən devalvasiya baş verəndə müəyyən bir dövr üçün bazarda alqı-satqı əməliyyatlarına mənfi təsir göstərir. Altı aya yaxındır ki, Azərbaycanın maliyyə bazarında dollar-manat münasibətlərində qeyri-müəyyənlik var. Bu da potensial alıcılarda qeyri-müəyyənlik yaradır. İnsanlar düşünürlər ki, hələ ki vəziyyət tam aydınlaşmayıb, ona görə də faktiki olaraq bu bazara vəsait yatırmaq bir qədər risklidir. Üstəgəl, son vaxtlar Mərkəzi Bank uçot dərəcələrini artırdı. Bu artımdan sonra müəyyən dairələrdə belə bir fikir formalaşdı ki, uçot dərəcələrinin artımı manatla olan əmanətlərin həcminə təsir göstərəcək. Manatla əmanət faizlərinin artması isə daşınmaz əmlak bazarına təsir göstərir. Əlində manatla vəsait olan insanlar bunu müəyyən vaxtda əmlak bazarına yatırırdılarsa, indi əmanət şirkətlərinə qoymağı üstun tuturlar".

**Ekspertin sözlərinə görə, bütün bu informasiyalar indiki halda daşınmaz əmlak bazarındakı proseslərə mənfi təsir göstərən amillərdir:** "Bizim apardığımız araşdırmalara görə, daşınmaz əmlak bazarında qiymətlərdə, xüsusilə köhnə binaların qiymətlərində ciddi dəyişiklik yoxdur. Əksinə, təkrar mənzil bazarında yay aylarında qiymətlərdə stabillik müşahidə olundu. Ancaq kirayə bazarında qiymətlər artdı. Son aylar ərzində aparılan araşdırma köhnə tikililərin qiymətlərinin dinamik şəkildə azaldığını göstərir. Əvvəllər hər ay qiymətlər 4-6% dəyişirdisə, indi bu azalmalar 2 % arasında dəyişir".

❑ **Məğrur MƏRD**
**Fotolar müəllìfìndìr**

# Azərbaycanda toy "qurbanları": girov qalan gəlinlər, bəylər…

## Sosioloq: "Bu, Azərbaycan xalqı üçün mənfi imicdir"



**Elimizin toy kimi gözəl bir adəti var. Amma bu adətin gözəlliyi illər keçdikcə itir. Bu gün toylarımızda adət-ənənələrdən daha çox israfçılıq, göstəriş baş alıb gedir. Ən ciddi problem isə son illər şadlıq evlərində qiymətlərin artması, bunun nəticəsində həm toy sahibinin, həm də elə çağırılan qonaqların mədəni şəkildə soyulmasıdır.**

Elə bir vəziyyət yaranıb ki, əvvəllər toy dəvətnaməsi alan, toy edən sevinirdisə, indi o sevinc bir növ qayğıya, əzaba çevrilib. Toy edənlər borca girir ki, toyu daha dəbdəbəli, süfrəsi daha zəngin olsun. Dəvətnamə alan isə toya salacağı pulun qayğısını çəkir. Hətta elə hallar baş verir ki, toydan gözlədiyi məbləği yığa bilməyən toy sahibi restoranın pulunu ödəyə bilmir və tərəflərdən biri girov kimi saxlanılır. Elə bugünlərdə oxşar hadisə baş verib. Bakıda yerləşən şadlıq saraylarının birində toy edən cütlük restoranı məhkəməyə verməyə hazırlaşır. Səbəb isə restoran sahibinin toy diskini cütlüyə vermək istəməməsidir. Toy sahibi restoran rəhbərliyi ilə toyun yüksək səviyyədə keçəcəyini, yeməklərin zəngin olacağını və məşhur bir müğənninin toyda oxuyacağına əvvəlcədən danışsa da, bunların heç biri olmayıb. Buna görə də toy sahibi restoranın pulundan kəsib...

Azərbaycandan fərqli olaraq xarici ölkələrin toy mərasimləri və menyularına nəzər salanda bizimkindən daha sadə və öz eleqantlığı ilə fərqləndiyini görərik. Məsələn, qonşu Türkiyədə əksər ailələr dəbdəbəli toy mərasimləri keçirməkdən imtina edirlər. Sadəcə, toyda bəy, gəlin və onların ailə üzvləri iştirak edir. Orada toy mərasimləri Azərbaycandan fərqli olaraq 6-7 saat deyil, daha az müddət davam edir. Menyuları isə meyvə suyu və şirniyyatlar olur. Avropa ölkələrində isə toy mərasimlərində qonaqlara daha sadə menyu təklif olunur. Toylarda əsasən şirniyyat və müxtəlif içkilərə üstünlük verilir. Hollandiyada toy süfrəsi nikah mərasimindən əvvəl açılır. Ənənəvi toy menyusuna "gəlinin şəkəri" adlanan konfetlər və "gəlinin göz yaşları" adlanan şərab daxildir. Norveç toyunun ənənəvi xörəyi "gəlin sıyığı" adlanır. Sıyıq buğda və qaymaqdan hazırlanır.

Azərbaycan toylarında isə insan stolun üzərindəki yemək çoxluğundan süfrədə əlini qoymağa yer tapmır.

Düzdür, Azərbaycanda toyların bu qədər israfçı keçirilməsinin qarşısını almaq üçün uzun illərdir müzakirələr gedir, müxtəlif informasiya vasitələrində, televiziyalarda bu məsələ tez-tez gündəmə gətirilir. Amma hələ ki heç bir müsbət nəticə əldə edilməyib.

**Deputat Fazil Mustafa da bugünlərdə öz facebook hesabında israfçı və soyğunçu toylarla bağlı fikirlərini bu cür yazmışdı:** "Təsəvvür edin ki, 500 nəfərlik yeməyin-içməyin pulunu verirsən, toy tamamlanandan sonra ortada qalan heç nəyi götürmək ixtiyarın olmur. Dünyanın hansı yerində belə bir anormallıq ola bilər? Bəlkə mən toydan qalan yemək-içməyi yetim evinə, ahıllar evinə göndərmək istəyirəm, öz ödədiyim pula bunları niyə götürə bilməyim? Həmin salatlar, çərəzlər, içkilər sabahkı günün toy qonaqlarına ötürülür. Bir saat keçməmiş kondisionerləri söndürüb, ürəyi dözməyənlərin çıxıb erkən getməsini təmin edirlər. Qəsdən musiqi səsini elə qulaqbatırıcı edirlər ki, masada kimsə başqası ilə söhbət edə bilmir və qışqırmaqdan boğazı tutulur. Qulluq edənlərə yetərli pul ödənmədiyinə görüb buraxırlar qonaqların üzərinə. Ardınca da yığılan pulların ən azı 60 faizi şadlıq evlərinə qalır. Harınlıq, şöhrətpərəstlik tərəfləri başqa, lüzumsuz yerə 10-15 müğənniyə külli miqdarda pul ödəyərək imkanlarını nümayiş etdirənlər dünən də, bu gün də olacaq. Sözün kəsəsi budur ki, toy mafiyası diri sahiblərini, çadır mafiyası da ölü sahiblərini soyur. Ona görə də Azərbaycan əhalisinin xeyli hissəsi Məhərrəm ayının gəlişinə bu soyğunçu toylardan xilas olma məqamı kimi baxır. Ancaq yeni qurulan ailənin təməli bu cür sıxıntılarla atılırsa, sonrakı ailə münasibətlərinə də təsir göstərir. İnsanlara daha sadə alternativlər imkanı yaradılmalıdır ki, arzulayanlar və imkanı aşağı olanlar heç olmazsa az məsrəflərlə övladlarının xoşbəxtliyə qovuşmasına nail olsunlar".

**Sosioloq Əhməd Qəşəmoğlu isə bunun qarşısını almaq üçün müxtəlif istiqamətdə işlərin getməsinin vacib olduğunu dedi:** "Son 15 ildir ki, hamı toyları tənqid edir, amma heç bir nəticəsi yoxdur. Əksinə, ilbəil vəziyyət daha da pisləşir. 15 il bundan əvvəl toya 50 manat pul salmaq mümkün idisə, indi bu artıq ayıb bir şey olub. Çünki bütün toylarda xərc daha çox çıxır. İndi camaat arasında toya çağırmaq üçün gələn dəvətnaməyə təzə ad qoyublar ki, "povestka", yəni çağırış gəlib. Müharibəyə, əsgərliyə necə çağırış gəlirsə, bax o cür baxırlar. Bu məsələni, sadəcə olaraq, qəzetdə, televiziyada tənqid etmək görünür ki, çıxış yolu deyil. Çünki həmin bir sıra imkanlı insanlar var ki, çalışırlar ki, o şəbəkə qorunub qalsın. Tənqidlə bərabər inzibati yollar da olmalıdır. Burada əhalinin psixologiyası da belədir ki, inzibati yollara məcbur ediləndə daha çox effekt verir. Təəssüf ki, bu, təcrübədə özünü göstərir. Məsələn, Naxçıvanda artıq bu təcrübəni görmək olar. Orada yerli hökumət orqanları toylarda, yaslarda dəbdəbənin qarşısını alırlar və bunun da müsbət nəticəsi var. Bunun qarşısını almaq üçün ikinci yol inzibati yoldur. Təəssüf ki, bizim camaatda yamsılamaq kimi bir xüsusiyyət var. Bir neçə ölkədə filmlər hazırlamaq olar ki, zəngin insanlar çox sadə və maraqlı toy edirlər. Biz ictimai rəyə çatdırmalıyıq ki, Azərbaycandakı bu cür təmtəraqlı toylar bizim üçün ayıbdır. Əhalinin orta aylıq əmək haqqını nəzərə alanda belə çıxır ki, toya getmək üçün əlavə kriminal işlərlə məşğul olmalıdır. Normal əməkhaqqı ilə toya getmək mümkün deyil. Ona görə də bu məsələni bir qədər ciddi diqqət mərkəzinə gətirmək və bunun fəsadlarını göstərmək lazımdır. Fasadlar odur ki, ölkədə cür toylar kriminalizmi artırır. Çünki toya getmək istəyən istər-istəməz əyri yollara əl atır. İkincisi, müğənnilərin bu cür bahalı qiymətlərə toya getməsi gülünc doğurur. Bir professorun iki ilə aldığı maaşı müğənni bir gecədə iki mahnı oxuyub alır. Həmin müğənnilərin hesabınadır ki, bizim telekanallar zəbt olunub. Bundan başqa, toyda köhnə yeməklərin verilməsi, insanların zəhərlənməsi, səs-küydən başlarının ağrıması və sairə kimi fəsadlardan danışmaq lazımdır. Biz əgər dünyanın qabaqcıl ölkələri sırasına çıxmaq istəyiriksə, bu məqamlara diqqət etməliyik. Ümumiyyətlə, hazırkı toy mərasimi Azərbaycan xalqı üçün mənfi imicdir".

❑ **Günel MANAFLI**

# YENİ MÜSAVAT

## Son səhifə

N 212 (6533) 27 sentyabr 2016




## Uşaqlar inam qazanmaq üçün yalan danışır

**Uşaqların yalan danışması valideynləri ən çox narahat edən məqamdır. Amerika alimlərinin gəldiyi nəticəyə görə, yalan danışan uşağın mütləq yaşına baxılmalıdır. Əgər uşağın yaşı 5 yaşdan azdırsa, onun yalan danışmasındakı məqsəd qətiyyən aldatmaq deyil.**

Kifayət qədər sevgi görməyən, gördüyü sevgidən razı qalmayan, diqqət və qayğıdan məhrum yaşayan uşaqlar nəzərləri özlərinə çəkmək üçün qəhrəmanlıq hekayələri uydururlar. Bu uşaqlar xəstələnmək və döyülmək bahasına olsa da hər çarəyə baş vurarlar. Dəcəllik edən və "yalan danışan" uşaqların məqsədi valideynlərini incitmək və ya əsəbləşdirmək deyil. Ancaq uşaq dəcəllik etməklə lazımi diqqət və qayğını əldə edə bilməzsə, sevildiyindən əmin olmazsa xarakterindəki davakarlıq duyğusu özünü daha qabarıq büruzə verməyə başlayar. İbtidai və yuxarı siniflərdə oxuyan uşaqlarda ən çox müşahidə olunan yalan növlərindən biri də məhz inam qazanmaq üçün söylənilən "yalan"dır. Əgər uşaq dərslərini yaxşı oxumadığına görə məktəbdə və evdə tənbehlənər, tənbəlliyi üzünə vurular və axmaq adlandırılarsa, bu, uşaqda sonradan müalicəsi çətin olan alçaldılma duyğusunun formalaşmasına səbəb olar. Uşaq özünün dəyərsiz, axmaq, heç bir iş bacarmayan biri olduğunu düşünməyə başlayar.

# Qadın oğruların dalınca gecə paltarında qaçdı və...

**Üç nəfər silahlı şəxs ABŞ-ın Corciya ştatının sakini olan bir qadının evinə basqın edib. Lenta.ru saytı xəbər verir ki, ev sahibəsi onları əynində gecə paltarı olmasına baxmayaraq qovub. Polis müşahidə kamerasından hadisənin baş vermə anının görüntülərini əldə edib.**



Beş dəqiqəlik videoda görünür ki, əlində silah olan üç nəfər kişi evə daxil olur, işığı yandırır və qarətə başlamaq istəyirlər. Bunu görən ev sahibəsi isə onlara atəş açmağa başlayır və bu zaman qarətçilər qaçırlar. Amma qadın onların arxasınca atəş açmaqdan da özünü saxlaya bilmir. Sonradan məlum olub ki, qarətçilərdən biri aldığı güllə yarasından dünyasını dəyişib. Digər iki oğrunu isə hüquq-mühafizə orqanları əməkdaşları axtarırlar. Yerli polisin verdiyi açıqlamaya görə, ev sahibəsi şəxsi mülkiyyətinin qorunması hüququndan istifadə edib.

# Qəhvə içən qadınlar daha az depressiyaya düşür

**Tədqiqatlar göstərir ki, qadınlar kişilərə nisbətən 2 dəfə artıq depressiyaya düşürlər. Çünki qadınların həm özlərinə tələbatı çoxdur, həm də başqalarından daha çox diqqət, qayğı umurlar. Onu görmədikdə depressiyaya düşürlər.**



Kişilər də depressiyaya düşürlər, ancaq onlara depressiyadan çıxmaq daha çətin olur. Çünki bizdə ictimai qınaq var, "kişilər ağlamaz" deyirik. O, fikirlərini, dərdlərini bölüşə bilmir və bu, kişilərdə daha çox infarkt, insult halları yaranmasına gətirib çıxarır. Belə faktlar da var ki, xanımlar depressiyaya düşəndə, xüsusən xəyanətə uğrayanda saçlarını kəsdirir, hörüklərini kəsib divardan asıblar. Burada məqsəd xarici görünüşündə yenilik etmək, yeni bir imic yaratmaq deyil. Bu cür xanımlar öz xarici görünüşlərinə sanki bir xəsarət yetirir və bunu özünəqəsdin bir növü kimi qiymətləndirmək olar. Amma xanımlar kişilərə nisbətən depressiyadan tez çıxırlar, çünki onlar ən sadə vasitə - alış-veriş etməklə özlərini motivə edirlər. Gündə bir neçə fincan qəhvə içən qadınlar depressiyadan daha az əziyyət çəkirlər. Amerika alimlərinin yeni araşdırmalarinin nəticələri bunu deməyə əsas verir. Nəticələri Amerika Tibb Assosiasiyasinin jurnalinda dərc olunmuş araşdırmalar 10 il davam edib. Alimlərin müşahidə obyekti isə ABŞ-da 50 min tibb bacısı olub. Onlar müəyyən ediblər ki, gün ərzində 2-3 fincan qəhvə içən qadınlarda depressiyaya düşmək riski 20% azdır. Tədqiqatçılar ehtimal edir ki, kofein beyin hüceyrələrini bir sıra toksinlərdən qoruyur.




**QOÇ** - Ətrafınızdakıların sizi lazımınca başa düşməməsi səbəbindən ovqatınız aşağı ola bilər. Amma reallığa obyektiv qiymət verməklə çıxış yolu tapa bilərsiniz. Həmkarlarınızla mülayim davranın.

**BUĞA** - Planetlərin bürcünüzdəki müsbət düzümü bu təqvimi romantik tərzdə başa vuracağınıza dəlalət edir. Ən azı iki istiqamətdən sevindirici xəbər ala bilərsiniz. Saat 19-21 aralığında isə ehtiyatlı olun.

**ƏKİZLƏR** - Uğurlu gün hesab etmək olar. Ötən on gündə yığdığınız gərginlik xeyli səngiyəcək. Günün ikinci yarısında maraqlı görüş və qonaqlıqlarda iştirakınız da gözlənilir. Məğrur olun.

**XƏRÇƏNG** - Sağlamlığınızla bağlı əmələ gəlmiş problemləriniz azalacaq. Amma günün birinci yarısında daha çox istirahət etməlisiniz. Nahardan sonra isə varlanma ehtimalınız mümkündür.

**ŞİR** - Ulduzlar ayın ən uğurlu günlərindən birini yaşayacağınızı bəyan edir. Bir tərəfdən şəxsi işlərinizdə müsbət dönüş baş verəcək, digər tərəfdənsə perspektivli təklif alacaqsınız.

**QIZ** - Səbəbsiz narahatçılığınızı dəf etmək üçün yeni mühitdə, yeni insanlar arasında olmağınız məsləhətdir. Bu səbəbdən qonaq getməyə hazırlaşın. Səhhətinizə də fikir verin.

**TƏRƏZİ** - Bu gün bürcünüzün "hakimiyyət kürsüsündə" əyləşməsi qarşınızda ciddi seçim qoyacaq. İndi konkret addım atmaq yox, yalnız götür-qoy etmək lazımdır. Yeni əlaqələrə isə can atmayın.

**ƏQRƏB** - Yaxşı olar ki, əsas vaxtınızı istirahətə həsr edəsiniz. Yeni əməkdaşlıq haqqındakı planlarınızı müvəffəqiyyətlə başa vurmaq istəyirsinizsə, yaxşı-yaxşı götür-qoy edin. Səfərə çıxmaq daha maraqlıdır.

**OXATAN** - Təxminən saat 14-ə qədər istirahət etməyiniz məsləhətdir. Onsuz da həmin ərəfədə hansısa ciddi bir iş görməyiniz çətindir. Sonrakı müddətdə isə əksinə, aktivliyinizi artırmalısınız.

**OĞLAQ** - Qarşınızda sürpriz dolu bir təqvim dayanıb. Odur ki, passivlik göstərməməli, bütün enerjinizi nəzərdə tutduğunuz planların həlli istiqamətinə yönəltməlisiniz. Axşam mübahisədən çəkinin.

**SUTÖKƏN** - Ruhunuzu bürüyən gərginliklə mübarizədə daxili rahatlığınızı bərpa edə biləcəksiniz. Bunun üçün maraqlı ünvanlarda olmağınız da vacibdir. Qlobal məsələləri məhz bu gün planlaşdırın.

**BALIQLAR** - Yalnız maliyyə məsələlərinin həllində uğur qazana bilərsiniz. Hansısa riskli hərəkət və ya yeni işə başlamaqsa uğursuzdur. Ailə üzvlərinizlə, dostlarınızla mübahisəyə yol verməyin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Amerikalılar işləmək istəmirlər



**Son bir ildə Amerikada işləmək istəyən insanların sayında azalma müşahidə olunub. Bu, son 34 ilin ən aşağı göstəricisi kimi qeydə alınıb. Elə həmin səbəbdən də 4 milyon işçiyə ehtiyac duyan Amerikada bəzi vəzifələr boş qalıb. İqtisadi böhrandan çıxışın ən önəmli sübutu kimi açılan yeni iş yerlərində isə amerikalılar işləmək istəmir.**

Araşdırmalar ölkədə xalqın get-gedə tənbəlləşdiyini ortaya qoyub. "Express Employment Professionals" təşkilatının araşdırmasının nəticələrinə görə, amerikalılar artıq iş axtarmağı bir kənara qoyub. Hər gün daha çox insan sosial güzəştlər üçün müvafiq qurumlara müraciət edir.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 4.750

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.